# Estetika və Mədəni Özünüifadə



Bu nəşrin məzmunu müstəsna olaraq “Azərbaycanda Peşə Təhsili və Təliminin inkişafına Avropa İttifaqının dəstəyi” Texniki Yardım layihəsinin məsuliyyətidir və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

*Azərbaycan Respublikasi Təhsil Nazirliyi tərəfindən 11 oktyabr 2019-cu il tarixli, F-604 saylı əmr ilə təsdiq edilmişdir.*


**Müəllif:**

*Afət Yusifova*

*Vəfa Fətəliyeva*

*Xatirə Hüseynova*

**Rəyçilər:**

*Aynurə Muradova*

*Şəmil Sadiqov*


Bakı - 2019

## Mündəricat


**Giriş** **3**

**"Estetika və mədəni özünüifadə" modulunun spesifikasiyası** **4**

**Təlim nəticəsi 1: Azərbaycan müəlliflərini, musiqisini və vizual rəssamları təhlil etməyi bacarır** **5**

1.1.1. Azərbaycanın üç mühüm müəllifini təhlil edir 5
1.2.1. Azərbaycanın üç mühüm musiqi sənətşünasını təhlil edir 7
1.3.1. Azərbaycanın üç görkəmli vizual rəssamını təhlil edir 10

- *Tələbələr üçün fəaliyyətlər* *12*
- *Qiymətləndirmə* *14*

**Təlim nəticəsi 2: Azərbaycanın müasir mədəniyyətini təhlil etməyi bacarır.** **16**

1.1.2. Əcnəbiyə təqdim etmək üçün Azərbaycanın 3 mədəniyyət sahəsini müəyyən edir 16
2.2.1. Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir 18
2.3.1. Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir 20
2.4.1. Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir 21
2.5.1. Üç mədəni sahənin yazılı təqdimatını hazırlayır 22

- *Tələbələr üçün fəaliyyətlər* *23*
- *Qiymətləndirmə* *26*

**Təlim nəticəsi 3: Kreativlik və estetika anlayışlarını təhlil edir və onlardan istifadə etməyi bacarır** **27**

3.1.1. Kreativlik və estetika anlayışlarını təhlil edir. 27
3.2.1. Kreativlik və estetika anlayışlarının insan həyatinda rolunu təhlil edir 29
3.3.1. Öz peşəsində kreativlik və estetika anlayışlarını necə istifadə edəcəyini təhlil edir. 32
3.4.1. İşində necə yaradıcı olduğunu nümayiş etdirir 37

- *Tələbələr üçün fəaliyyətlər* *38*
- *Qiymətləndirmə* *38*

**Təlim nəticəsi 4: Etiket və nəzakət qaydalarını təhlil edir və onlardan istifadə etməyi bacarır** **40**

Etiket və nəzakət qaydalarını təhlil edir 40
4.2.1. Etiket və nəzakət qaydalarından istifadə edir. 44
4.3.1. Gələcəkdə işləyəcəyi peşəsinə aid işgüzar etika qaydalarını təhlil edir və onlardan istifadə etməyi bacarır. 48

- *Tələbələr üçün fəaliyyətlər* *55*
- *Qiymətləndirmə* *56*

**Ədəbiyyat** **58**

## Giriş

Müasir peşə təlimində Mədəni özünüifadə modulu vacib yerlərdən birini tutur. Gündəlik həyatımızda baş verən məsələlərdə və insanlarla qurduğumuz dialoqlarda, ölkəmizi digər ölkələrdə tanıtmaqda, özümüzü sərbəst şəkildə ifadə etməyimizdə, ən əsası cəmiyyətdə ünsiyyət qurmağımızda bu modul böyük rol oynayır.
Avropa İttifaqının dəstəyi ilə təşkil olunmuş bu layihədə mədəni özünüifadə modulu dörd təlim nəticəsini əhatə edir. Məqsədimiz bu modulu tamamladıqdan sonra tələbələnin Azərbaycan müəlliflərini və rəssamlarını təhlil etməyini, Azərbaycan mədəniyyətini təqdim etməyi, iş şəraitində mədəni və yaradıcı ifadələri istifadə etmək üçün bir mədəni ifadəni müəyyənləşdirməyi bacarmasıdır.
Belə ki, 1-ci təlim nəticəsində Azərbaycan müəllifləri, musiqisini və vizual rəssamları haqqında məlumat və onları təhlil etmək öz əksini tapır.
2-ci təlim nəticəsində Azərbaycanın müasir mədəniyyəti ilə bağlı məlumatlar təhlil olunur.
3-cü təlim nəticəsində mədəni özünü ifadə vasitələri haqqında məlumat və onları düzgün şəkildə seçib istifadə etmək nümayiş etdirilir.
4-cü təlim nəticəsində İş şəraitində mədəni və yaradıcı ifadələrdən istifadə etmək nəzərdə tutmuşdur.

## “Estetika və mədəni özünüifadə” modulunun spesifikasiyası

| |
|---|
| **Modulun adı: Estetika və mədəni özünüifadə** |
| **Modulun kodu:** |
| **Modul üzrə saatlar: 40** |
| **Modulun ümumi məqsədi:** *Bu modulu tamamladıqdan sonra tələbə Azərbaycan müəlliflərini və rəssamlarını təhlil etməyi, Azərbaycan mədəniyyətini təqdim etməyi, iş şəraitində mədəni və yaradıcı ifadələri istifadə etmək üçün bir mədəni ifadəni müəyyənləşdirməyi bacarır.* |
| **Təlim nəticəsi 1: Azərbaycan müəlliflərini, musiqisini və vizual rəssamları təhlil etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| *1. Azərbaycanın 3 mühüm müəllifini təhlil edir;* |
| *2. Azərbaycanın 3 mühüm musiqi sənətşünasını təhlil edir;* |
| *3. Azərbaycanın 3 görkəmli vizual rəssamını təhlil edir.* |
| **Təlim nəticəsi 2: Azərbaycanın müasir mədəniyyətini təhlil etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| *1. Əcnəbiyə təqdim etmək üçün Azərbaycanın 3 mədəniyyət sahəsini müəyyən edir;* |
| *2. Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir;* |
| *3. Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir;* |
| *4. Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir;* |
| *5. 3 mədəni sahənin yazılı təqdimatını hazırlayır.* |
| **Təlim nəticəsi 3: İfadə etmək üçün bir mədəni ifadəni müəyyən etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| *1. Mədəni ifadələri düzgün seçərək təhlil edir;* |
| *2. Hansı mədəni ifadələrin ən çox sevildiyini əsaslandırır;* |
| *3. Mədəni ifadəni nümayiş etdirir.* |
| **Təlim nəticəsi 4: İş şəraitində mədəni və yaradıcı ifadələrdən istifadə etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| *1. Mədəniyyətin işə necə təsir etdiyini qiymətləndirir;* |
| *2. İşində özünü mədəni baxımdan necə ifadə edə bildiyini nəzərdən keçirir;* |
| *3. İşində necə yaradıcı olduğunu təsnif edir;* |
| *4. İşində necə yaradıcı olduğunu nümayiş etdirir.* |

**Təlim nəticəsi 1: Azərbaycan müəlliflərini, musiqisini və vizual rəssamları təhlil etməyi bacarır**

*1.1.1. Azərbaycanın 3 mühüm müəllifini təhlil edir*



- **Azərbaycan Şərqin qədim mədəniyyət ocağıdır**

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə seçilir. Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığına ölkənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də təsir göstərmişdir. Azərbaycan Şərqlə Qərbin qovşağında böyük tarixi İpək yolunun üzərində yerləşən ölkədir. Bu gün də Bakı-Tiflis-Qars dəmiryolunun açılması buna bariz nümunədir. Ölkəmizin müxtəlif sənət növlərinin hər biri ayrı ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq birlikdə vəhdət təşkil etmişdir. Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

Qədim zamanlardan milli musiqimiz ədəbiyyatla birgə inkişaf etmişdir. Məsələn, muğam şərq poeziyası ilə birgə inkişaf etmişdir. Belə ki, muğam ifa olunarkən xanəndələr Azərbaycan xalqının Nizami, Xaqani, Füzuli, Nəsimi kimi qüdrətli şairlərinin qəzəllərini oxumuşlar. Klassiklərimizin və müasirlərimizin yaratdıqları ədəbi əsərlər dünya mədəniyyəti xəzinəsində özünəməxsus şərəfli yer tutur.

**Nizami Gəncəvi (1141-1209)**

Nizami Gəncəvi özündən əvvəlki Azərbaycan və Yaxın Şərq xalqları ədəbiyyatını dərindən öyrənən və onun mütərəqqi cəhətlərini yaradıcılıqla mənimsəyən dahi sənətkardır. Nizami Azərbaycan ədəbiyyatı tarixinə ilk dəfə olaraq həyatın müxtəlif sahələrini geniş və rəngarəng epik lövhələrlə əks etdirən poemalar müəllifi kimi daxil olmuşdur. Nizaminin mürəkkəb insan xarakterləri ilə zəngin olan poemalarında istər əvvəlki dövrlərin, istərsə də şairin yaşadığı dövrün mənzərəsi real və canlı şəkildə yaradılmışdır. Nizaminin özünün "Beş xəzinə" adlandırdığı sonradan isə "Xəmsə" adını alan beş poemasında dahi şair ən yüksək və nəcib bəşəri dəyərləri təbliğ etmiş insanları həyatı və özünü dərk etməyə, insan adını şərəf və ləyaqətlə daşımağa səsləmişdir. Beləliklə, Nizami ölməz sənət əsərləri toplusu olan "Xəmsə"si ilə Azərbaycan və yaxın Şərq xalqları ədəbiyyatı tarixində yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. İnsanın ağıl və biliyi Nizami əsərlərinin baş qəhramanıdır. Nizaminin doğulduğu şəhərdə Şərq və Qərb mədəniyyətləri birləşirdi. Elə buna görə də Nizaminin əsərlərindən onun öz dövrünə görə qabaqcıl humanist fikirlərindən bu sənətkarın hər iki mədəniyyətin varisi olduğu görünməkdədir.



*Şəkil 1.1 Nizami Gəncəvi*

**Mirzə Fətəli Axundzadə (1812 – 1878)**

M.F.Axundzadə Azərbaycan ədəbiyyatında yeni bir eranın başlanğıcını qoymuşdur. O, ictimai maarifçilik hərəkatının ideoloqu, ədəbi tənqidimizin banisi, əlifba islahatçısıdır. O, Azərbaycan dramaturgiyasının, yeni tipli bədii nəsrin banisidir. M.F.Axundzadə Azərbaycan ədəbiyyatı tarixinə yenilikçi, novator bir sənətkar kimi daxil olmuşdur. Məhz buna görə də XIX əsr Azərbaycan ədəbiyyatı tarixində xalqın ictimai–tarixi və ədəbi–mədəni həyatında M.F.Axundzadə qədər müstəsna rol oynayan

ikinci böyük sənətkar yoxdur. M.F.Axundzadə milli ədəbiyyatımızda eyni zamanda fəlsəfi publisistikanın ("Kəmalüddövlə məktubları") və ədəbi tənqidin görkəmli nümayəndəsi kimi də tanınır. Yazıçı "Kəmalüddövlə məktubları" əsərinə yüksək qiymət verərək yazmışdır; "... bu əsər fanatizmi məhv etmək işində yüz min nəfərlik ordudan daha çox iş görə bilər".



*Şəkil 1.2 Mirzə Fətəli Axundzadə*

Azərbaycanda milli teatrın yaranması və inkişafı da bilavasitə M.F.Axundzadənin adı ilə bağlıdır. Kökləri qədim zamanlara gedib çıxan teatr sənətinin tarixi M.F. Axundzadənin 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan "Lənkəran xanının vəziri" və "Hacı Qara" tamaşalarından başlanır. M.F. Axundzadə "Hekayəti–Müsyo Jordan və dərviş Məstəli şah" komediyasında ilk dəfə olaraq Şərq və Qərb mədəniyyətini qarşılaşdırır.

M.F.Axundzadə yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı yeni ideyalarla, yeni insan xarakterləri və orijinal bədii surətlərlə zənginləşir. Bütövlüklə M.F.Axundzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələni təşkil edir.

M.F.Axundzadə Avropada da tanınmışdır. Avropalılar hələ XIX yüzillikdə onu " Azərbaycanın Molyeria" adlandırmışlar.

**Bəxtiyar Vahabzadə (1925-2009)**

Azərbaycan ədəbiyyatının, bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi, xalq şairi Bəxtiyar Vahabzadənin adı təkcə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda mütəfəkkir şair, lirik dramaturq, istedadlı alim və publisist, qeyrətli və cəsarətli ictimai xadim, sadə və səmimi insan kimi məşhurdur. Təsadüfi deyil ki, onun əsərləri – şeir kitabları, dramları və publisist yazıları dünyanın çox dillərində, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar və köhnə Sovet birliyinə daxil olan bir çox xalqların dillərinə tərcümə edilmiş və bu əsərlər çox böyük maraq və sevgi ilə qarşılanmışdır.



*Şəkil 1.3 Bəxtiyar Vahabzadə*

Bəxtiyar Vahabzadə yeni Azərbaycan poeziyasında xalqımızın milli oyanışına xidmət edən əsərlər yaratmış, bütün yaradıcılıq boyu istiqlal və azadlıq ideyaları yaşatmış, qədim şeirlərimizin müdriklik, fəlsəfi dərinlik ənənələrini müasir şeir üslubu ilə birləşdirmişdir.

B.Vahabzadə milli azadlıq hərəkatının öncüllərindən idi.

Ana dilinin sıxışdırılması barədə hər hansı söz danışmaq, açıq yazmaq qadağan olunsa da, B. Vahabzadə repressiyalardan qorxmadan bu mövzuda "Latın dili" şeirini yazmışdır. Latın dili süqut edən Roma imperiyasının dili olmuşdur.

O, yenilikçiliyi şeirizmin klassik ənənələrinə bağlılığında görürdü.

Ana dili mövzusu şairin yaradıcılığından qırmızı xətt kimi keçir. Dil insanı vətənə bağlayan amil, milli varlığın daşıyıcısı, xalqın varlığının mənəvi pasportudur. Ana dilinə münasibət şair üçün xalqa münasibətdir. Dilin hörməti yoxdursa, deməli, xalqa münasibət pisdir. B.Vahabzadə şeirimizin min illik klassik ənənələrinə və köklərinə sadiq bir şairdir. Şair məqalələrdə də göstərir ki, onun qayəsindən, əqidəsindən, xalqa demək istədiyi fikirdən kənarda dil problemi yoxdur. Şairin əsərləri də mövzu və qayədən asılı olaraq, ritm və ahəngcə müxtəlif və əlvandır. Şairin "Özümüzü kəsən qılınc" pyesi "Dədə Qorqud" dastanının motivləri əsasında yazılmışdır. Pyesin əsasında əski türk tayfaları arasındakı düşmənçilik və müharibələr mövzusu durur: özümüzü kəsən qılınc məhz budur. Qüdrətli söz ustası, kəskin publisist, ədəbi-bədii prosesin təşkilatçısı kimi tanınan B.Vahabzadə xalqı düşündürən bir çox məsələlərdə, o cümlədən uydurma Qarabağ problemi ilə əlaqədar

məsələlərdə ağsaqqal kimi ciddi fəaliyyət göstərib.

Xalq şairi Bəxtiyar Vahabzadənin şeir dili zəngindir, o, ən fəlsəfi və mücərrəd fikirləri belə sadə və dəqiq sözlərlə aydın, poetik cəhətdən gözəl ifadə etməyin ustasıdır.

### *1.2.1. Azərbaycanın 3 mühüm musiqi sənətşünasını təhlil edir*



*Mahnı, musiqi, incəsənət, mədəniyyət qədər insanları bir–birinə heç nə bağlamır. İncəsənətin mədəniyyətin, xüsusən də mahının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz!*

Heydər Əliyev

- **Azərbaycan musiqisinin inciləri**

Azərbaycanın zəngin musiqi sənəti çoxəsrlik inkişaf tarixinə malikdir. Bu musiqi haqqında ilk məlumatlar arxeoloji qazıntılar zamanı əldə edilən bir sıra abidələrdən Qobustan (e.ə XVIII- III minilliklər) və Gəmiqaya (e.ə III-I minilliklər) qaya rəsmlərindən alınmışdır. Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qalasına, ab-havasına hopmuşdur. Belə şəhərlərdən Avstriyanın Vyana, İtaliyanın Neapol, Azərbaycanın da Qarabağının Şuşa şəhəridir. Hətta xalq arasında məşhur kəlam var ki, Şuşada körpələr bələkdə belə muğam üstündə ağlarlar. Şuşa konservatoriyasının parlaq nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər.

- **Üzeyir Hacıbəyli**

Üzeyir Hacıbəyli XX yüzilliyin I yarısında dünya musiqi mədəniyyətində öz sözünü demiş, öz yeni dəst–xətti ilə seçilən böyük bəstəkarlardan biridir. O, öz yaradıcılığı və geniş fəaliyyəti ilə Şərq və Qərb musiqi mədəniyyətlərinin yaxınlaşması və qarşılıqdı faydalanması yolunda ən böyük və ən cəsarətli addımlar atmış ilk sənətkar – musiqiçilərdən biridir.




*Şəkil 1.4 Üzeyir Hacibəyli*

Üzeyir Hacıbəyli Azərbaycan musiqi mədəniyyəti tarixində yeni inkişaf yollarının və milli bəstəkarlıq məktəbinin özülünü qoymuş, Azərbaycan musiqisi tarixində ilk opera, ilk musiqili komediya və bir sıra digər janrlarda, ilk nümunələrin yaradıcısı kimi tanınmışdır. Eyni zamanda Azərbaycan dövlət himninin müəllifidir. 1908–ci ildə Ü.Hacıbəyli H.Z.Tağıyevin teatrında qoyduğu Leyli və Məcnun operası ilə təkcə Azərbaycan operasının deyil, bütün müsəlman şərqində opera sənətinin əsasını qoydu.

Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belarus, gürcü və s. dillərə tərcümə edilmiş, xarici dövlətlərdə tamaşaya qoyulmuşdur.

O, ilk Azərbaycan folklorçu – bəstəkar və Azərbaycan musiqisinin lad (məqam) nəzəriyyəsini araşdırıb üzə çıxarmış və əsaslandırmış ilk azərbaycanlı musiqişünas–alimdir. Üzeyir Hacıbəyli, yüz illik dövr keçsə də, hələ də ədəbi–bədii dəyərini itirməmiş, yazılar ilə tanınan publisist, felyetonçu və librettoçu–dramaturqdur.

- **Qara Qarayev**


*Şəkil 1.5 Qara Qarayev*

Qara Qarayev çağdaş Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzedilməz rolu olan bəstəkardır. O, musiqi tariximizə yeni milli bəstəkarlıq məktəbinin yaradıcısı kimi daxil olmuşdur. Bəstəkarın özünəməxsus, dərin fəlsəfi məzmunu və yüksək professionallığı ilə seçilən əsərləri yalnız Azərbaycanda, keçmiş Sovetlər Birliyində deyil, dünyada – ABŞ, İngiltərə, Fransa, Almaniya, Misir, Türkiyə, Çexiya, Polşa, Rumıniya və başqa ölkələrdə böyük şöhrət qazanmışdır və ən yaxşı Qərb dirijorlarının konsert proqramlarında, musiqili teatrların repertuarında layiqli yer tutmaqdadır.

Qarayev dahi bəstəkar idi. Bundan başqa o, həm də dərin fəlsəfi düşüncəyə malik böyük mütəfəkkir, dünya incəsənətinin bilicisi, istedadlı natiq və məzmunlu qələm sahibi idi. Onun elmi-publisistik yazılarında, çıxış və mühazirələrində millilik və beynəlmiləllik, Azərbaycan musiqisi ənənəsi və novatorluq, gənclərin mənəvi tərbiyəsi və s. kimi önəmli problemlərin dərin elmi şərhi verilir.

“Yeddi gözəl” baletində Qarayev Azərbaycan ədəbiyyatının klassik irsinə, dahi Nizaminin humanist ideya və obrazlarına müraciət etmişdir. Baletdə Nizaminin eyni adlı poemasının süjet fabulası deyil, şairin yaradıcılığının əsas əxlaqi-etik mövzusu götürülmüş və ön plana çəkilmişdir. Ümumiyyətlə, Nizaminin humanist ideyaları və obrazları onu dəfələrlə özünə cəlb etmişdir. Bəstəkarın məşhur “Leyli və Məcnun” simfonik poemasını göstərmək olar, “İldırımlı yollarla” baleti, sözün əsl mənasında, novator əsərdir. Qara Qarayev bir sıra kino filmlərə və dram əsərlərinə musiqi yazmışdır. Qara Qarayevin yaradıcılığında vətən mövzusu bir sıra əsərlərin özəyini təşkil etmişdir. İkinci simfoniya, C.Hacıyevlə yazdığı “Vətən” operası “Ürək mahnısı'” kantatası, “Səadət” mahnısı, “Azərbaycan” süitası belə əsərlərdəndir.

İllər boyu bəstəkarın humanist ideyalar aşılayan, yüksək ideallar tərənnüm edən hərarətli, emosional musiqisi ilə yanaşı, alovlu publisistikası - məqalələri, məruzələri, çıxışları hamının diqqətini cəlb etmişdir. Böyük Üzeyirin Azərbaycan musiqisini çağdaş musiqi mədəniyyətinin inkişaf yoluna çıxarmaq sahəsinə başladığı işi davam etdirmək Q.Qarayev üçün məqsədə çevrilir. Qara Qarayevin bütün yaradıcılığına xas olan mühüm bir cəhət vardır. Azərbaycan musiqisi ənənələrinə əsaslanan bəstəkar dünya musiqisinin son nailiyyətlərini də üzvi surətdə mənimsəmişdir. Elə Qarayev əsərlərinin bütün dünyada məşhur olmasının və müxtəlif xalqların qəlbinə yol tapmasının əsas səbəblərindən biri də budur. Qarayevin musiqisi sözün yüksək mənasında beynəlmiləl keyfiyyət daşıyan bir sənətdir. Bəstəkar hətta seçdiyi ədəbi mövzular cəhətdən də yalnız milli ədəbiyyatımızla məhdudlaşmır. O, Nizami, Səməd Vurğun, Rəsul Rza poeziyasıyla bərabər, Şekspir və Servantes, Puşkin və Ömər Xəyyam, Lermontov və Lope de Veqa obrazlarına müraciət etmiş, Nazim, Hikmət, Lenqston Hyuz, Vsevolod Vişnevski, Piter Abrahams kimi XX əsr dünya sənətkarlarının əsərlərindən ilhamlanmışdır.

- **Rəşid Behbudov**

Azərbaycan öz sənətkarları ilə hər zaman dünyanın müxtəlif ölkələrində tanınıb. Onlar öz yaradıcılıqları, fəaliyyəti ilə xaricdə ölkəmizi tanıdıb ki, bu gün də müxtəlif ölkələrdə məhz həmin sənətkarlar qəbul edilir, bəyənilir. Belə sənətkarlar sırasında ilk olaraq Azərbaycan vokal məktəbinin təkrarsız nümayəndələrindən olan Rəşid Behbudovu göstərmək olar.

Böyük sənətkarlıqdan öncə unudulmaz Rəşid Behbudov Azərbaycanı, onun təbii gözəlliklərini, insanlarını bütün varlığı ilə sevən vətəndaş idi. Anasından və Vətənindən eyni dərəcədə doya bilməyən, doğma torpağın hər qarışına baş əyməkdən yorulmurdu.

Azərbaycan milli kinosunun inkişafında da Rəşid Behbudovun zəhməti çox olub. 1945-ci ildə «Arşın mal alan» filmində can verdiyi Əsgər obrazı çox uğurlu və maraqlı alındı. Təkcə elə bu filmin ona gətirdiyi

geniş şöhrət bir ömrə bəs edəcək əsl sənət müvəffəqiyyəti idi. «Bəxtiyar» filmində Bəxtiyar obrazı sanki müğənninin elə öz bioqrafiyası idi. Böyük məharətlə oxuduğu vokal əsərlər filmin son dərəcə mənalı, baxımlı və yaşarlı alınmasını şərtləndirən əsas amillərdən biri idi.



*Şəkil 1.6. Rəşid Behbudov*

Üzeyir Hacıbəylinin «Arşın mal alan» (Əsgər), Fikrət Əmirovun «Sevil» (Balaş) operalarında Rəşidin ifasındakı partiyalar həmişə yüksək qiymətləndirilmişdir.

Müxtəlif musiqi kollektivlərində, teatrlarda, ansambllarda çalışan Rəşid Behbudov on il Azərbaycan Dövlət Filarmoniyasının, xeyli müddət Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub. O, 1966-cı ildə Dövlət Mahnı Teatrını yaradıb. Bununla da, Rəşid Behbudov Azərbaycan musiqi və estrada sənətinin müxtəlif janrlarını birləşdirərək incəsənətimizin yeni, orijinal və pozulmaz səhifələrini yazıb. Dahi sənətçimizdən yadigar və nişanə qalan həmin mahnı teatrı bu gün böyük müğənninin adını daşıyır və yaşadır. İndi onun yaratdığı bu sənət məbədində məhz Rəşid məktəbinin davamçıları fəaliyyət göstərirlər.

Üzeyir Hacıbəyli
(1885 – 1948)
Operalar
Kantatalar
Romanslar
Mahnılar və himnlər
Orkestr musiqisi
Kamera – insturmental musiqi

Romanslar:
1. " Leyli və Məcnun " (1908)
2. " Şeyx Sənan " (1909)
3. " Rüstəm və Zöhrab " (1910)
4. " Şah Abbas və Xurşidbanu " (1911)
5. " Əsli Kərəm " (1912)
6. " Harun və Leyla " (1915)
7. " Koroğlu " (1937)

Kantatalar:
1. Firdovsinin 100 illiyinə olunmuş " Kantata " (1930)
2. Azərbaycan SSSR – nin 10 illliyinə həsr olunmuş " Kantata " (1937)
3. " Vətən və cəbhə " (1944)

Musiqili komediyalar
1. " Ər və arvad "  (1909)
2. " O olmasın, bu olsun " (1910)
3. "Arşın mal alan" (1913)

Operalar:
1. " Sevgili canan " (1941)
2. " Sənsiz " (1941)

Mahnılar və Himnlər:
1. "Çağırış "
2. "Şəfqət bacısı "
3. "Ananın oğluna nəsihəti "
4. "Komsomolçu qız "
5. Azərbaycan Demokratik Respublikasının Dövlət himni
6. "Qələbə himni " (1945)
7. "Azərbaycan Dövlət Himni" (1946)

Orkestr musiqisi:
1 və 2 saylı fantaziyalar (1929 – 1930)

Kamera – instrumental musiqi:
1. " Aşıqsayağı " triosu (30-cu illərin əvvəllərində
2. Fortepiano üçün " Cəngi "
(II Dünya müharibəsi illərində)

*1.3.1. Azərbaycanın 3 görkəmli vizual rəssamını təhlil edir*



- **Azərbaycanın dünya şöhrətli rəssamları**

XX əsrin əvvəlləri Azərbaycan təsviri sənətində olduqca əhəmiyyətli bir dövrdür. Təsviri sənətimizdə məhz bu dövrdən etibarən yeni janrlar, cərəyanlar yaranıb inkişaf etməyə başlamışdır. Mətbuat, maarif-s
ənət ocaqlarının açılması milli mədəni tərəqqidə mühüm rol oynamışdır.

Həmin dövrdən başlayaraq Azərbaycan təsviri sənətinin formalaşması və inkişafında önəmli rol oynayan görkəmli rəssamların adlarını çəkmək olar. Əzim Əzimzadə, Bəhruz Kəngərli, Qeysər Kaşıyeva, Qəzənfər Xalıqov, Bədurə Əfqanlı, Baba Əliyev, Sadıq Şərifzadə, Salam Salamzadə, Tağı Tağıyev kimi rəssamların bu sahədə mütərəqqi xidmətləri olmuşdur.

- **Əzim Əzimzadə (1880-1943)**

XX əsrin əvvəllərində yaradıcılığının çiçəklənmə dövründə olan, Azərbaycan qrafikasının inkişafında müstəsna rol oynamış Əzim Əzimzadənin adı xüsusilə qeyd edilməlidir. Əzim Əzimzadə 1880-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. Sənətə məşhur "Molla Nəsrəddin" jurnalında əsərlərini dərc etdirməklə başlayan rəssam həmçinin "Baraban", "Zənbur", "Tuti", "Kəlniyyət" kimi jurnalların səhifələrində qrafik karikaturalarla çıxış etməklə Azərbaycan realist qrafikasının əsasını qoymuşdur.



*Şəkil 1.7. Əzim Əzimzadə*

Əzim Əzimzadə Azərbaycan karikatura sənətinin banisi, xalq rəssamıdır. Xüsusi istedad və bacarığı, dərin müşahidə qabiliyyəti ilə seçilən şəxsiyyətlərdən olub. Onun çoxillik, çoxşaxəli və rəngarəng yaradıcılığında realist portret janrı da mühüm yer tutub. Mənbələrdən məlum olur ki, rəssam bir çox tarixi şəxsiyyətlərin surətini öz təxəyyülünə istinad etməklə kətanın üzərinə köçürüb. Məsələn, Sasani padşahının, şair Firdovsinin portretləri bu qəbildəndir.
Əzim Əzimzadənin əsərlərinin əsas mövzusunu sosial təzadlar, adətlər və xalqın məişəti təşkil edirdi.

- **Səttar Bəhlulzadə**

İşığın cisimlərə toxunduqdan sonra gözümüzdə buraxdığı təsirə rəng deyilir. Qırmızı, göy və sarı əsas rənglərdir. Bu üç rəngi qarışdırıb təbiətdəki bir çox rəngləri ala bilirik.
Azərbaycanın məşhur rəssamı Səttar Bəhlulzadə bu rənglərdən böyük məharətlə istifadə etmişdi.
Səttar Bəhlulzadənin Azərbaycan rəngkarlığında mənzərə janrının inkişafında rolu çox böyükdür. Onlarla gənc rəssam onun yaradıcılıq manerasına, irsinə istinad etmiş, bəhrələnmişlər.



*Şəkil 1.8. Səttar Bəhlulzadə*

Səttar Bəhlulzadə Azərbaycan rəssamlığına əsl poetik ruh gətirmişdir. Onun öz tablolarına aşıladığı poetika, lirika ölməz Füzulinin fəlsəfi poeziyasından, muğamlarımızın ruhundan və ən əsası, doğma vətənə sonsuz məhəbbətindən qaynaqlanırdı. Bir çox rəssamlardan fərqli olaraq onun ilham mənbəyi məhz Vətən torpağı idi. O, vurğunu olduğu təbiət gözəlliklərini kətana köçürərək əbədiləşdirir, təbii gözəlliklərə gözəlliklər qatırdı. O, çoxlarına adi görünən daşın, gül-çiçəyin gözəlliklərini duyurdu. Məhz bunun nəticəsidir ki, Səttar Bəhlulzadə mənzərələri hamı tərəfindən anlaşılır və sevilir.

Rəssamın Quba mövzusunda daha çox məşhur olan silsilə əsərlərindən "Qudyalçay vadisi" əsəri xüsusilə seçilir. Bu əsərdə rəssam Qudyalçayı yayın əvvəllərində təsvir etmişdir. Burada diqqəti daha çox yayın əvvəlində Şahdağın zirvəsində qar əriyən zaman təsvir olunmuş Qudyalçayın hərəkətinin və gursululuğunun dəqiq təsviri cəlb edir.

Səttar Bəhlulzadə Azərbaycan rəssamlığına bir çox töhfələr verdi. O, mənzərəçi-rəssam kimi, bizdə Azərbaycan təbiətinə daha gözəl sevgilər oyatdı. Bir daha sübut etdi ki, ən ülvi gözəllik məhz Vətəndir.



*Şəkil 1.9. Rənglərin sintezi*

Milli rəssamlıq sənətinin inkişafında qadın rəssamların rolu danılmazdır. Görkəmli fırça ustaları Vəcihə Səmədova, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya və başqalarının müxtəlif janrlarında yaratdıqları əsərlər bu gün də muzeylərimizin ekspozisiyalarını bəzəməkdədir.

- **Maral Rəhmanzadə (1916-2008)**

Xalq rəssamı, Dövlət mükafatı laureatı Maral Rəhmanzadə Azərbaycan təsviri sənətinin elə bir simasıdır ki, o hər zaman ətrafa işıq saçıb, hər kəsi öz cazibəsində saxlamağı bacarıb. Profesional rəssamlıq təhsili almış M.Rəhmanzadə təsviri sənətimizin zəngin ənənələrini davam etdirərək qrafika sahəsində xüsusilə məhsuldar çalışıb.



*Şəkil 1.10. Xinalıq*

Rəssamın Vətənimizin ayrı-ayrı guşələrinin, o cümlədən Naxçıvan və Lənkəran, Şamaxı və Qubanın qədim tarix və təbiət abidələrini, əsrarəngiz mənzərələrini əks etdirən milli koloritli əsərləri qrafik elementlərin lakonikliyi və səmimiyyəti ilə seçilir.

Rəssam kitab qrafikası sahəsində də fəaliyyət göstərib. Klassik şairlərimizdən Nizami, Xətai və Füzulinin kitablarına verdiyi bədii tərtibatlar və çəkdiyi çoxsaylı illüstrasiyalar, həmçinin portretlər yüksək sənətkarlıq nümunəsi sayılır. Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanına, Məhəmməd Füzulinin "Qəzəllər"inə və Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasına çəkdiyi illüstrasiyalar kitab qrafikasının gözəl örnəkləridir.

Azərbaycan qadınına xas gözəlliyin, zərifliyin və zəngin mənəvi aləmin rənglərin əlvan dili ilə parlaq ifadəsi M.Rəhmanzadə yaradıcılığının başlıca xüsusiyyətlərindən biridir.

Rəssam bir sıra xarici ölkələrin həyatından çoxlu eskizlər çəkib, silsilə qravüralar yaradıb. Əsərləri London, Moskva, Nyu-York, Paris, Tokio və digər şəhərlərin muzeylərində, rəsm qalereyalarında və sərgi salonlarında nümayiş etdirilib. Xaricdə təşkil olunmuş fərdi sərgiləri mədəniyyətimizin təbliğinə xidmət edib, Azərbaycan təsviri sənətinə şöhrət gətirib.

*Tələbələr üçün fəaliyyətlər*

- “Azərbaycan Şərqin qədim mədəniyyət ocağıdır” mövzusunda esse yazın;
- Mədəniyyətimizin ən qədim sahələrindən olan teatr səhnəsində “Hacı Qara” komediyasını rollu oyun vasitəsilə canlandırın;
- Aşağıdakı mövzuları qrup işi üzrə işləyin:

1. I Qrup: Nizaminin əsərlərindəki qadın surətlərini səciyyələndirin;
2. II Qrup: Nizaminin əsərlərində millilik və beynəlmiləlçilik mövzusunu araşdırın;
3. III Qrup: Azərbaycan musiqisində klassiklərimizin rolunu tədqiq edin;
4. IV Qrup: Azərbaycan ədəbiyyatının Şərqə inteqrasiyası mövzusunda məlumat toplayın;

Qrupların təqdimatından sonra müqayisələr edilməyə başlayır. Nələrin üst-üstə düşdüyü, nələrin yeni olduğu ortaya çıxır.

Sinifdə öyrəndiklərinizi aşağıda göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. Öyrəndiklərinizlə bağlı sinifdə fikir mübadiləsi və müzakirə aparın.

**Mənbələr:**

1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait) edebiyyat.ucox.com
2. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə II cild
3. N.Gəncəvinin seçilmiş əsərləri.
4. İnternet əsasında toplanan məlumatlar.
5. M.F.Axundzadənin seçilmiş əsərləri

- Məşhurlarımızın Axundzadə haqqında fikirlərini əlavə mənbələrdən (kitab, jurnal, internet və s) istifadə edərək araşdırın;
- Dünya ədəbiyyatının Nizami haqqında fikirlərini araşdırın;
- “Ana dilimizin saflaşdırılması” mövzusunda esse yazın;
- Yazılı qeydlər əsasında şifahi təqdimat hazırlayın;
- “Nizaminin yaşadığı dövrlə Axundovun yaşadığı dövrün fərqi” mövzusunda məruzə hazırlayın;
- Kiçik qruplarda birləşib yerinə yetirdiyiniz bütün işlərin nəticələrini müzakirə edin, dəqiqləşdirmə və ümumiləşdirmə aparıb, təqdimat hazırlayın. Gəldiyiniz nəticə ilə bağlı təqdimat əsasında fikir mübadiləsi və müzakirə aparın;
- “Milli azadlıq uğrunda mübarizənin ədəbiyyatımıza təsiri” mövzusunda təqdimata hazırlaşın;
- Cədvəldən istifadə etməklə şairlərin yaşadıqları dövrləri mərhələlərə ayırın və müqayisə edin;

| Mərhələ | Hadisə | Təhlil | Nəticə |
|---|---|---|---|
| Qədim dövr Azərbaycan ədəbiyyatı | | | |

| | | | |
|---|---|---|---|
| Orta dövr Azərbaycan ədəbiyyatı | | | |
| Yeni dövr Azərbaycan ədəbiyyatı | | | |

- Verilmiş mətnlər əsasında şifahi təqdimat hazırlayın;
- Rollu oyun təşkil edərək "Leyli ilə Məcnun" operasından Leyla ilə Məcnunun görüşünü səhnələşdirin;
- Mövzu haqqında əlavə mənbələrdən (kitab, jurnal, internet və s.) topladığınız materiallar əsasında müzakirə aparın;
- Opera və kantatanın oxşar və fərqli cəhətlərini venn diaqramında işləyin. Əldə etdiyiniz məlumatları səciyyələndirin;




- Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasının baş qəhrəmanı Məşədi İbad obrazı haqqında danışın;
- Bəstəkarların yaradıcılığında Qərb və Şərq musiqisinin sintezi mövzusunda esse yazın;
- "Arşın mal alan" operasından Gülçöhrə ilə Əsgərin qarşılaşma səhnəsini rollu oyunla ifa edin;
- Rəşid Behbudovun çəkildiyi filmlərdən təqdimat hazırlayın;
- "Ədəbiyyatda və musiqidə ana" obrazı mövzusunda təqdimat hazırlayın;
- "Azərbaycan Respublikasının dövlət rəmzləri" haqqında fikir mübadiləsi aparın;
- Azərbaycan təbiətinin rəngləri haqqında esse yazın;
- "Rəsm əsərləri insanın daxili aləminin xarakterinin açılmasında bir vasitə ola bilərmi?" mövzusunda debat keçirin;
- Azərbaycanlı rəssamlar: S.Bəhlulzadə və M.Rəhmanzadənin yaradıcılığında "təbiət gözəlliyinin tərənnümü" mövzusunu venn diaqramında işləyin;




- 3-5 nəfərdən ibarət qruplara bölünün. Əsas rənglərdən istifadə etməklə təbiət, natürmort rəsmləri çəkin. Rəsmləri lövhədən asaraq müzakirə edin;
- 3 qrupa bölünün. Hər üç qrupa “Qrafika sənətinin inkişafı”, “Azərbaycan ədəbiyyatında karikatura”, “Vətənimizin təbiət gözəllikləri” tapşırıqları yazılmış iri kağızlar paylandıqdan sonra, 20 dəqiqə ərzində tədqiqat apararaq verilmiş tapşırıqları yerinə yetirin. Vaxt bitdikdə hər üç qrup tərəfindən seçilmiş liderlər öz tədqiqatlarını nümayiş etdikdən sonra müzakirələr təşkil edin;
- Hər bir qrupda iştirak edənlər sinifdə asılmış şəkilləri xüsusiyyətlərinə görə müzakirə etsin;
- “Məişətdə daha çox rast gələnən rənglər” haqqında müzakirələr aparın;
- “Rənglərin çalarları” mövzusunu açar sözlərdən istifadə edərək “anlayışın çıxarılması” üsulu ilə işləyin;
- “Bakı qədimliklə müasirliyin sintezində ifadəsini necə başa düşürsünüz?” mövzusunda esse yazın;
- Məşhur rəssam Andre Moloronun Səttar Bəhlulzadənin “mənzərə” əsərində Azərbaycan təbiəti haqqında söylədikləri fikrə münasibət bildirin;

### *Qiymətləndirmə*

Aşağıdakı qiymətləndirmə meyarlarına əsasən qiymətləndirəcəksiniz.

1. **“Azərbaycanın üç mühüm müəllifini təhlil edir”**
2. **“Azərbaycanın üç mühüm musiqi sənətşünasını sadalayır”**
3. **“Azərbaycan üç görkəmli vizual rəssamını təhlil edir ”**

- “Azərbaycan Şərqin qədim mədəniyyət ocağıdır” dedikdə nə başa düşürsünüz?
- Qədim mədəniyyət sahələri hansılardır?
- Dünya səviyyəsində tanınan ədəbiyyat incilərimiz hansılardır?
- İlk dəfə Şərq və Qərb mədəniyyətini öz əsərində əks etdirən sənətkarımız kimdir?
- İsgəndər surəti Nizaminin hökmdar idealının hansı tələblərini ifadə edir?
- M.F.Axundzadənin həyatı və yaradıcılığı üçün daha səciyyəvi olanlar nədir?
- Axundzadənin fikri inkişafına əhəmiyyətli təsir edən amillər hansılardır?
- Axundzadənin bədii yaradıcılığı ədəbiyyata hansı yenilikləri gətirmişdir?
- M.F.Axundzadənin əsərlərində hansı milli, mənəvi, əxlaqi dəyərlərə üstünlük verilir?
- Şairin yaşadığı dövrün və aldığı təlim-tərbiyənin özəllikləri hansılardır?
- Milli azadlıq uğrunda mübarizəyə həsr olunmuş hansı əsərlərlə tanışsınız?
- Bu mövzuda oxuduğunuz əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?
- Bəxtiyar Vahabzadənin milli ruhlu bir ziyalı olduğunu göstərən amillər hansılardır?

- Şairin ana dili uğrunda mübarizəsinin mahiyyəti nədən ibarətdir?
- Bu gün Azərbaycan dövlət musiqili teatrının yerləşdiyi binanı kim tikdirib?
- Üzeyir Hacıbəylinin hansı operettalarını tanıyırsınız?
- Üzeyir Hacıbəylinin “Arşın mal alan” musiqili komediyasında Əsgər rolunda hansı məşhur müğənnimiz çəkilmişdir?
- Qara Qarayevin baletləri hansılardır?
- Qara Qarayev hansı filmlərə musiqilər bəstələmişdir?
- Qara Qarayev nə üçün musiqi bəstələyərkən Nizami Gəncəvinin əsərlərinə müraciət edirdi?
- “Əziz ana” əsərinin müəllifləri kimlərdir?
- Qara Qarayevin “İldırımlı yollarla” baleti bəşəriliyin və milliliyin sintezi üzərində qurulub desək, bir cümlə ilə bu əsərə qiymət verə bilərikmi? Bu fikir ilə razısınızmı?
- R.Behbudov hansı filmlərə çəkilib?
- Təbiət təsvirinə həsr olunmuş mahnıları hansılardır?
- Azərbaycanda tamaşaya qoyulan ilk operetta necə adlanır və müəllifi kimdir?
- Hansı Azərbaycan rəssamlarını tanıyırsınız?
- Azərbaycanda rəssamlıq sənətinin inkişafında müstəsna rolu olan sənətkarlarımız kimlərdir?
- Siz rənglər haqqında nə bilirsiniz?
- Azərbaycanda rəssamlıq sənətinin ilk nümunələri hansılardır?
- Qədim memarlıq növlərində hansı rəsm sənətinin növlərindən istifadə olunurdu?
- Azərbaycanın özünə məxsus ornamentləri hansılardır?
- Rəssamlıq əsərləri yazının hansı tipi hesab edilməlidir?
- Ümummilli liderimiz Heydər Əliyevin və Dövlət başçımız İlham Əliyevin S.Bəhlulzadə haqqında söylədikləri fikirləri toplayın.

## Təlim nəticəsi 2: Azərbaycanın müasir mədəniyyətini təhlil etməyi bacarır.

### *1.1.2. Əcnəbiyə təqdim etmək üçün Azərbaycanın 3 mədəniyyət sahəsini müəyyən edir*



- **Azərbaycan mədəniyyət beşiyidir.**

Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Qobustanın qaya təsvirləri, Qafqaz Albaniyasının bədii keramika və metal məmulatı, bədii şüşə və oyma sənəti, orta əsrlərdə dünya şöhrəti qazanmış Təbriz miniatür sənəti nümunələri, rəngarəng xalçalar, tikmələr, şirli saxsı qablar, kaşı sənəti, zərif oyma şibəkələr və gözəl zərgərlik məmulatları - bütün bunlar bədii irsimizin çox zəngin olduğunu sübut edir. Araşdırmalar göstərmişdir ki, Azərbaycan ərazisində yaşayan tayfalar hələ 4 min il bundan əvvəl daşdan, gildən, metaldan orijinal formalı qab-qacaq, silah və bəzək örnəkləri düzəldib öz həyat və məişətlərində istifadə etmişlər. Azərbaycan ustalarının yaratdığı sənət nümunələri dünyanın müxtəlif muzeylərində qorunub saxlanır.

- **Azərbaycan teatrı**.

Azərbaycan ədəbiyyatı ilə sıx bağlı olan sənət növlərindən biri də teatr sənətidir. Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünya görüşü ilə bağlıdır. Mərasim, ayin və oyunlardakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynamışdır. Azərbaycan xalq teatrı realist özəllik daşımış və əməkçi təbəqələrlə bağlı olmuşdur. Kökləri qədim zamanlara gedib çıxan teatr sənətinin tarixi M.F. Axundzadənin 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan “Lənkəran xanının vəziri” və “Hacı Qara” tamaşalarından başlanır. M.F. Axundzadə “Hekayəti – Müsyo Jordan və dərviş Məstəli şah” komediyasında ilk dəfə olaraq Şərq və Qərb mədəniyyətini qarşılaşdırır.



*Şəkil 2.1 Opera və Balet teatrı*

- **Azərbaycan xalçası.**

Azərbaycan xalq tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Xalq sənətlərinin ən geniş yayılmış növü Azərbaycan xalqının məişətində özünə möhkəm yer tutmuş və az qala xalqın rəmzinə çevrilmiş xalça sənətidir. Azərbaycan xalça sənətinin elm sahəsi kimi öyrənilməsi və profesional rəssamların yaradıcılığında müasir inkişafı Azərbaycanın xalq rəssamı Lətif Kərimovun adı ilə bağlıdır. Şərq, o cümlədən Azərbaycan xalçası və dekorativ tətbiqi sənətinin mahir bilicisi görkəmli ornamentalist rəssam, alim kimi tanınan Lətif Kərimov uzun illər Azərbaycan xalçalarını tədqiq etmiş, yeni ornamentlərlə zənginləşdirmişdir. Azərbaycan xalçaları hələ XIV-XV əsrlərdə Avropa rəssamlarının tablolarında tərənnüm edilmişdir. Niderland rəssamı Hans Memlinq (XV əsr) “Məryəm öz körpəsi ilə” əsərində “Şirvan” xalçasının təsvirini vermişdir.



*Şəkil 2.2. Azərbaycan xalçası*

Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Uzu n və mürəkkəb inkişaf yolu keçmiş teatr, musiqi və xalq sənətinin müxtəlif növlərinin tədqiqi Azərbaycan xalqının yüksək mədəni irsə malik olmasını sübut edir. Təbriz və Şirvanda toxunmuş Azərbaycan xalçaları Ermitaj muzeyinin ən qiymətli incilərindən sayılır. Bundan əlavə bu muzeydə XIX əsrin ortalarında yaşamış görkəmli Azərbaycan sənətkarı, ornamentalist rəssam Mirzə Qədim İravaninin də sənətşünaslıq elminə az məlum olan nadir bir əsəri vardır.

Viktoriya və Albert muzeyində saxlanılan xalq sənət nümunələrimiz içərisində ən görkəmli yeri Azərbaycan xalçaları tutur

- **Azərbaycan muğamı.**

İlk yazılı ədəbi abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanında musiqi ilə bağlı bir sıra parçaların mövcudluğu, dastan boyunca müxtəlif musiqi alətlərinin adlarının çəkilməsi musiqimizin qədimliyinə əyani sübutdur.
İlk yazılı musiqi risalələrimiz isə XIII əsrə aiddir. XIII-XV əsrlərdə Yaxın və Orta Şərqin musiqi-nəzəri fikrinin inkişafı məhz Azərbaycanın iki böyük alimi və musiqiçisi Səfiəddin Urməvi (1217-1294) və Əbdülqadir Marağainin (1353-1435) adları ilə bağlıdır.



*Şəkil 2.3. Xalq çalğı alətləri*

Muğam sənəti Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bir sıra ümumi, bədii cizgiləri Azərbaycan muğamını İran dəstgahları, özbək-tacik şaşmakomları, uyğur mukamları, hind raqaları, ərəb nubaları, türk təqsimləri ilə qohumlaşdırır və bütün bunlar Şərq musiqisinin ümumi-bədii ənənələrini təşkil edir. Bununla yanaşı, muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biridir. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər, ləzgilər, gürcülər, avarlar kimi etnik qruplar arasında da populyardır. Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı 2003-cü ildə YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuşdur. YUNESKO muğamı "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri" elan etmişdir. Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Dəstgahlar Azərbaycanda XIX yüzildə əsasən Şuşa, Şamaxı, Bakı, Gəncə, Lənkəran, Şəki şəhərlərində geniş yayılmışdır. XX yüzilin 90-cı illərindən başlayaraq Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır. Azərbaycan musiqisinin yeddi əsas muğamı var: “Rast”, “Şur”, “Segah”, “Şüştər”, “Çahargah”, “Bayatı- Şiraz”, “Hümayun”.



*Şəkil 2.4. Xan Şuşinski*

Muğamlar orijinal mahiyyətinə və öz musiqi xarakterinə görə bir-birindən fərqlənir. Üzeyir Hacıbəyov “Azərbaycan xalq musiqisinin əsasları” adlı elmi-nəzəri kitabında muğamların dinləyiciyə aşıladığı əhval-ruhiyyəni belə səciyyələndirir: “Rast”- dinləyicidə mərdlik və gümrahlıq hissi, “Şur” - şən, lirik əhval-ruhiyyə, “Segah” - məhəbbət hissi, “Şüştər” - dərin kədər, “Çahargah” - həyəcan və ehtiras hissi, “Bayatı-Şiraz” - qəmginlik, “Hümayun” - dərin kədər hissi oyadır. Fikrət Əmirov 1948-ci ildə “Şur” və “Kürd-Ovşarı” simfonik muğamlarını yazmaqla dünya musiqi ədəbiyyatında simfonik muğam janrının əsasını qoydu. Görkəmli bəstəkar və dirijor Niyazinin “Rast” (1949) simfonik muğamı da bu janrda yaradılıb. Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılara çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərilərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürurlanmaqda haqlıdır.



*Şəkil 2.5. Muğam sənətkarları*

## *2.2.1. Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir*



- **Qobustan**

Qobustan adının mənşəyi və anlamı barədə müxtəlif tədqiqatçılar fərqli fikirlər söyləmişlər. Lakin onlardan ən çox işlədilən fikir toponimin coğrafi şəraitlə bağlı yaranmasıdır. Həmin fikrə görə Qobustan qobular diyarı, ucsuz-bucaqsız düzənlik, saysız-hesabsız təpələr arasında torpaq uçuntulardan əmələ gəlmiş yarğanlar və dərələrdir. Bu, illərin, əsrlərin deyil, milyon illərin ardıcıl olaraq yaratdığı dağıntılar və "quraşdırmaların" nəticəsidir. Qobustan adının da mənşəyi məhz bu təbii şəraitlə izah edilir.



*Şəkil 2.6 Qobustan Qayaları*

Bir versiyaya görə isə Qobustan sözünün ilkin forması *Gavistan* şəklində olmuşdur. "gav" farsca öküz, inək, "stan" isə diyar anlamında yer bildirən şəkilçidir. Bu halda söz "Öküzlər diyarı" şəklində şərh edilməkdədir. Bu versiyanın da irəli sürülməsi təsadüf olmamışdır. Çünki vaxtilə Qobustan ərazisində çoxlu çöl öküzü yaşamışdır. Min illər keçdikcə onların bir hissəsi ölmüş, bir hissəsi isə əhliləşdirilmişdir.

Başqa bir versiyaya görə isə bu yerin adı *Kəbristan* olmuşdur. "Kəbr" oda sitayiş edən, "stan" isə diyar anlamında kimi qəbul edildikdə, söz oda sitayiş edənlərin diyarı kimi anlaşılmaqdadır. Bu versiyaya görə, bu yerlərdə atəşpərəstlər yaşamış, ona görə də ərazi Kəbristan adlandırılmışdır.

Qayaüstü təsvirlərdən və arxeoloji qazıntılar zamanı əldə edilən tapıntılardan görünür ki, qədim dövrdə bu ərazidə pələng, canavar, tülkü, çaqqal və başqa yırtıcı heyvanların da məskəni olmuşdur. ibtidai insanların həyat mübarizəsinin əsasını, başlıca olaraq acından ölməmək üçün yemək əldə etmək təşkil edirdi. Bunun üçün qədim qobustanlılar cürbəcür meyvə və bitkiləri yığmağa, heyvan ovlamağa məcbur olmuşlar.

Qədim qobustanlıların ən əsas məşğuliyyətlərindən biri də daş alətlər hazırlamaq olmuşdur. Onlar çay daşından döyəclər, kəsərlər, çaxmaq daşı qəlpələrindən xırda bıçaqlar, ox icad edildikdən sonra isə oxların daş uclarını və s. düzəldirdilər. Çox vaxt onların əsas məşğuliyyətlərindən biri də bəzək əşyaları hazırlamaq idi. Bu cür əşyalar əsasən daşdan və sümükdən düzəldilirdi. Qobustanda açılaraq tədqiq edilmiş qəbirlərdən və yaşayış yerlərindən tapılan bəzək əşyaları içərisində yaxadan asılan daş, qaban və başqa heyvanların dişləri, üstü naxışlanmış sümük asmalar, cürbəcür muncuqlar və s. vardır. Orta daş dövrünü təmsil edən bu alətlər və bəzək əşyaları bu gün üçün çox bəsit görünsələr də zamanına görə olduqca ağır olan və böyük bədii zövq tələb edən zəhmətin məhsulu idi. Sonrakı dövrlərdə qobustanlıların maldarlıq və əkinçilik təsərrüfatına keçməsi üçün qədimdən miras qalmış əmək vərdişləri və təcrübə çox əhəmiyyətli bir təməl idi.Böyükdaş və Cingirdağda olan və "Qavaldaş adlanan daş musiqi qurğuları qədim qobustanlıların böyük ixtirası kimi dəyərləndirilir.

Qobustan Azərbaycan rəsm mədəniyyətinin ilk ocaqlarından biri olduğu kimi, həm də qədim rəqs və musiqi mədəniyyətinin formalaşdığı ərazilərdən biridir. Qobustandakı şəkillər içərisində rəqs mərasimi təsvirləri xüsusi yer tutur. Kollektiv ifa olunan bu rəqslər indiki Azərbaycan türklərinin oynadıqları Yallı rəqsini xatırladır.

Dünyanın beş qitəsinin qaya təsvirləri arasında zənginliyi ilə seçilən Qobustan abidələri Dünya Mədəni İrs Siyahısına daxil edilib. Xatırladaq ki, dünyada 800 abidə bu siyahıya daxildir ki, onların da ikisi - “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu və Qobustan Dövlət Tarixi-Bədii Qoruğu Azərbaycana məxsusdur. Demək, Qobustan tək Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə məxsusdur.

"**Atəşgah məbədi"** Dövlət Tarix-Memarlıq Qoruğu - Atəşgah məbədinin ilk tikililəri II, III əsrə aiddir. O dövrdə Azərbaycanda zərdüşt dini yayılmışdı. Bununla əlaqədar regionlarda zərdüşt məbədləri tikilmişdi. Suraxanıdakı Atəşgah məbədi VII əsrə kimi fəaliyyət göstərib.



*Şəkil 2.7. Atəşgah məbədi*

Bildiyimiz kimi, VII əsrdə Azərbaycanda islam dini qəbul edildi. Bundan sonra ölkədəki zərdüşt məbədləri sıradan çıxmağa başladı. "Atəşgah məbədi" XVI-XVII əsrlərdə ikinci həyatına qədəm qoydu. Həmin dövrdə məşhur İpək Yolu Azərbaycandan keçirdi. Bu yolla ölkəmizə gələn tacirlər öz vətənlərinə döndükdə Suraxanıda yerdən çıxan təbii alov barədə də danışırdılar. Nəticədə buraya zəvvarlar, atəşpərəstlər gəlməyə başladılar. Artıq bu yer onlar üçün müqəddəsləşmişdi. Müxtəlif ölkələrdən, o cümlədən də Hindistandan gələn atəşpərəstlər burada alova sitayiş edirdilər. Tanınmış Hind alimi Mode yazırdı ki, Azərbaycanda - Suraxanıda dünyanın ən müqəddəs məbədlərdən biri yerləşir.

Ümumiyyətlə, "Atəşgah məbədi"nə həmişə böyük maraq göstərilib. Vaxtilə müxtəlif dünyagörüşlü insanlar, o cümlədən səyyahlar, xarici yazıçılar, alimlər buranı ziyarət ediblər. Onların arasında A.Düma, Kenfr, Villot, Berezin, D.Mendeleyev də olmuşdur. Məşhur fransız yazıçısı A.Düma “Qafqaz səfəri” əsərində yazırdı: “Atəşgahı görəndə insanda elə bir təsəvvür yaranırdı ki, guya külək alovla oynayır, onlar bir-birinə sarılır, sonra bir-birilə əlbəyaxa olurlar. Külək nə qədər cəhd edirdisə, odu, alovu söndürə

bilmirdi». Başqa ölkələrdən gələn tacirlər müqəddəs yer kimi mütləq Atəşgaha baş çəkirdilər. Burda 2-3 gün qalıb dincəlir, atəşpərəstlərə, zərdüştlərə vəsait ayırırdılar. Atəşgah 26 hücrədən və mərkəzi ibadətxanadan ibarətdir. Mərkəzi ibadətxana burada ən müqəddəs yer sayılırdı. Ora ancaq baş kahinlər keçə bilər və sitayiş edərdilər. Adi atəşpərəstlərin içəri keçməyə ixtiyarları yox idi. Məbəddə 20 qiymətli daş kitabə vardır. Onlar hücrənin üstündə yerləşdirilmişdir. Birini zərdüşt, 19-nu isə atəşpərəstlər qoymuşlar. Onlardan 19-u hind, biri fars dilində yazılmışdır. Hər kitabədə otaqların neçənci ildə və hansı tacir tərəfindən tikilməsi, həmçinin hind tanrılarının adları qeyd olunmuşdur. Hücrələrdən yaşayış yeri, ibadətgah və karvansara kimi istifadə olunmuşdur. Son bir ildə iki yeni hücrə açılıb. Onlardan biri Azərbaycana, o biri isə Suraxanı rayonunun maddi mədəniyyətinə aiddir. Həmin hücrələrdə eradan əvvələ aid əşyalardan bəzi nümunələr toplanmışdır.

Tarixi qaynaqlardan aydın olur ki, dünya müsəlmanları üçün müqəddəs Məkkə və Həcc ziyarəti nə deməkdirsə, bir vaxtlar Suraxanı Atəşgahı da atəşpərəstlərin həyatinda həmin rolu oynayıb.

Azbir vaxtlar Suraxanı Atəşgahı da atəşpərəstləri, atəşpərəst məbədinin qalıqları üzərində inşa olunmuş “Atəşgah” Dövlət Tarixi-Memarlıq Qoruğu hazırda YUNESKO-nun tərtib etdiyi "Dünya İrsinin İlkin siyahısı"na daxil edilib.

### *2.3.1. Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir*



- Hər hansı bir mövzu haqqında hər hansı bir qrup və ya kütləyə məlumat vermək məqsədilə həyata keçirilən yazılı və şifahi ünsiyyətə təqdimat deyilir. Keçirilən bütün yığıncaqlar, mərasimlər, iclaslar təqdimata daxil edilir. Təqdimat əvvəlcədən hazırlanmış və planlaşdırılmış bir mövzunun təsirli və anlaşılan bir şəkildə dinləyiciyə çatdırılmasıdır.



*Şəkil 2.8. Təqdimat*

Təqdimat hazırlayarkən diqqət ediləsi cəhətlər aşağıdakılardır:

- PowerPointdə yazi tipinin həcmini seçərkən diqqətli olun;
- Abzaslarda ən uyğun ölçü 36-44 dür. Yazı ölçüsünü özünüz seçin;
- Mətn yazmaq üçün ən uyğun ölçü 20-32 dir. Yazı ölçüsünü özünüz seçin;
- Lazım olmadıqca mətni böyük hərflə yazmayın;

- Seçilən yerlər üçün fərqli rəng, yanıb sönmə, alt xətt və b. diqqətçəkici işarələrə yer verin;
- Fonun açıq yazının tünd və ya əksinə, fonun tünd yazının açıq olmasına diqqət yetirin.

### *2.4.1. Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir*



- **Rəy nədir?**

Rəy ərəb sözü olub bir şey haqqında fikir, mülahizə, söz mənasını verir. Rəy əsasən aşağıdakı mənalarda işlədilir:
1. Bir əsər, tamaşa, konsert, kinofilm və s. təhlil və tənqidini ehtiva edən məqalə, yazı;
2. Fikir, mülahizə;
3. Rəyimcə, rəyincə şəklində 1) məncə, səncə, mənə görə, sənə görə 2) mən, (sən, o) istəyən kimi mənim arzumca, onun arzusuna görə;
4. Rəy vermək, rəyə gəlmək söz birləşməsi şəklində - razılaşmaq.

Rəy yazmaq üçün tələbələrə aşağıdakıları mənimsədilməlidir:

1. **Rəyin başlığı.** Nəyə və kimə verilməsi göstərilir və səhifənin ortasında rəy sözü yazılır.
2. **Rəyin ümumi məzmunu**. Bu və ya digər bir fikrin həm müsbət, həm də mənfi cəhətləri təhlil olunur.
3. **Rəyin nəticəsi**. Rəyçinin irəli sürdüyü təklif və tövsiyələr bir neçə cümlə ilə ifadə edilir.
4. **İmza**. Bu hissədə rəyçi adını, soyadını və atasının adını göstərir, qarşısında isə imzasını qoyur.

İnsanlar istər yazılı, istərsə də şifahi formada başqasının fikrinə münasibət bildirir, rəy söyləyirlər. Orta və ali məktəb praktikasında rəy söyləmək, münasibət bildirmək məzmun və formasına görə müxtəlifdir, rəngarəngdir. Şagird danışığına, oxusuna, yazılı işlərinə rəy vermək, ali məktəbdə tələbə nitqini məzmun və forma baxımından qiymətləndirmək, yoxlama, kurs işi və sairəyə rəy vermək, basqasının nitqinə münasibət bildirmək, istiqamət vermək və s. Bu iş ali məktəb həyatında açıq dərsləri müzakirə etmək, elmi işlər müdafiə olunacaq əsərlər barədə fikir söyləmək və s. formalarda daha geniş tətbiq olunur. Həm şifahi, həm yazılı formada verilən rəylər, söylənilən fikirlər fəaliyyət və işin məzmunundan, keyfiyyətindən, iş görənin şəxsiyyətindən asılı olmayaraq bütün hallarda dilin etik ölçülərinə uyğun olmalı, hissiyyata, mənliyə, toxunan fikir və ifadələrə yol verməməlidir. İstər şifahi, istərsə də yazılı şəkildə rəy verərkən, münasibət bildirərkən "İş yararsızdı", "Tarixdən xəbəri yoxdur", "Hətta sözləri sətirdən-sətrə keçirə bilmir", " Boş və mənasız fikirlərdir" və s. kimi ifadələrin işlədilməsi məsləhət görülmür. Həmin fikirləri başqa tərzdə, məsələn: "Təfərrüata yol verilmişdir", "Bəzi fikirlər aydın deyildir", "Bu barədə daha əsaslı faktlar gətirmək olardı", " Bir qədər səthilik nəzərə çarpır, "Bir hissəsinin yenidən işlənilməsi məsləhətdir" və s. kimi ifadə etmək olar və lazımdır.

- **"Xoca" filmi haqqında rəy**

"Xoca" filmi o dəhşətli hadisələrə həsr olunan kino əsəridir. Bu film Qarabağ müharibəsi haqqında çəkilmişdir və Xocalı soyqırımının 20 illiyinin tamam olduğu dövrdə ekrana çıxmışdır. Film həm bədii dəyəri, həm də kinematoqrafik həlli baxımından uğurludur. Filmdə tamaşaçıları düşündürən epizodlar çoxdur. Filmdəki döyüş səhnələrinin təbii alınması böyük zəhmətin nəticəsidir və filmin başlıca uğurudur. Amma burada da müəyyən elementlər var ki, onları daha təbii yaratmaq mümkün idi. Deyilənləri nəzərə almaqla bir neçə tövsiyəmi bildirirəm.

1. Aktyor seçimi məsələsində də bəzi çatışmazlıqlar vardır. Filmin sonunda ermənilərin qaniçən obrazı qabarıq şəkildə öz əksini tapmayıb.
2. Titrdə filmin şəhidlərin, o cümlədən Çingiz Mustafayevin xatirəsinə həsr olunduğu qeyd olunur. Yaxşı olardı ki, film ya ayrıca Çingiz Mustafayevə, ya da bütövlükdə şəhidlərə ithaf edilsin.
3. Bu mövzuda filmlər daha çox çəkilsin. Şübhəsiz bir gün biz böyük Qələbə haqqında da filmlər yaradacağıq.

*2.5.1. 3 mədəni sahənin yazılı təqdimatını hazırlayır*



- **Təqdimat**

Təqdimat sözü ərəb mənşəli olub, təqdim sözündəndir. Təqdim sözü ərəb dilində çoxmənalıdır:
1) İrəlisürmə
2) Bir şəxsin hüzuruna bir şeyi, bir nəfəri gətirmə, vermə.
3) Bir adamı başqasının hüzuruna çıxararaq onları görüşdürmə, tanış etmə.

Təqdimat rəsmi sənəd olaraq aşağı vəzifəli şixsin yuxarı vəzifəli şixs qarşısında hər hansı bir məsələni qaldırması, irəli sürməsi, xahiş etməsi zərurətindən yazılır. Təqdimat ərizə və tələbnamə deyil. Təqdimat ərizədən yuxarı, tələbnamədən aşağıda dayanan xahişnamədir. Məsələn bir nəfəri mükafata, təqaüdə, mü llimliyə təqdim edilməsidir. Təqdimat yalnız xoş niyyətlər üçün yazılmır. Eyni zamanda hər hansı bir səbəbdən işçi yuxarı qurumu rəhbərliyin qarşısında məsələ qaldırır - təqdimat yazılır. Cəza tədbiri əmr formasında icra edildikdə əmrdə kimin təqdimatı əsasında cəza verildiyi göstərilir və yaxud yuxarı qurumun iclasında məruzə edildikdə təqdimatın tam mətni oxunur. Təqdimatın forması təxminən ərizə kimidir.

***Şəki Xan Sarayı:*** Azərbaycanın orta əsr memarlığının ən görkəmli və nadir abidələrindən biridir. Bina Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə tikilmişdir. Hüseyn xan eyni zamanda "Müştaqi" təxəllüsü ilə şeirlər yazmışdır. Buna görə də bəzi mənbələrdə bu saray Müştaq imarəti kimi də qeyd olunur.



*Şəkil 2.9 Şəki Xan Sarayı*

Bu gün Şəki Xan sarayı öz gözəlliyi, qədimliyi, qeyri-adi memarlıq üslubu ilə turistlərin diqqətini cəlb edir. Dünya abidələri siyahısına daxil edilmiş bu sarayın özünəməxsus inşa üslubu var. Burada tətbiqi incəsənətin bir çox növləri, eləcə də XVII-XIX əsrlərə məxsus divar rəssamlığı nümunələri öz əksini tapmışdır. Şəki Xan sarayının memarı şirazlı Zeynal Abidin olmuşdur. Divar rəsmləri XVIII əsrdə yaradılsa da, sonralar dəfələrlə bərpa edilmişdir.

Şəki xan sarayı qala divarları ilə əhatə olunmuşdur. Bu tikili ikimərtəbəli olmaqla altı otaqdan, dörd dəhlizdən, iki güzgülü eyvandan ibarətdir.

Dünya şöhrətli türk şairi Nazim Hikmət saraya baxdıqdan sonra belə yazmışdır: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi".



*Şəkil 2.11. Qız Qalası*

**Qız qalası:** Tarixi abidədir. Qədim qala divarlarının (İçərişəhərin) cənub-şərq hissəsində, dənizkənarı parkın yaxınlığında yerləşir. Hündürlüyü 28 metrdir. Diametri birinci mərtəbədə 16,5 metrə, divarının qalınlığı 5 metrə çatır. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünüb. Hər mərtəbə yonma daşlarla tikilib və günbəz formalı tavanla örtülüb.

Qala 1964-cü ildən muzey kimi fəaliyyət göstərməyə başlayıb, 2000-ci ildə isə UNESCO-nun dünya irsi siyahısına salınıb. Qalanın adının etimologiyası ilə bağlı müxtəlif fikirlər var. Onlardan həqiqətə ən yaxın olanı qızla bağlı əfsanədir. Əfsanəyə əsasən qardaşı (bəzi mənbələrdə hökmdar atası) tərəfindən qalada saxlanılan qız bu

əzaba dözməyib, özünü qaladan ataraq intihar edib. Digər rəvayətə görə isə qala əvvəllər "Göz qalası" adlandırılıb, zaman keçdikcə isə dəyişərək "Qız qalası" adını alıb.

Qalanın tikilmə tarixi ilə bağlı bir sıra fərziyyələr var. Bəziləri abidənin Şumer dövründən, digərləri isə XII yüzillikdə tikildiyini iddia edirlər. Qalanın içərisində muzey vardır. Onun kolleksiyasına XVIII-XIX əsrlərin həyatını əks etdirən qədim avadanlıqlar, xalçalar və bir neçə əyləncəli qurğular daxildir: vedrədən istifadə olunmaqla quyudan neftin çıxarılması, çay evində nahar və s. Qız Qalası habelə XII əsrdə Şirvanşahların ən güclü qalalarından biri olmuşdur. XVIII- XIX əsrlərdə Qız Qalası mayak kimi istifadə olunurdu.

**Möminə xatun türbəsi**: Məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəridir. Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biridir. Bu abidə Naxçıvanda Atabəylər Memarlıq Kompleksinin tərkibində yerləşir. Möminə xatun türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə abidədir.

Memar Əcəmi bu türbəni Yusif Küseyir oğlu Türbəsindən 26 il sonra inşa etmişdir. Ona görə də bu sənət əsərində memarın ustalığı, müdrikliyi özünü daha qabarıq şəkildə göstərir.

Möminə Xatun türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermişdir. Bu abidə eyni zamanda elin yaddaşında "Atabəy günbəzi" adı ilə də qalmışdır. Abidə Azərbaycanın qədim tarixə, möhtəşəm dövlətçiliyə, yüksək səviyyəli mədəniyyətə, böyük memarlıq məktəbinə malik olduğunu göstərir.



*Şəkil 2.10. Möminə xatun türbəsi*



## *Tələbələr üçün fəaliyyətlər*

- Azərbaycanın mədəni irsi olan xalçaçılıq sənəti haqqında şifahi təqdimat hazırlayın;
- Mədəniyyətimizin ən qədim sahələrindən olan teatr səhnəsində "Hacı Qara" komediyasını rollu oyun vasitəsilə canlandırın;
- Mədəniyyətin sahələrini qrup işi üzrə işləyin;
  1. I Qrup: Xalçaçılıq haqqında məlumat toplayın;
  2. II Qrup: Azərbaycan musiqisi inciləri haqqında məlumat toplayın;
  3. III Qrup: Azərbaycan mədəniyyətinin Şərqə inteqrasiyası mövzusunda məlumat toplayın.
- Əlavə mənbələrdən istifadə edərək mədəniyyətin digər sahələri haqqında araşdırma aparın. Öyrəndiklərinizlə bağlı sinifdə fikir mübadiləsi və müzakirə aparın;
- Avropa rəssamlarının tablolarında təsvir olunan Azərbaycan xalçaları haqqında araşdırma aparın və təqdimat keçirin;
- Erməni işğalı nəticəsində məhv edilmiş muzeylərimiz, talan edilmiş sərvətlərimiz barədə məlumat toplayıb qəzet maketinizdə yığcam məlumatlar dərc edin;

- Qız qalası abidəsi haqqında məlumat toplayın və təqdimat şəklində hazırlayın;

- Qobustana ekskursiya təşkil edin. Ekskursiya zamanı gördükləriniz, müşahidə etdikləriniz əsasında müzakirələr aparın;
- Atəşgah və Qobustana ekskursiya təşkil edin. Abidələr arasında olan oxşar və fərqli cəhətləri venn diaqramında əlavə materiallardan (qəzet, jurnal və internet məlumatlarından) istifadə etməklə işləyin;




- "Alovun küləklə oynadığı yer" mövzusunda esse yazın;
- A. Dümanın Atəşgah haqqındakı fikirlərini araşdırın. Topladığınız fikirlər haqqında təqdimat hazırlayın;
- Qobustan adının mənşəyini araşdırın;
- Sinifdə öyrəndiklərinizi aşağıda göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın;
- Atəşgah abidəsinin şəkilli təsvirini çəkin;
- "Müasir Azərbaycan mədəniyyəti" mövzusu ilə bağlı debat təşkil edin;
- "Azərbaycan mədəniyyəti" haqqında ətraflı məlumat almaq və daha geniş təsəvvürə malik olmaq üçün İncəsənət muzeyinə, Tarix muzeyinə, Müasir İncəsənət muzeyinə, Xalça muzeyinə və s. ekskursiyalar təşkil edin;
- Seçdiyiniz mədəniyyət sahələri (idman, kino, teatr, muzey və s.) haqqında PowerPointdən istifadə edərək təqdimat hazırlayın. Hazırladığınız təqdimatı sinifdə müəlliminiz və sinif yoldaşlarınızla bölüşün;
- Ətrafınızdakı insanlarla görüşərək insanların özünü ifadəetmə bacarıqları haqqında təqdimat hazırlayın;
- Müəlliminizin köməyi ilə özünüzü ifadə edə biləcəyiniz bir mövzu seçərək təqdimat hazırlayın;
- Təqdimatla ərizənin oxşar və fərqli cəhətlərini venn diaqramında işləyin;




- “Köhnə Bakı, yeni Bakı” mövzusunda PowerPointdən istifadə edərək təqdimat hazırlayın;
- Rəy sözünün mənşəyini araşdırın;
- İstənilən bir mövzuda (əsər, konsert, kinofilm və s.) rəy yazın;
- Rəyin məzmununun “Qərarlar ağacı” üsulundan istifadə edərək mənfi və müsbət cəhətlərini təhlil edin;

| | | Problem | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət cəhətləri | Problemin həlli yolları | | |
| + | 1 | 2 | 3 |
| - | | | |
| Qərar | | | |
| | | | |
| | | | |

- Oxuduğunuz hər hansı bir əsər haqqında sinifdə rəy hazırlayın;
- Təqdimat sözünün mənşəyini araşdırın;
- Şəki xan sarayı haqqında PowerPointdən istifadə edərək təqdimat hazırlayın;
- Qız qalasının etimologiyası haqqında araşdırma aparın;
- YUNESKO-nun dünya irsi siyahısına daxil olan “Azərbaycanın mədəni abidələri” haqqında məlumat toplayın;
- Möminə Xatun türbəsinin yerləşdiyi ərazi haqqında məlumat toplayın və Səki xan sarayı ilə coğrafi mövqedən müqayisə aparın;
- Qədim abidələr haqqında topladığınız məlumatları cədvəl üzrə işləyin.

| Adı | İnşa olunduğu dövr | Müəllif | Kimə həsr olunub |
|---|---|---|---|
| Şəki xan sarayı | | | |
| Qız Qalası | | | |
| Möminə Xatun türbəsi | | | |

## *Qiymətləndirmə*

Aşağıdakı qiymətləndirmə meyarlarına əsasən qiymətləndirəcəksiniz:

1. **Əcnəbiyə təqdim etmək üçün Azərbaycanın üç mədəniyyət sahəsini müəyyən edir.**
2. **Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir.**
3. **Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir.**
4. **Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir.**
5. **Üç mədəni sahənin yazılı təqdimatını hazırlayır.**

- "Azərbaycan Şərqin qədim mədəniyyət ocağıdır" dedikdə nə başa düşürsünüz?
- Qədim mədəniyyət sahələri hansılardır?
- Dünya səviyyəsində tanınan mədəniyyət sahələrimiz hansılardır?
- İlk dəfə Şərq və Qərb mədəniyyətini öz əsərində əks etdirən sənətkarımız kimdir?
- "Azərbaycan xalçası" kimi tanınan fundamental əsərin müəllifi haqqında nə bilirsiniz?
- Azərbaycan teatrının əsası neçənci ildə və hansı əsərlə qoyulmuşdur?
- Hansı Avropa rəssamları öz əsərlərində Azərbaycan xalçalarını təsvir etmişdilər?
- Bakıda hansı memarlıq üslubunda tikilmiş tikililər var?
- Fransada Azərbaycan mədəniyyətinin hansı inciləri nümayiş etdirilmişdir?
- Sizcə bu gün mədəniyyət abidələrimiz necə qorunur?
- Qobustan qaya rəsmlərinin üzərində hansı məşğuliyyət növləri öz əksini tapmışdır?
- Atəşgah və Qobustan abidələrinin oxşar cəhətləri hansılardır?
- Dünyada neçə Atəşgah var və harada yerləşir?
- Hansı dünya məşhurları Atəşgahı ziyarət etmişlər?
- Abidənin quruluşu haqqında nə bilirsiniz.
- Təqdimat nəyə deyilir?
- Təqdimat hazırlayarkən diqqət ediləsi cəhətlər hansılardır?
- Təqdimatı hansı əməli yazı nümunəsi ilə müqayisə etmək olar?
- Təqdimatın növləri hansılardır?
- Təqdimat sözünün mənşəyini araşdırın.
- Təqdimat yazılarkən hansı məqsədlər nəzərdə tutulur?
- Rəy nədir?
- Rəy hazırlanarkən hansı cəhətləri nəzərə almaq lazımdır?
- Rəyin standart forması necə olur?
- Rəy sözünün mənşəyini araşdırın.
- Hansı mədəniyyət sahəsi haqqında rəy yaza bilərsiniz?
- Rəy yazmaq üçün tələbələr hansı qaydalara əməl etməlidirlər?
- Topladığı məlumatlar əsasında təqdimat hazırlayır.
- Təqdimat sözü hansı dildən götürülmüşdür?
- Təqdimatın neçə növü var?
- Şəki Xan sarayı hansı hökmdarın dövründə tikilmişdir?
- Şəki Xan sarayı mənbələrdə daha hansı adla tanınır?
- Qız Qalası haqqında hansı rəvayətləri eşitmisiniz?
- Möminə Xatun türbəsinin memarı kimdir?
- Qız Qalası abidəsi hansı dövrü əhatə edir?

## Təlim nəticəsi 3: Kreativlik və estetika anlayışlarını təhlil edir və onlardan istifadə etməyi bacarır

### *3.1.1. Kreativlik və estetika anlayışlarını təhlil edir.*



- **Kreativlik nədir?**

"Kreativ intellekt" ifadəsi Azərbaycan dilində XX əsrin sonlarından işlənməyə başlamışdır. Ensiklopedik lüğətdə "Kreativlik" (latınca "creatio", fransızca "creation", ingiliscə "creativity", rusca "креативность") – yaradıcılıq, quruculuq, yeniçilik, fəaliyyət kimi qeyd olunmuşdur.



*Şəkil 3.1. Kreativlik*

"Kreativlik" sözünü "yaradıcılıq" sözü ilə paralel işlədənlər və ya bu sözlərin fərqli anlayış ifadə etdiyini qeyd edənlər də var. "Kreativlik" sözü məqsədyönlü insanın düşüncəsində onun üçün əhəmiyyətli olan "məhsuldarlıq" və "hər hansı bir izdihamdan fərqlənən və onu idarə edən ideyalar" anlayışını ifadə edir.

"Yaradıcılıq" sözü isə prosesi – uzun və gərgin ideal axtarışları prosesini bildirir ki, bu da iş adamlarında o qədər də maraq oyatmır.

Bilik cəmiyyəti, radikal innovasiyalar – müasir biznesi narahat edən əsas mövzular bunlardır. Rəhbərlər istedadlı əməkdaşları cəlb etmək haqqında ciddi düşünürlər və təcrübə aparmağa başlayırlar. Nəticələr ziddiyyətli alınır, istedadları idarə etmək sualı coşqun diskusiyalara səbəb olur. Biznesdə kreativlik  istedad və dahilik, yoxsa biznesin yaradacılığa yaxınlaşmasıdır? Dünya qeyri-xətti və sürətli, biznes isə həddindən artıq mürəkkəb olmağa başlayır. Planlaşdırma, analiz və rəhbərlik çox halda aciz qalır; təsəvvürə, yaradıcılığa və ehtirasa arxalanmağa məcbur olur. İstedad çox vaxt kreativlik, yenilik, yaradıcılıq qabiliyyəti hesabına təyin edilir.  Lakin yaddan çıxarmaq lazım deyil ki kreativlik və yaradıcılıq eyni deyillər. Yaradıcılıq mənaların yaradılmasıdır, kreativlik isə mənasızdır. Yaradıcılıq prosesi əslində qurucu prosesdir.  İstedad bu kontekstdə hansısa bir sahədə yeni məzmunun: yeni məhsullar, yeni strukturlar yaratmaq qabiliyyətidir. İstedad intellektual məhsul istehsal edir. "Yaradıcılıq, insanın özü haqqında unutduğu, yaradıcılıq zamanı özündə olmadığı mənəvi istehsaldır", – deyə Nikolay Berdyayev təsdiq edir. Mişel Kassu və Styuart "Həyat, rəssamlıq və ehtiras" kitabında yazırlar: "Yaratmaq naməlum, əsrarəngiz daxili dünya istiqamətində hərəkətdir, qabaqcadan hiss etmək, dəfn edilmiş təəssüratları bərpa etmək, azad yaşamaq və nəticə haqqında narahat olmamaqdır". Bu prinsipə riayət edən və nəticə haqqında narahatçılıq meyli olmayan insanlara rəhbərlik etmək, doğrudan da, çətindir. Bu səbəbdən yaradıcılığı məqsədlərlə idarə etmə prosesini "qurmaq" lazımdır, bunu isə ancaq müdrik olmaqla etmək mümkündür. Müdriklik yenini köhnə ilə uyğunlaşdırmağı bacarmaq, əvvəlki təcrübəni yeni problemin həllində istifadə etmək qabiliyyətidir. O, əşyaların və proseslərin təbiətini dəyişmək üçün hansı hərəkəti qəbul etməyin kəskin başa düşülməsi ilə bağlıdır. "Müdrikliyin paradoksu" kitabında Elxonon Qoldberq müdrikliyi yeni alınmış bilikləri və təcrübəni, yeni mənaları birləşdirmək bacarığı kimi təyin etmişdir.  Biznesdə müdriklik çox sayda həyat strategiyaları təcrübəsindən əmələ gəlir və yetişir. Nəticə aydındır: istedadları idarə etmək üçün müdrik olmalısız. Ancaq müdrik rəhbər yaradıcılıq azadlığını və nəticələrə nail olmaq bacarığını müvəffəqiyyətlə birləşdirə bilər. Müasir biznesin dahiliyin və müdrikliyin uyğunluğuna, məhsuldar istedadın və strateji təcrübənin birləşməsinə kəskin ehtiyacı var. İstedadların idarə olunmasında problem ondadır ki,istedad idarə olunmağı sevmir, o özu qarşısında çətin vəzifələri qoyur.  Müdrik rəis məsələlərin axtarışı prosesində istedadlarla əməkdaşlıq edir, o "qamçı və şirniyyat" deyil, "cazibə və ehtirasdan" istifadə edir.  Müasir rəhbər yeni və köhnə, bu gün və sabah arasında körpüləri qurmağı bacarmalıdır, əgər yenisi həyata həddindən artıq aqressiv daxil olursa, iti bucaqları hamarlamaq qabiliyyətində olmalıdır. Ancaq həyata və biznesə bütov sistemli baxışa malik olan rəhbər təcrübənin, texnologiyanın, elm və mədəniyyətin qarşılıqlı hərəkəti sahəsində vasitəçi ola bilər.

Bütün zamanlarda olduğu kimi, bu gün də biznes və ya təşkilat rəhbərlərinin əksəriyyəti innovasiya və yaradıcı  yanaşmanın əhəmiyyətini təsdiqləyirlər.

- **Kreativlik necə yaranır?**

Mütəxəssislər bu haqda konkret bir fikrə gələ bilməmişlər. Bəziləri belə hesab edir ki, kreativ intellekt anadangəlmə, yəni genlərlə bağlıdır, bəziləri də hesab edir ki, bu, daim öyrənmək və inkişaf etməklə əlaqəlidir.

Psixoloji ədəbiyyatda kreativlik şəxsin prinsipial cəhətdən yeni ideyalar formalaşdırması, yaradıcı imkanları, orijinal, qeyri-adi, yeni, təkrarolunmaz, unikal yaratmaq bacarığı kimi mənalandırılır.

Kreativ intellekt üzrə britaniyalı ekspert E.de Bono sübut etmişdir ki, hər bir insanın düşüncəsi şablondan kənara çıxa bilər. Standartlar mövcud vəziyyəti başa düşməyə və anında ona reaksiya verməyə imkan versə də, kreativ intellekt ən çətin olanı ən asan yolla həll etməyə və daha yaxşı nəticə əldə etməyə yönəlmişdir.

Bəşəriyyətin inkişafı tarixində, demək olar ki, kəşflərin və ixtiraların məhz kreativ düşüncə əsasında yarandığını görə bilərik. Məsələn, kimin ağlına gələrdi ki, Amerikada bir aristokrat qadın "çirkli qab terroruna" son qoyacaq? Mexaniki işləyən ilk praktik qabyuyan maşını icad edən Jozefin Kokreyn bu gün mətbəxdən işi keçən hər kəsin hörmətlə xatırladığı insan olmalıdır.

Texnologiyanın inkişafı ilə binalar yüksəlsə də, qəza və yanğın təhlükəsinə qarşı müdafiəsiz qalmışdı. Anna Konelli adlı qadın yanğın pilləkənləri sistemini təklif edəndən sonra, təhlükəsizlik tədbirləri güclənmiş oldu. Bu texnologiya bütün ölkələrdə istifadə olunmağa başlanıldı.

Bu kimi faktların, kəşflərin siyahısını sonsuza qədər uzatmaq olar. Lakin bir şey həqiqətdir ki, kreativ düşüncə hər birimizin həyatının,işinin ayrılmaz tərkib hissəsinə çevrilə bilər.

Məlum olduğu kimi, insan həm dərk edir, həm də qurur, yaradır. İnsan ətraf aləmi təkcə passiv sürətdə müşahidə etmir, həm də yaradıcılıqla onu dəyişdirə bilir. Deməli, insanın şüuru obyektiv dünyanı təkcə əks etdirmir, eyni zamanda onu yaradır. Məhz bu zaman insanın öz peşəsində yeni ideyaları həyata keçirmək arzusu gerçəkləşir.

- **Estetika nədir?**

"Estetika" sözü latınca "aisthetiko" sözündəndir, mənası "hiss edən, həssas" deməkdir. Estetika – hisslər haqqında elm deməkdir. Bir termin kimi ilk dəfə XVII əsrin alman filosofu Aleksandr Baumharten işlətmişdir.

Estetika fəlsəfi təfəkkürün bir qolu kimi öz mənşəyini uzaq keçmişdən alır və XVIII əsrə qədər hüsniyyat, gözəllik elmi və yaxud poetika adı ilə öyrənilirdi. Bu elmin 2500 illik tarixi ilk dəfə sistemli və ardıcıl şəkildə antik yunan filosoflarının əsərlərindən başlanır. Estetika gözəllik qanunlarını, incəsənətin gerçəkliyə münasibətini, onun növ və janrlarını, bədii şüurun qanunauyğun inkişafının özünəməxsus xüsusiyyətlərini bədii yaradıcılıq metodunu öyrənən fəlsəfi fəaliyyət növüdür.

Estetik tərbiyə insan həyatının ən erkən çağlarından başlayır və insan həyatına çox güclü təsir göstərir. Hələ kiçik yaşlardan başlayaraq ailənin aşıladığı, ətrafında müşahidə etdiyi gözəlliklər, zaman keçdikcə tanış olduğu ədəbiyyat, incəsənət insan mənəviyyatını zənginləşdirir, humanizm, xeyirxahlıq, vətənpərvərlik və s. müsbət keyfiyyətlər formalaşdırır, gözəllik hissi insan qəlbini təmizləyir, saflaşdırır, onu yaxşı əməllərə yönəldir. ***Gözəl fikrə və qəlbə malik insan pisliyə bədxahlığa, qəddarlığa yol verməz.***

Gözəllik fəlsəfəsinin missiyası insanda ləyaqət hissinin yaradılmasıdır. İnsan öz qəlbinin dərinliklərində gəzdirdiyi idealı aydın bir şəkildə görürsə və ideala bütün ruhu ilə bağlıdırsa, bu***, ləyaqət*** hissidir. İnsan reallığı ideala yüksəltmə imkanını duyursa, bu, özünüqüdrət ***yaşantısıdır.***

Əgər gözəllik fəlsəfəsi "Mən necə olmalıyam?" sualına cavab axtarırsa, estetika bu sualı "İdeal insan necə olmalıdır?" və "İdeal dünya necə olmalıdır?" sualına transformasiya edərək, yəni estetik problem formasına gətirərək cavablandırır.

***Estetikanın predmeti*** müasir nöqteyi-nəzərdən insan hissiyatıdır. Estetika həm də bir fəlsəfə elmi kimi aşağıdakı sahələri əhatə edir:

1) Gözəllik aləmi.
2) İnsan fəaliyyəti prosesində dünyanın estetik cəhətdən mənimsənilməsinin ən ümumi prinsipləri.
3) Estetikanın təbiəti, gerçəklikdə və incəsənətdə onun müxtəlifliyi.
4) Varlıq və qavrayışın mahiyyəti və qanunları,incəsənətin fəaliyyəti və inkişafı.

***Estetikanın vəzifələri*** belə xarakterizə edilə bilər:

1) İnsanda quruculuq başlanğıcını formalaşdırmaq.
2) Gözəlliyi qavramaq qabiliyyətini formalaşdırmaq.

Estetik dünyagörüşündə predmetin həm təbii, həm də sosial xüsusiyyətləri ifadə olunur.
Məsələn:
Qızıl – parlaq metaldır ( təbii)
Qızıl – pulu təcəssüm edən metaldır, yəni ictimai münasibətlərin müəyyən tipidir (sosial).

Beləliklə, estetik dəyər dedikdə ümumbəşəri bir dəyər nəzərdə tutulur. Bu dəyər təbiətin və cəmiyyətin tarixi inkişaf prosesində daim təkmilləşir.

Estetik ideal – reallıqla uzlaşan mükəmməllik təsəvvürüdür. O, insan üçün qiymət və vektor rolunu oynayır və ən yaxşı estetik dəyərləri seçmək yolu ilə formalaşır.

### *3.2.1. Kreativlik və estetika anlayışlarının insan həyatinda rolunu təhlil edir*



- **İnsanın estetik tələbatı**

İnsanın estetik hisslərinin ilk mənbəyi təbiət gözəlliyidir. Bundan sonra insana gözəllik hissini təlqin edən, həmin təbii gözəllikləri özümdə əks etdirən bədii ədəbiyyat, incəsənətin müxtəlif sahələrində yaradılan sənət nümunələridir. İnsan özü də fiziki və mənəvi gözəlliyi ilə müəyyən estetik hisslər doğura bilər.

N.Q.Çernışevski qeyd edirdi: “Biz ən gözəl şeyi təmənnasız olaraq sevirik, ondan zövq alırıq, onu bizə əziz olan adam kimi sevirik. Gözəllikdə nə isə bizim qəlbimizə yaxın, əziz olan bir şey var”.

Estetik hisslər heç də həmişə hər hansı maddı tələbatımızı ödəməyə yönəlmir. Hətta bir çox hallarda hansısa bir əsərdən və yaxud təbii gözəllikdən alınan estetik hiss insana təbii tələbatları olan aclığı və susuzluğu da unutdira bilər. Məsələn, Səttar Bəhlulzadənin “Abşeron bağları” rəsm əsərini seyr etdikdə biz orada çox gözəl və təbii boyalarla canlandırılmış ağ şanıları yeməyi düşünmürük.

Bəzən insanın estetik hissləri onun əxlaq hissi ilə birləşir. Məsələn, Vətən həsrətinin təsiri altında insanın olduğu yerlərin gözəlliyi öz cazibədarlığını itirər, əksinə öz Vətəninin boz çölləri insanın nəzərində gözəlləşər və insanı özünə cəlb edər.

İnsanın estetik hisslərinə nəinki əxlaqı hisləri, həm də onun dünyagörüşü, yaşadığı ictimai mühit də təsir edir. Bu cəhətdən insanların nəzərində gözəllik meyarı müxtəlif olur.

Bəşəriyyət tərəfindən yaradılmış müxtəlif sənaye və məişət əşyaları, bədii əsərlər – insanın çoxsahəli fəaliyyətinin hamısı onun gerçəkliyə olan estetik münasibətləri dairəsinə daxildir. Məsələn, qatarın əsas vəzifəsi adamları, yükləri daşımaqdan ibarətdir. Lakin eyni zamanda qatarın formasına, mütənasibliyinə, rənginə də fikir verilir. Doğrudur, bu misalda estetik dəyər həlledici rol oynamır. Qatar öz forması etibarı ilə hətta köhnəlmiş olsa da, hər halda hərəkət vasitəsi olaraq qalır, faydalılığını itirmir. Lakin bu, o demək deyil ki, estetik qiymətə etinasız yanaşmaq olar, insan heç bir halda gözəlliyə biganə qala bilməz. Estetik tələbat ictimai varlığın dünyanın mürəkkəbliyi və sadəliyi ilə birlikdə qavramaq, anlamaq, duymaq və dərk etmək qabiliyyətinin imkanından doğur və onu şərtləndirir.

- **Estetik mədəniyyət**

Müasir dövrümüzün qloballaşma şəraitində estetik mədəniyyət getdikcə daha böyük əhəmiyyət kəsb edir. Estetik mədəniyyət insanın hər bir predmetdə onun öz növünün ölçüsünü tapmaq, tətbiq etmək və beləliklə də, predmetin dəyərini aşkara çıxarmaq qabiliyyətində təzahür edir.

Estetik mədəniyyətdə ictimai, siyası, əxlaqı baxışlar, təbiətin dərki, ətraf mühitə münasibət kimi çoxcəhətli mənəvi keyfiyyətlər birləşir.

İnsan yaradıcıdır. O gördüyünü, sadəcə olduğu kimi görmür, onu yenidən yaradır; ona özünəməxsus duyğu əlvanlığı, emosional çalarlılıq, fikir zənginliyi verir; hadisəni, predmeti öz mənəvi aləminin daşıyıcısına çevirir.

İnsanın estetik qabiliyyəti cəmiyyətlə birgə doğulur və inkişaf edir. İbtidai icma dövründə bu qabiliyyətin artmasına və inkişafına təbiət özü güclü təkan vermişdir. Təbiət çoxcəhətlidir və bu da özünü təbiət hadisələrində aşkar göstərir. Təbiət gözəlliyi: simmetriya, harmoniya, ahəngdarlıq, kiçiklə böyük arasındakı ölçülülük və s. ibtidai icma dövrünün sənətkarları tərəfindən genişliyi və dərinliyi ilə qavranılıb təsvir olunmuşdur. Azərbaycan ərazisində aşkar edilmiş qədim yaşayış məskənlərindəki qayaüstü və mağara rəsmlərində insanlardakı gözəlliyi qavramaq və istifadə etmək qabiliyyətinin estetik düşüncə səviyyəsinə çatdığının şahidi oluruq. İnsan, artıq estetik obyekti olduğu kimi təsdiq etməyi bacarır.

Gözəllik təbiətin özündədir,onun xassəsidir. Həmin gözəlliyi insan anladığı zamandan bu, onun şüurunun məzmununa çevrilir. Məhz buna görə də insanın estetik düşüncəsi təbiət hadisələrinin dərkindən başlayır.

Biz maddi aləmi, mühiti dərk etdiyimiz kimi, gözəllik duyğusu da həyatdakı gözəlliyin inikasıdır. Dünyanı gözəllik qanunları ilə mənimsəyən sənətkar onları istər-istəməz bəşəriyyətlə münasibətdə, bəşər nəsli üçün əhəmiyyətliliyi baxımından qiymətləndirir. Belə ümumbəşəri əsaslar təkcə beynəlmiləl deyil, həm də milli baxımdan qiymətlidir. Milli baxış nə qədər bənzərsizdirsə, o, bir o qədər də qiymətli, təkrarsız dəyərə malik olur. Eyni zamanda onun dəyər və əhəmiyyəti ümumbəşərilik və beynəlmiləlçiliklə, milli bənzərsizliklə sıx qovuşarsa, bir o qədər artar. Elə buna görə də əsərin yüksək bədiiliyinin mühüm şərtlərindən biri onun klassik səviyyədə və ümumdünya səviyyəsində olmasıdır.



*Şəkil 3.2.*
*Təbriz xalçaçılıq məktəbinə məxsus Azərbaycan xalçası*

Məsələn, bu xüsusiyyətlərə malik Azərbaycan xalçaları bu gün də dünya mədəniyyəti xəzinəsinin ən gözəl və dəyərli nümunələridir və UNESKO-nun qeyri-maddi mədəni irs siyasına daxil edilmişdir.

Hətta XIII-XIV əsrlərdə incə ornamentləri, zərif və nəfis naxışları ilə diqqəti cəlb edən bu xalçalar məşhur Avropa rəssamlarının əsərlərində, miniatürlərdə də öz əksini tapmışdır. XV əsr Niderland rəssamları Hans Memlinqin "Məryəm öz körpəsi ilə" tablosunda "Şirvan" xalçası, Van Eykin "Müqəddəs Məryəm" əsərində "Zeyvə xalçası", Alman rəssamı Hans Holbeynin (XV əsr) "Səfirlər" əsərində "Qazax" xalçasının təsvirləri verilmişdir.

Tədqiqatçılar insanın estesik mədəniyyətinin inkişafını aşağıdakı kimi göstərirlər:

| Estetik mədəniyyətin inkişafı | |
|---|---|
| 1. | Gerçəkliyin dərk edilməsi onun hissi qavrayışı ilə başlanır,idrak prosesi hiss və rasionallığın vəhdətidir. |
| 2. | Estetik hisslərin əmələ gəlməsinin və inkişafının əsasında fəaliyyət durur. |
| 3. | Estetik fəaliyyətin əsasını insanların maddı həyat şəraiti təşkil edir. |
| 4. | Estetiklik öz ideyalarına uyğun olaraq gerçəkliyin insan tərəfindən məqsəd və şəraitə uyğun dəyişdirilməsidir. |
| 5. | Estetiklik ümumbəşəri xarakteri ilə özünü göstərir. |
| 6. | Gerçəkliyə emosional-hissi münasibət insanda müxtəlif quruculuq məsələlərinə dərin maraq oyadır. |
| 7. | Estetiklik praktika ilə əlaqəlidir. |

**Cədvəl 1.1 Estetik mədəniyyətin ikişafı**

- **Kreativlik və estetika**

Kreativlik çoxcəhətlidir. İnsan ətraf aləmi təkcə passıv müşahidə etmir, həm də yaradıcılıqla onu dəyişdirə bilir. Deməli, insanın şüuru dünyanı təkcə əks etdirmir, həm də eyni zamanda onu yaradır.

Rəsm əsərləri, kinofilm yaradanlar, yaxud teatr səhnəsində müxtəlif adamların obrazlarını canlandıranlar, zavod sexlərindəki dəzgahlarda detalı zövqlü yonanlar da yaradıcılardır. İnsan hər bir işdə ustadır. Ona görə incəsənətdə olduğu kimi, əməkdə də mühüm bir qayda mövcuddur: ***Nə yaratmaq deyil, necə yaratmaq vacibdir.***

Estetik fəaliyyət estetik mədəniyyət sisteminə ictimai praktikanın müxtəlif sferalarını cəlb edir. Eyni zamanda elmi-texniki inqilabın estetik fəaliyyətə qarşılıqlı təsir prosesi baş verir. Bu iki tendensiya qovşağında estetik fəaliyyətin maddı istehsal sistemində yeni növü – ***dizayn*** yaranmışdır. O, müasir estetik mədəniyyətin mühüm elementi olmuşdur. Dizaynın məqsədi nəticə etibarı ilə maddi sərvətlər istehsalıdır. Lakin bu sərvətlər xüsusi özfəaliyyət – bədii konstruksiyalaşdırma əsasında estetik dəyərə malik olur. Məsələn, bu gün dünyanın böyük şəhərlərini bəzəyən bir çox memarlıq abidələri buna nümunədir.





*Şəkil 3.3. Qız qalası (XII əsr)*   *Şəkil 3.4. Alov qüllələri ( XX əsr)*   *Şəkil 3.5.  Eyfel qülləsi (XIX əsr)*

Dizayn həm də hələ öz rolunu itirməmiş köhnə əşyanın modernləşdirilməsindən, cəmiyyətin tələblərini ödəyən yeni məmulat layihəsi verilməsindən başlaya bilər. Dizaynerin əsas vəzifəsi təkcə məmulatın funksiyaları və konstruksiya xüsusiyyətlərini nəzərə almaqla məqsədyönlü, mükəmməl forma yaratmaq deyil, onun daha böyük vəzifəsi insanın tələblərinə uyğun münasib əşya mühiti təşkil etməkdir. Estetik cəhətdən mütəşəkkil məişət və istesalat mühiti insanın davranışını cəmiyyətin qəbul etdiyi və bəyəndiyi normalara uyğun olaraq istiqamətləndirir, yəni insanın davranış mədəniyyətində "əşyalaşır".

Dizayn incəsənət və istesalat arasında vasitəçidir, incəsənətin yaratdığı bədii sərvətləri və ifadə vasitələrini texnikaya çevirməyə imkan verir. Elmi-texniki tərəqqinin təsiri altında təkcə estetik mədəniyyət deyil, həm də müasir həyat tərzi də dəyişir.

Yuxarıda yazılanlara nümunə olaraq bu gün insan həyatını asanlaşdıran və yaxud bəzəyərək mənalı edən minlərlə elmi kəşfdən, ixtiralardan nümunə gətirə bilərdik. Sadə bir misala, bəşər həyatında atomun kəşfi qədər əhəmiyyətli olmasa da, bu gün hər birimizin zövqünü oxşayan bir kəşfə nəzər salaq:



*Şəkil 3.5. Adolf Dassler-ilk krossovka yaradıcısı*



*Şəkil.3.6. Adolf Dasslerin bürünc heykəli. Hersogenaueraç Stadionu, 2006, heykəltaraş İosif Tabaçnik*

Adolf Dasslerin 1920-ci ildə icad etdiyi krossovkalar (qaçış üçün idman ayaqqabıları) bütün dünyada məşhurdur. 1948-ci ildə yaratdığı "Adidas" firmasının adı da, onun ad və soyadı ilə adlandırılmışdır. (Adolf Dassler -"Adidas". Adının və soyadının qısaldılmış forması). Adolf Dassler özü yeniyetmə vaxtlarından çox ehtiraslı idman həvəskarı və azarkeşı olmuşdur. O, daim idmançılar üçün çox rahat olan bir ayyaqqabı hazırlamaq arzusunda idi və nəhayət, bu arzusunu reallaşdıraraq 1920-ci ildə çox yüngül və çox rahat olan idman ayaqqabılarının (krossovkaların) ilk nümunəsini hazırlamışdır. Artıq 1923-cü ildə Amsterdam Olimpiadasında bu krossovkalar böyük idmanda bir brendə çevrilmişdi. Hal-hazırda isə "Adidas" firması dünyanın ən məşhur idman geyimləri brendidir.

Krossovkaların indiki modelləri çox müxtəlifdir. Belə ki, indiki krossovkaların içərisi çox yüngül xüsusi yaylarla və xüsusi elastik köpüklərlə təchiz olunur. Bu cür krossovkalar idman yarışları üçün çox rahatdır. Bundan başqa, müasir krossovkalarda sərinləşdirici və qızdırıcı sistemlər, daban və pəncələrin amortizasiyasının tam təmin olunması da nəzərdə tutulub.

Bütün bu sadaladığımız cəhətləri ilə bərabər krossovkalar xarici görünüşlərinə görə də çox müxtəlifdir. İlbəil insanların estetik zövqünə əsasən krossovkaların da xarıcı görkəmi dəyişir və yeni formalı modellər yaradılır. Məsələn, əvvəllər krosovkalar ancaq qaytanlarla bağlanırdısa, sonralar zəncirbəndlə, yapışqanlı, düymə ilə bağlanan krossovkalar istehsal olunmağa başlandı. Müasir dövrümüzdə krossovkalar müxtəlif modelli və müxtəlif texnologiyalarla müxtəlif ölkələrdə kütləvi surətdə istehsal olunsa da,onun ilk yaradıcısının adı hələ də unudulmayıb.

Peşəsindən asılı olmayaraq hər bir insan öz çalışdığı sahədə belə bir uğur hekayəsi yarada bilər. Bunun üçün daim öyrənmək, fəaliyyətdə olmaq və estetik zövqünü inkişaf etdirmək lazımdır.

### *3.3.1. Öz peşəsində kreativlik və estetika anlayışlarını necə istifadə edəcəyini təhlil edir.*



- **Öz peşəsində kreativ olmaq üsulları**

Bir çox biznes və idarəetmə bestsellerlərinin müəllifi olan Den Pinkin sözlərinə görə, "Kreativlik, dünyaya əvvəl görmədiyi, lakin hər zaman ehtiyac duyduğu bir şeyi bəxş etməkdir". Dünya əvvəlindən yeni kəşflər sayəsində inkişaf etmişdir. İlk fəlsəfi baxışlardan elmi-ixtiralara qədər hər bir addım dünyanı daha çox tamamlamağa xidmət edib.

Araşdırmaçılar uzun zaman intellekt ilə dahiyanəlik arasında qarşılıqlı əlaqəni qurmaq istəyiblər, lakin intellektin kifayət olmadığı aydın olmuşdur. "Ən yüksək IQ (228 IQ)" kateqoriyasında Guinness Rekordlar Kitabına düşmüş Merilin Vos Savant yazarlıq fəaliyyətindən başqa dünya elminə və incəsənətinə heç bir töhfə verməyib, halbuki, Amerikanın ən son böyük dahisi hesab olunan Riçard Feynmanda IQ cəmi-cümlətanı 122 punkt olub. Nobel mükafatı almağa və Kvant elektrodinamikasının banilərindən biri olmağa bu rəqəm bəs etmişdir.

Dünyamızda və ölkəmizdə nə qədər alim var, incəsənət sahəsində işini peşəkar bilən mütəxəssislər var. Necə olur ki, məntiqi baxımdan üstün görünən insanlar dünyaya töhfə verə bilmirlər, lakin digərləri gözlənilmədən xariqüladə işləri təhvil verib, tarixə imza atırlar?! Bu təzadın cavabı kreativlikdir. Ətrafda gördüklərini əlaqələndirib, yeni məfhum yaratmaq qabiliyyətidir. Kreativlik olmadan professorlar da, rəssamlar da, musiqiçilər də sadəcə içində kitablar olan kitabxanalar kimidirlər. Arximed vannanı digərləri kimi qəbul etsə idi, indi "evrika" nədir bilməzdik. Salvador Dali digər rəssamlar kimi ancaq gözü ilə gördüyünə inansa idi, biz onun təxəyyülünün gücünü görməzdik. XVII əsrdə başına alma düşməsi ilə böyük bir kəşfə imza atmasına səbəb İsaak Nyutonun kreativ yanaşması idi.

Biz böyük dəyişikliklər dövründə yaşayırıq. Elm və texnikanın ağlasığmaz tərəqqisindən güc alan bu dəyişikliklər bütün yer üzünü bürümüş, mədəniyyətləri transformasiya etmiş, qədim adət-ənənələrə yenidən nəzər salmağa məcbur etmişdir.

Belə bir tərəqqi hər birimizdən öz peşəmizə, işimizə yenidən nəzər salmağı, yaradıcı yanaşmağı tələb edir. Bəs müasir dövrün "nəbzinə" uyğun olaraq biz özümüzdə işimizdə kreativ düşüncəli yanaşmanı necə formalaşdıra və estetik zövqümüzü iş həyatımızda necə tətbiq edə bilərik?

Kreativ düşüncəli insan kimi formalaşmanın 4 əsas istiqaməti var:

1) ***İnformasiya qəbul edin.*** Məlumat kreativliyin ürəyidir. Məlumat olmadan heç bir kreativlikdən söhbət gedə bilməz, çünki nəyi isə fərqli etmək üçün daha əvvəl bunun necə edildiyini bilməliyik. Bunun üçünsə çoxlu oxumaq, çoxlu ünsiyyətdə olmaq, çoxlu gəzmək lazımdır. Mütaliə etmək, müxtəlif peşə sahibləri ilə, ziyalılarla ünsiyyət, müxtəlif ölkələri səyahət edərək oranın təbiəti, yaşayışı, infrastrukturu, mədəniyyəti ilə tanışlıq insanın estetik zövqünün də zənginləşməsinin əsas amilləridir.
2) ***Öyrənmək –*** həyat boyu davam edən prosesdir. Öyrənməyi heç vaxt dayandırmayın. İnternetin gücü informasiya istehlakını dəyişməsidir. İnternet informasiyanin daha tez hərəkətini təmin edir. Xərclərin aşağı salınması,qiymətlərin ucuzluğu deyil, sadəcə informasiyanın vaxtında və düzgün ötürülməsi peşənizdə uğurlu olmanızı təmin edə bilər.
3) ***Ətrafda baş verənlərə fikir verin.*** Dünyada mövcud olan bütün icadların hər biri ətrafımızda olan proseslərə diqqət yetirmək, onları müşahidə etmək yolu ilə olmuşdur. Özündə məhsul istehsalı və istehlakı prosesini müşahidə etmək bacarığını inkişaf etdirən hər kəs həm ümumi mənzərəni, həm də bu proseslərin ayrı-ayrı detallarını incələyə bilər.

   Kreativ düşünmək üçün ətrafda ilk baxışda aydın görünən işlərə diqqət yetirilməli, hər bir işin səbəbini başa düşməyə çalışılmalıdır. Aydınlaşdırılan hər bir "səbəb" kreativ düşüncə üçün "bünövrə" rolunu oynayır. Kreativ yanaşma olmadan fərqlənmək mümkün deyil.

   Yaponlar bunun üçün "5 niyə" metodundan istifadə edirlər. Bu metodun tətbiqi hər bir nəticə üçün beş səbəb müəyyən etməklə bağlıdır. Məsələn gün eynəklərinin satışı yayda artır,(niyə?) çünki insanlar gözlərini günəş şüalarının zərərli təsirindən qorumaq istəyirlər,bununla bağlı məhsulun istehsal və istehlakına olan tələbat da artır. İstehsal olunan gün eynəkləri ekoloji və tibbi cəhətdən təhlükəsiz məhsul olmalıdır, (niyə?) insanlar sağlamlıqlarını qorumaq üçün gün eynəyindən istifadə edirlər. Hazırlanan gün eynəkləri mövsümə və müxtəlif zövqlərə cavab verəcək, dəbə uyğun şəkildə dizayn edilməlidir, (niyə?) çünki hər bir insan aldığı məhsulla həm də estetik tələbatını ödəyir.

   İstehsalın artması ilə bərabər gün eynəklərinin qiyməti də mövsümünə uyğun olaraq əlçatan olmalıdır, (niyə?) bununla həm də satış faizinin yüksəldilməsi reallaşdırılır. İstehsal olunan gün eynəkləri əlavə təyinatına görə də müxtəlif çeşidli olmalıdır, (niyə?) müştərilərin bu eynəklərlə bağlı əlavə tələbatlarını ödəməklə satış bazarında maksimum üstünlük əldə edilir.
4) ***Öz peşənizdən olmayan adamlarla söhbət edin.*** Hansısa həkimin verdiyi ideya sərgiləmədə yeni standartlar yarada bilər və ya hansısa sürücünün dediklərindən kosmik gəmi yaratmaq olar. Bu, sizə gülməli gəlməsin. Kreativ düşüncə bizim ətrafımızda, çox yaxında yerləşir. Sadəcə onu görmək üçün daim axtarışda olmaq lazımdır. Məsələn, Hollivudda yetərincə tanınan və sevilən avstriyalı aktrisa Hedy Lamarrın ideyası ilə formalaşan simsiz rabitə və idarəetmə II Dünya müharibəsində hərbi məqsədlər üçün geniş istifadə olunmuşdur.

   1930-cu ildə Rut Qreyvs Ueykfildin təsadüfən hazırladığı şokoladlı keks 100 ilə yaxındır ki, bütün dünyada sevilməkdə və istehsalçılara milyonlar qazandırmaqdadır.
5) ***Sadə, sadə və bir daha sadə olun.*** İnsanlar ətrafdakı proseslərə nə qədər sadə yanaşırlarsa, bu proseslər onlar tərəfindən bir o qədər sadə mənimsənilir. Məsələləri mürəkkəbləşdirməyin. Sadələşdirmənin özü də bir kreativlikdir. Bu gün adı məşhurlar cərgəsində ən ön sirada olan Bill Qeyts maraqlı bir metoddan istifadə edir. O, çıxışlarından birində qeyd edir: "Mən həmişə ən çətin və çıxılmaz işləri şirkətimizin ən tənbəl işçilərinə tapşırıram. Belə işçilər istənilən problemin ən asan və yeganə həll yolunu tapırlar".

Həmişə hədəfə doğru hərəkət etmək, imkanların üzərində işləmək lazımdır. Uğur belə addımlarda olur. İstənilən prosesdə mütləq sadə başa düşülən hədəf olmalıdır. Kreativ düşüncə sadə və hamı üçün aydın hədəflərin qoyulmasından başlayır.

- **Müasir biznesdə kreativliyin əhəmiyyəti və kreativ iqtisadiyyat**

Müasir dünyamızda öz biznesini qurmaq və ya inkişaf etdirməkdə kreativliyin danılmaz rolu və əhəmiyyəti var.

Hamıya məlumdur ki, bu gün müştəri bazarda yenilik axtarır. Yeni məhsul (xidmət, dəyər və s.) yaradılmasının yeganə yolu digərlərinin görə bilmədiyi tendensiyaları görmək və bu tendensiyalar üzərinə ***təkliflər*** yaratmaqdır. Bazarda fərqli məhsul yaratmaq üçün kreativ düşüncə şərtdir.

Cek Trautun dediyi kimi bazarda biznesin iki yolu var: fərqlənmək və ya ölmək! Əlbəttə, bir qədər kəskin səslənən bu fikir, əslində düzgündür. Fərqlilik biznesə fərqli, kreativ yanaşmalar tələb edir.Müasir dövrümüzdə artıq "mənim fabrikim daha böyükdür", "mənim maşınlarım daha çoxdur", "mənim məhsulum daha keyfiyyətlidir" və s. cümlə və ifadələrin dövrü çoxdan sona çatmışdır desək yanılmarıq. Bu, hamıda var! İndi fərqlənə bilmək üçün biznesdən kreativ düşüncə tələb edilir.

Məntiq çox sadədir – yalnız fərqli dəyərlər təklif edildiyi zaman biznes uğurlu ola bilər. Biznesdə fərqlənmək – ***differensasiya*** ən vacib dəyərdir. Ceyms Qudnaytın sözləri ilə desək: "Biznesdə uğur qazanmağın açarı – innovasiya etməkdir, bu isə öz növbəsində kreativlik sayəsində yaranır".

Biznesdə kreativlikdən danışarkən "kreativ iqtisadiyyat" terminini izah etmək lazımdır. Bu ifadə haqqında mütəxəssislərin yanaşması fərqlidir. Məsələn, J. Hovkins bu ifadə ilə
15 kreativ sənaye sahələrindən bəhs edir.

| ***Kreativ sənaye sahələri*** | |
|---|---|
| 1. | Elmi-tədqiqat və təcrübi konstruktor işləri (ETTK). |
| 2. | Proqram təminatı. |
| 3. | Nəşr işi. |
| 4. | TV və radio. |
| 5. | Dizayn. |
| 6. | Musiqi. |
| 7. | Kino. |
| 8. | Oyuncaqlar və oyunlar. |
| 9. | Reklam. |
| 10. | Memarlıq. |
| 11. | İfaçılıq sənəti. |
| 12. | Sənətkarlıq. |
| 13. | Video-oyunlar. |
| 14. | Moda. |
| 15. | İncəsənət. |

**Cədvəl 1.2**

Bu sahələr Copyright, patent, əmtəə nişanları və orijinal işləmələri şəklində əqli mülkiyyət yaradanlardır. Bu, sahəvi, operasional tərifdir. Operasional tərif əsasında kreativ iqtisadiyyat – yaradıcılıq fəaliyyəti ilə bağlı məhsul və xidmətləri yayan, istehsal və istehlak edən milli və beynəlxalq iqtisadiyyatın müvafiq sektorudur. R.Floridanın yanaşmasında isə "Kreativ iqtisadiyyat peşə (fəaliyyət növü) əsasında müəyyən olunur", "iqtisadiyyatın və cəmiyyətin aparıcı qüvvəsi kreativlikdir", yəni "bilik iqtisadiyyatın bilikləri əsasında praktiki yeni formaların yaradılmasıdır". O, həmçinin qeyd etmişdir: "Bilik

və informasiya kreativlik üçün alət və işçi materialıdır və məhsulu isə innovasiyadır". Bu fəaliyyət növünə əsaslanan konseptual tərifdir. Konseptual tərif əsasında kreativ iqtisadiyyat kreativliyin daşıyıcılarını və onların fəaliyyəti nəticəsində yeni formaları (innovasiyaları) nəzərdə tutur.

Kreativ sinif – kreativliyin daşıyıcıları iki hissəyə bölünür:

1) super kreativ nüvə (alimlər, mühəndislər, universitet professorları, şairlər, yazıçılar, rəssamlar, aktyorlar, dizaynerlər, memarlar, publisistlər, redaktorlar, mədəniyyət xadimləri, ekspertlər və s.);
2) biliyə əsaslanan sahələrdə çalışanlar (yüksək texnologiyalar, maliyyə, hüquq, biznes menecmenti və s.).

Kreativ sinfin bazası iqtisadiyyatdır, yəni kreativ sinif nümayəndələri yaradıcılıq fəaliyyəti nəticəsində iqtisadi dəyərlər istehsalçılardır.Kreativ iqtisadiyyatın tərkibinə ETTKsoftver, kinobiznes, kitab ticarəti, media, musiqi və artbiznes, video-oyun, reklam və dizayn və s. məhsul və xidmətlərin bazarları daxil edilir.

Keçmişdən günümüzə insanların ən müxtəlif vəziyyət və situasiyalara uyğunlaşmaq və yaratmaq bacarığı istər ayrı-ayrı fərdlər, istərsə də cəmiyyət kimi ümumi uğurumuzun əsasını təşkil edib. Tarixin hər bir dönəmində bizləri yeni və kreativ yollarla düşünməyə, davranmağa və əməkdaşlıq etməyə sövq edən fərqli çağırışlar mövcud olub. Bu günün dünyası da bu mənada fərqli deyil. Ona görə də 2015-ci ilin sentyabr ayında dünyanın 193 ölkəsinin rəhbərləri 2030-cu ilə kimi dayanıqlı inkişafa nail olmaq üçün ifrat yoxsulluğun və aclığın aradan qaldırılması, iqlim dəyişikliyi ilə mübarizə, qeyri-bərabərliyin azaldılması, davamlı su təchizatı, enerji mənbələri və yeni sənaye sahələrinin təmin edilməsi də daxil olmaqla, dünyanın görməli olduğu işləri müəyyənləşdirib. Bu baxımdan kreativ iqtisadiyyatın inkişaf etdirilməsinin də vacib rolu olduğu bildirilmişdir.

Hələ 2010-cu ildə BMT-nin bir neçə strukturu, o cümlədən DƏMT "Kreativ iqtisadiyyat Hesabat"ını hazırlayıb. Hesabatda göstərildiyi kimi, kreativ industriya digər ənənəvi sənaye sahələri ilə müqayisədə dünyanı bürüyən qlobal iqtisadi böhrana qarşı daha böyük müqavimət, davamlılıq göstərə bilmişdir və bununla da, qlobal iqtisadiyyatın bərpasına stimul yaradan yeni iqtisadi tendensiya kimi qiymətləndirilmişdir.

Mədəni və kreativ sənaye dünya ümumi daxili məhsulunun 4,5%-ni təşkil edərək, hər il 10% artım proqnozlaşdırır. Bu sahələr istehsalat və xidmət sferasında daha çox inkişaf edir. Avropa İttifaqında bu sektor iş verənlər üzrə böyüklüyünə görə üçüncü olmaqla, vətəndaşlara 8,3 milyon iş yerləri təqdim edir və 558 milyard avro həcmində gəlir gətirir. Kreativ sənaye digər sahələrdən daha çox gənclər üçün geniş iş yerləri təmin edərək, sahibkarlıq və innovasiyaları dəstəkləyir, sərmayə və turizmi stimullaşdırır.

Kreativ iqtisadiyyatın digər bir xüsusiyyəti də onun iqtisadi, ictimai, mədəni, elmi-texniki, ekoloji və digər sferalarla bağlılığı, sektorlararası əlaqələndirmə tələb etməsidir. Üstəlik, kreativ sənaye siyasəti yalnız iqtisadi ehtiyaclarla kifayətlənmir, sosial, təhsil, mədəni identifiklik, sosial bərabərsizlik, ekoloji faktorlar və digər xüsusi tələbləri nəzərə alır. Bir sözlə, kreativ iqtisadiyyat elmin, incəsənətin, mədəniyyətin, biznesin, yenilikçilik və innovasiyaların, yeni biznes-modellərin kəsişməsi və inteqrasiyasıdır.

- **Azərbaycanda kreativ iqtisadiyyatın inkişafı**

Kreativ iqtisadiyyat müəllif hüququna əsaslanan iqtisadiyyatdır. Bu ifadə sinkretik anlayışdır, vahid formada bir neçə mənanı cəmləşdirən, yaradıcılığa, əqli fəaliyyətə əsaslanan iqtisadiyyatın xüsusi sektorudur. Bu sektor kreativ, yaradıcı sahələri əhatə etməklə, intellektual məhsul və xidmətlərlə nəticələnir və adətən müəlliflik hüququ obyektləri kimi qorunur.

Kreativ iqtisadiyyatın dinamikası, onun artımı ölkənin müəllif-hüquq sahəsinin dəyərləndirilməsindən, müəllif hüququnun qorunma səviyyəsindən xəbər verir. Bununla yanaşı, müəllif-hüquq sahəsinin ən vacib göstəriciləri sırasına daxil olan kreativ iqtisadiyyatın səviyyəsi innovasiya mühitinin əlverişliliyini formalaşdırır və sosial sahənin inkişafını təmin edir. Azərbaycan dövləti kreativ iqtisadiyyatı daim nəzərdə saxlayır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilir ki, "əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli

şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir".

Müəllif Hüquqları Agentliyi bir neçə ildir ki, Azərbaycanın kreativ iqtisadiyyatı ilə bağlı araşdırmalar aparır, kreativ iqtisadiyyatın ÜDM-dəki payını müəyyənləşdirir, monitorinqlərin nəticələrini təhlil edir və məlumatları hökumətə təqdim edir. Araşdırmalar göstərir ki, Azərbaycanın son illərdəki qüdrətli sosial-iqtisadi inkişafı, yüksək iqtisadi artım tempi kreativ iqtisadiyyatın artımına da böyük təsir göstərib.

Azərbaycan son illərdə çox uğurlu sosial-iqtisadi inkişaf yolu keçib. Dövlətimizin başçısının düşünülmüş "Azərbaycan modeli" bütün dünyada dayanıqlı, sosialyönümlü inkişaf modeli kimi qəbul edilib və onun həyata keçirilməsi nəticəsində Azərbaycan makroiqtisadi sabitliyə nail olub, gəlirlərin ədalətli bölünməsinə zəmin yaradıb, yoxsulluğu nəzərəçarpan dərəcədə aşağı salıb və iqtisadiyyatda keçid dövrünü 2009-cu ildə başa çatdıra bilmişdir.

Bu dövrə nəzərə salsaq görərik ki, qazanılan nailiyyətlər, innovativlik və modernləşdirmə iqtisadiyyatın şaxələndirilməsi ilə müşayiət olunub və nəticədə 2013-cü ildə adambaşına düşən ÜDM-in həcmi 2003-cü illə müqayisədə üç dəfə artıb. Prezident İlham Əliyev "Gələcəyə baxış" Azərbaycan-Amerika Forumunda biliklərə və insan potensialına əsaslanan innovativ inkişafın vacibliyini vurğulayaraq demişdir: "Hərdən müəyyən mütəxəssislər Azərbaycanın inkişafını enerji ilə əlaqələndirirlər. Əlbəttə, sirr deyildir ki, enerji Azərbaycanın transformasiyasında böyük rol oynamışdır. Amma bunu təhlil etsək görərik ki, bu, tam olaraq belə deyildir. Biz öz neft dəyərlərimizi müdrik şəkildə istifadə etməyi bacarmışıq. Biz bu gəlirləri müxtəlif sahələrə yönəltmişik. İnfrastruktur layihələri həyata keçirmişik. Mən deyərdim ki, radikal iqtisadi islahatlar həyata keçirmişik. Bu, bizim strategiyamızın tərkib hissəsidir. Çünki siyasi və sosial islahatlar iqtisadi islahatlarla bərabər aparılmalıdır. Çünki hər hansı bir sahə bir balaca geridə qalsa, biz uzunmüddətli inkişafı və uğuru təmin edə bilmərik". Prezident İlham Əliyevin dərin məzmunlu, eyni zamanda lakonik çıxışlarındakı bir sıra açar sözləri diqqəti çəkir: "iqtisadi inkişaf", "stabillik", "sosialyönümlülük", "qeyri-neft sektorunun inkişafı", "çoxşaxəli iqtisadiyyat", "diversifikasiya", "innovasiya", "insan kapitalı", "İKT" və s.

Apardığımız araşdırmalara əsasən, müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan iqtisadiyyatın ÜDM-də payı 2003-cü ildəki 2,1 faizdən 2012-ci ildə 4,5 faizə yüksəlib və hazırda 2014-cü ilin nəticələrinə görə 5 faizdir, yəni inkişaf etmiş ölkələrin orta səviyyəsinə yaxındır. Bu isə 2003-cü ildən bəri kreativ iqtisadiyyatın 13 dəfə artması, 220,5 milyon manatdan 2973,6 milyon manatadək yüksəlməsi deməkdir. Həmin illərdə ÜDM-in 8,2 dəfə artması kreativ iqtisadiyyatın 13 dəfə artımına səbəb olub və beləliklə, ölkəmizin qüdrətli və dayanıqlı inkişafını təmin edən müəlliflik hüququ sahəsində qanunvericilik və idarəçilik tədbirlərini gücləndirən dövlətimizin başçısının "Azərbaycan modeli" kreativ iqtisadiyyatın artımına təkan verib.

Prezident İlham Əliyevin "qara qızılı insan kapitalına çevirmək" və "qeyri-neft sektorunun prioritet inkişafı" kimi tapşırıqlarının icrasında kreativ industriyanın mühüm rolu var. Bu iqtisadiyyatın məşhur tədqiqatçısı Riçard Floridanın sözü ilə desək, "kreativ iqtisadiyyat kreativ sinfə əsaslanır, bunlar isə gələcəyi dəyişən insanlardır". Deməli, kreativ iqtisadiyyatın inkişafı kreativ insanların dəstəklənməsidir, kreativ peşəkarların çoxalmasıdır, onların dairəsinin genişlənməsi ilə cəmiyyətin kreativliyinin, yeni dəyərli formaların yaradılmasında ümumi qabiliyyətin artırılmasıdır.

Həqiqətən, kreativliyi, onun törəməsi olan kreativ iqtisadiyyatı dəstəkləmək əqli mülkiyyətə, müəllif hüquqlarına önəm vermək deməkdir. Əqli mülkiyyət hüquqlarına hörmətlə yanaşmaq isə insan hüquqlarının vacib tərkib hissəsi olan mədəni hüquqları yaşatmaq deməkdir. Bu da öz növbəsində mədəni müxtəlifliyi inkişaf etdirmək, mədəniyyətlərə qarşılıqlı tanınma, tolerantlıq və bərabərhüquqluluq mövqeyindən yanaşmaqla, inteqrasiya yollarını axtarmaq, bir sözlə, multikultural siyasət yeritmək deməkdir. Azərbaycan dövləti bu siyasətə sadiqdir və ölkəmizin multikultural modeli dünya ictimaiyyəti tərəfindən örnək kimi qəbul edilir.

IV Qlobal Bakı Forumunun rəsmi açılışından sonra Prezident İlham Əliyev "Euronews" telekanalına verdiyi müsahibədə neft-qaz istehsal edən ölkə üçün iqtisadiyyatın biznes-modelini dəyişdirməsi ilə bağlı suala belə cavab verib: "Əslində, biz iqtisadiyyatın şaxələndirilməsi üzərində uzun illərdir ki, işləyirik. Lakin hazırda – neftin qiymətinin çox aşağı olduğu bir dövrdə bu, bizim üçün əsas prioritetə çevrilib. Biz

neft və qazdan asılılığı azaltmağa nail olmuşuq. Hazırda neft və qaz bizim ümumi daxili məhsulun cəmi 30 faizini təşkil edir. Lakin bizim hədəfimiz neftin qiymətindən asılı olmayacaq inkişaf modeli yaratmaqdır və bu proses davam edir". Bu sözlər yeni Azərbaycan dövlətinin,onu iqtisadiyyatının gələcək daha böyük uğurlarına işarədir və dövlət başçısının dediyi kimi, Azərbaycanın gələcəyi inkişaf etmiş ölkələrdəki kimi, daha çox innovasiya, intellektual inkişaf dövrü olacaq.

### *3.4.1. İşində necə yaradıcı olduğunu nümayiş etdirir*



- **İş yerində uğur qazanmağın yolları**

Uğur- həyatda nəyəsə nail olmaq, bir addım irəli getmək, digər insanlardan fərqli olmaqdır. Müasir dövrdə biz tez-tez belə kəlimələri eşidirik: "bəxti gətirən", "uğurlu iş adamı" və s. Adətən, "uğur" dedikdə, insanın maliyyə vəziyyəti başa düşülür, yəni işində uğur qazanmısansa, deməli, həyatda çox şeyə nail olmusan.

İnsan hər sahədə uğur qazana bilər. Uğur qazanmaq üçün nə etmək lazımdır? Məhz etdiyi hər hansı işə görə insan pul mükafatı alır. Elə-belə heç bir yerdən insan uğur və şöhrət qazana bilməz, həmçinin pul da. Əgər insanın hər şeyi varsa, deməli, o, əlindən gələni edib ki, bunlara sahib olsun. Bəs biz niyə belə edə bilmirik? Əslində hamı yer üzündə eyni hüquqa malikdir. Onda niyə biriləri həyatda uğur qazanır, digərləri bu uğuru qazana bilmir? İnsanın daima uğur qazanması üçün işində yaradıcı olması vacibdir.

**Hər bir şəxs işində uğur qazanmaq üçün aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:**



*Şəkil 3.7 Uğura doğru*

**1. Dəqiqlik** – insan həmişə öz işini dəqiqliklə və vaxtlı-vaxtında yerinə yetirməlidir.
**2. Etibarlılıq** – insan ona etibar edənləri pis vəziyyətdə qoymamalıdır.
**3. Özünə güvənlilik** – insan hər hansı bir problem və ya vəziyyəti həll edərkən ilk verdiyi qərardan şübhələnməməlidir.
**4. Xeyirxahlıq** – başqa insanların problemlərindən üz döndərmək lazım deyil, məsləhət və hərəkətlərlə onlara kömək etmək lazımdır.
**5. Hiyləgərlik** – həyatda bir işin alınması üçün bir az hiyləgər olmaq lazımdır.
**6. Azad fikirlilik** – insanın gərək özünün nəzər nöqtəsi, həyata obyektiv baxışı olsun.
**7. İnadlılıq və məqsədə yönəlmə** – insan başladığı işi sona çatdıracaq qədər inadlı olmalıdır.
**8. Yaradıcılıq qabiliyyəti** – hər bir insan az da olsa yaradıcı olmalıdır.

Həyatda uğur qazanmaq, nəyəsə nail olmaq üçün ilk növbədə məqsəd aydın olmalıdır; irəliyə getmək üçün stimul olmalıdır. Elə insanlar vardır ki, etdiyi işdən maksimum zövq ala bilirlər; onların əhval-ruhiyyəsi həmişə yerində olur, çox xeyirxah və gülərüz insan təsiri bağışlayırlar. Məhz belə formada işləyib uğur qazanmaq mümkündür. Uğur qazanmaq üçün insan ətrafındakı dost-tanışlara da diqqət yetirməlidir. Yaxşı dost həmişə işə dəstək verəcək, əlindən gələn köməyi əsirgəməyəcək. Əksinə, uğur əldə etmək üçün pessimist insanlardan uzaq olmaq lazımdır.

## *Tələbələr üçün fəaliyyətlər*



- Peşənizlə bağlı bir kreativ ideya qeyd edərək onun həyata keçirilməsini alqoritmlər şəklində təsvir edin;
- Əlavə mənbələrdən (internet, ədəbiyyat və s.) istifadə edərək "Bəşəriyyətin inkişafına təkan verən kəşflər" mövzuzunda təqdimat hazırlayın;
- Peşənizlə bağlı istehsal etdiyiniz məhsulun (hazırladığınız məhsulun, təklif etdiyiniz xidmətin) keyfiyyətini yüksəltmək üçün bir neçə təklifdən ibarət "Təkliflər paketi" hazırlayın və arqumentlərlə əsaslandırın.
- Hər hansı bir məhsulun həm təbii, həm də sosial xüsusiyyətlərini ifadə edən təqdimat hazırlayın;
- Gələcəkdə çalışacağınız peşənin insanlrın estetik tələbatını necə ödəməsi haqqında təqdimat hazırlayın;
- "Azərbaycan sənətkarlarının əsərləri dünya muzeylərində" mövzusunda slaydlardan ibarət təqdimat hazırlayın;
- Əlavə mənbələrdən ( internet, ədəbiyyat və s.) istifadə edərək,
  1. "Dizayn incəsənət və istehsalat arasında vasitəçidir"
  2. "Məhsulun satışında dizaynın rolu" mövzularında təqdimat hazırlayın.
- Yaponların "5 niyə" metodundan istifadə edərək hər hansı bir məhsulun təqdimatını hazırlayın;
- "Müasir biznesdə kreativ iqtisadiyyatın rolu" mövzusunda diskusiya təşkil edin;
- "Azərbaycanda kreativ iqtisadiyyatın inkişafı" mövzusunda məruzə hazırlayın;
- "Həyata obyektiv baxış" mövzusunda esse yazın;
- "Uğur" sözünü klasterdə işləyin;
- "Uğur həyatda hər şey deməkdirmi?" mövzusunda debat təşkil edin;
- İş yerində yaradıcı olmağın faydalarını araşdırın və sinifdə təqdimatını keçirdin;
- "Ətraf mühitin insanın uğur qazanmağına təsiri "mövzusunu rollu oyunlarla canlandırın.

## *Qiymətləndirmə*

Öyrənmə prosesinə bağlı olan qiymətləndirmə meyarları:

1. **"Kreativlik və estetika anlayışlarını təhlil edir"**
2. **"Kreativlik və estetika anlayışlarının insan həyatında rolunu təhlil edir".**
3. **"Öz peşəsində kreativlik və estetika anlayışlarını necə istifadə edəcəyini təhlil edir"**
4. **"İşində necə yaradıcı olduğunu nümayiş etdirir".**

- Kreativlik nədir?
- Peşənizlə bağlı olaraq nəyi kreativlik hesab edirsiniz?
- "İnsanın estetik tərbiyəsi ilə kreativ intellekt aarasında əlaqə" mövzusunda çıxış edin.
- Bəşəriyyətin inkişafına təkan verən kəşflərin kreativ intellekt nümunələri olmasını bildiyiniz faktlarla əsaslandırın.
- Estetikanın predmet və vəzifələrini sadalayın.
- İnsanın estetik tələbatı nədir və bu tələbat peşə fəaliyyətində necə reallaşır?
- "Nə yaratmaq deyil, necə yaratmaq vacıbdır" ifadəsini peşənizlə bağlı nümunələrlə izah edib əsaslandırınə.

- Kreativ düşüncəli insan kimi formalaşmanın hansı istiqamətləri var?
- Yaponların “5 niyə” metodundan istifadə edərək gələcək peşənizlə bağlı məhsulu (xidməti,dəyəri) şərh edin.
- “Kreativ iqtisadiyyat nədir və onun hansı istiqamətləri var?
- Uğur nədir?
- Uğur əldə etmək üçün nə etmək lazımdır?
- İnsan uğur qazanmaq üçün hansı xüsusiyyətlərə malik olmalıdır?
- Xeyirxahlıq deyəndə nə başa düşürsünüz?
- İş yerində yaradıcı olmağın faydaları nələrdir?

## Təlim nəticəsi 4: Etiket və nəzakət qaydalarını təhlil edir və onlardan istifadə etməyi bacarır

### *Etiket və nəzakət qaydalarını təhlil edir*



- **Etiket nədir?**

"Etiket " sözü dilimizdə müxtəlif mənalar ifadə edir.

**Etiket** – [fr.etiquette – mərasim, təşrifat] sözündən olub, aşağıdakı mənaları ifadə edir:

1) İctimai yerdə, başqa şəxslərin yanında, onlarla ünsiyyətdə olduqda əməl edilən davranış qaydaları;
2) Malın, eksponatın və s.-nin üstünə yapışdırılan, üzərində onun adını, qiymətini və digər parametrlərini göstərməklə malı müşayiət edən yarlıq;
3) Monarxların saraylarında diplomatik dairələrdə və s.-də qəbul edilmiş davranış qaydaları;
4) Hər hansı bir cəmiyyətdə qəbul edilmiş davranış və nəzakət forması;
5) Özünü necə aparmaq barədə qoyulmuş ciddi və möhkəm qaydalar.

Etiket — insanların məişətdə, xidmətdə, ictimai yerlərdə, küçədə, qonaqlıqlarda, müxtəlif növ rəsmi tədbirlərdə davranışını tənzimləyir. Hər bir mədəni insan əsas etiket normalarına riayət etməyi başa düşməklə yanaşı, müəyyən qayda və qarşılıqlı münasibətlərin zəruriliyini də dərk etməlidir. Özünü cəmiyyətdə yaxşı aparmağı bacarmaq çox böyük əhəmiyyət kəsb edir. Bu cür qabiliyyət sayəsində insan başqaları ilə asanlıqla əlaqə yarada bilir, qarşılıqlı anlaşmaya nail olur, yaxşı, sabit qarşılıqlı münasibətlər yarada bilir.

"Etika", "Nikomax etikası" kimi əsərlərin müəllifi olan böyük yunan filosofu Aristotel demişdir: "Təbiət insanın əlinə silah – intellektual əxlaqi güc verib, amma insan bu silahdan əks istiqamətdə də istifadə edə bilər, ona görə də əxlaqi dayaqlarsız insan öz cinsi və dad instinktlərində ən rəzil, günahkar və vəhşi varlıqdır".

Etika – fəlsəfənin əxlaq fenomenini öyrənən ən qəliz sahələrindən biridir. Bu fenomen insanın davranışında əhəmiyyətli rola malik olub, insanı, törətdiyi əməllərinin motivlərinin və məqsədlərinin fövqünə çıxaran xüsusiyyətləri ilə bilavasitə əlaqələndirir. Etikanın bütün ənənəsi insan varlığının qanunlarının dərinliyinə söykənərək, onun üçün nəyin daha labüd və əhəmiyyətli olmasını müəyyənləşdirməsidir.

- **Etikanın əsas kateqoriyaları**

Cəmiyyətin mənəvi dəyərlərini əks etdirməsi ilə bağlı ümumi anlayışlar (davranışlar) etikanın kateqoriyalarıdır və bunlara xeyir və şər, borc, vicdan, namus, qürur, xoşbəxtlik, həyatın mənası və s. aiddir. Xeyir və şər analyışları ilə insan davranışları və onun bütün fəaliyyəti qiymətləndirilir. İnsanın hərtərəfli inkişafına təkan verən və cəmiyyətin rifah halının yaxşılaşmasına istiqamətlənən hər şey etikada ***xeyir*** adlanır. Həyatda, həm də digər mübarizələrdə insan şərlə üz-üzə gəlir: kobudluq, bürokratizm, özbaşınalıq, dələduzluq və s. Buna görə də cəmiyyətin, şəxsiyyətin inkişaf yolunda qarşıya çıxan və ictimai münasibətləri deformasiya edən hər bir şey ***şər kateqoriyasına*** aiddir. Öz öhdəliklərinin icrası zamanı peşəkarlıq və ictimai tələblərin mənən yerinə yetirilməsi zəruriyini ifadə edən ***borc kateqoriyası*** mənəviyyatın ən mühüm amili kimi çıxış edir. Öz borcunun yerinə yetirmək cəhdi şəxsin etikasına təsir göstərir. Borcunu anlayan şəxs bu və ya digər davranış formasını seçir.

Peşəkarlıq borcunu anlayan işçinin istehlakçıya qayğı ilə yanaşması vicdandır.

***Vicdan*** şəxsiyyətin mövcud əxlaq normalarına uyğun olaraq davranışlarını,hisslərini qiymətləndir mək, davranışına mənəvi nəzarət etmək qabiliyyətidir və insanın daxili mənəvi hakimidir. Vicdan imkan verir ki, işçi öz öhdəliklərinə qarşı məsuliyyətli olsun.

***Namus*** – insan cəmiyyətdə şəxsiyyət-vətəndaş kimi öz əhəmiyyətini daima dərk etməlidir. Bu kateqoriyada insanın yaxşı təmiz adını saxlamaq cəhdi əks olunur. Namus həm də insanın ictimai qiymətləndirilməsi və ətrafdakıların ona etdikləri hörmət səviyyəsidir.

***Qürur*** **-** özünün şəxsi əhəmiyyətini dərk etmək və qiymətləndirmək formasıdır. Qürur insanın ətrafdakılar tərəfindən ona edilən hörmət ədəbi kimi ifadə olunur. Qüruru olmayan insan başqalarının qüruruna hörmət etməz.

Filosoflar qeyd edirlər ki, "həyatın mənası nədir?" sualına cavabı mənəvi dəyərlərə müraciət etməklə tapmaq olar. Bəzən öz həyatının mənasını dərk etməyən insan mənən məhv olur, sinir xəstəliklərinə tutulur və stress keçirir. Bu baxımdan bütün xalqların əxlaq kodekslərində riyakarlıq, oğurluq, paxıllıq və s. pislənilir, düzgünlük, etibarlılıq, vicdanlılıq, məsuliyyətlilik və s. kimi mənəvi dəyərlər təbliğ olunur.

- **İnsan həyatında nəzakət qaydalarının rolu**

Cəmiyyətin inkişafının bütün dövrlərində olduğu kimi müasir dövrümüzdə də etikanın rolu böyükdür. Bu günümüzdə də etika cəmiyyətin mənəvi vəziyyətini təhlil etməli, hazırkı vəziyyətə səbəb olan amilləri göstərməli, qərarlar təklif etməli və cəmiyyətin mənəvi dəyərlərini yeniləşdirməyə kömək edən istiqamətləri əks etdirməlidir. Cəmiyyət bütün dövrlərdə xeyir və şər anlayışlarını, müəyyən əxlaq qaydaları olan anlayışları, məfhumları seçib fərqləndirir. Bütün bunlarla etika elmi məşğuldur. Onun əsasını mənəviyyat, hiss, ağıl, hərəkətin səbəbi, ədəb qaydaları sistemi və s. təşkil edir. Bu sistemə konkret olaraq daxildir: etik normalar, standartlar, qaydalar, tələblər və bunlar da öz növbəsində cəmiyyətin tarixi inkişafı mərhələlərindən asılıdır.
Müasir dövrdə elm kimi etika cəmiyyətdə ədəb qaydalarının vəziyyətini analiz etməli və düzgün istiqamətə yönəltməlidir.

İnsan cəmiyyətinə onlar arasında qarşılıqlı münasibətləri tənzimetmə vasitələrindən biri kimi daxil olan ***etiket - nəcib davranış qaydaları*** mədəni cəmiyyətdə qəbul edilən nəzakət, ədəb, mərifət, qanacaq kimi mədəni-mənəvi dəyərləri özündə əks etdirir. Etiket normaları bir növ razılığa əsaslanır. Bununla əlaqədar bu normalar müxtəlif qaydalarda fərqli şəkildə özünü göstərir, bu zaman həmin xalqların tarixi inkişaf xüsusiyyətləri nəzərə alınır. Əslində, etiket hər bir insanın davranışına ictimai nəzarət forması kimi çıxış edir, bu normaların pozulmasına görə mühakimə etməkdən başlamış cəriməyədək müxtəlif formalardan istifadə olunur. ***"Etiket"*** termini cəmiyyətdə qəbul edilmiş davranış, mərifət, nəzakət qaydası və forması kimi insanların qarşılıqlı münasibətlərində mühüm rol oynayır. Etiketdə müəyyən şəraitdə formal davranış qaydaları onun məzmunundakı sağlam düşüncə və rasionallıqla birləşir. O, insanlara müxtəlif qruplarla müxtəlif səviyyələrdə ünsiyyət yaratmaq üçün artıq hazır ümumi mərtifət, ədəb, nəzakət qaydalarından istifadə etmək imkanı verir. Etiketin əsasını sadə davranış qaydaları təşkil edir. Etiketdə nitq mədəniyyəti, mədəni danışıq yalnız düzgün qrammatik və stilistik qaydalara riayət etməyi tələb etmir, bu zaman vulqar sözlərdən, qeyri-senzuralı ifadələrdən, söyüşlərdən imtina edilməlidir. Elementar nəzakət, mərifət və ədəb-qaydaları salamlaşmaq, vidalaşmaq, xoş və ədəbli sözlər demək, insanlara sağlam həyat, xoşbəxtlik, cansağlığı diləmək və arzulamaq qabiliyyətindən ibarətdir.

Vətəndaş cəmiyyəti və hüquqi dövlətdə xoş ünsiyyət zamanı insanların daxili, mənəvi aləmi, zahiri görünüşü, geyimi ilə, ictimai yerlərdə özünü mərifətli aparmağı bacarığı ilə vəhdət təşkil etməlidir. Səliqəli geyinən mədəni, ədəbli, qanacaqlı adam ətrafdakılarda xoş təəssürat yaradır. Vətəndaş cəmiyyətinin etiketində diqqətlilik, qayğıkeşlik, başqalarının halına acımaq, ehtiyacı olanlara kömək etmək, həmsöhbəti dinləmək bacarığı yüksək qiymətləndirilir. Etiketlə insanlar arasında təşəkkül tapan, uzun sürən proseslərin nəticəsi olan mənəvi-əxlaqi normalar qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədir. Etiket və mənəvi-əxlaqi normalara riayət etməklə siyasi, iqtisadi və mədəni münasibətlər həyata keçirmək olar. Müasir dövrümüzdə etiketlərin bir çox növlərini fərqləndirirlər.

| | | | |
|---|---|---|---|
| 1. | Danışıq və nitq etikası | 7. | Dövlət qulluqçularının etiket qaydaları |
| 2. | Süfrə mədəniyyəti və etiket | 8. | Müxtəlif peşə sahiblərinin etik kodeksləri. |
| 3. | Jurnalistlərin davranış mədəniyyəti | 9. | Biznesmenlərin davranış mədəniyyəti |
| 4. | Pedaqoji etika | 10. | Həkimlərin etik kodeksi |
| 5. | Hüquq və mühafizə orqanlarının (polis, prokurorluq), hərbçilərin etik davranış qaydaları | 11. | Diplomatların rəsmi və qeyri-rəsmi etiket və davranış qaydaları |
| 6. | Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının etik davranış qaydaları | 12. | Alimlərin və yaradıcı şəxsiyyətlərin etik kodeksi |

**Cədvəl. 4.1 Etiketlərin növləri**

Müasir etiket demokratik, vətəndaş cəmiyyətlərində hökm sürən mənəviyyat normaları kimi uzun sürən prosesin - adətlərin irsi nəticəsi olaraq qədim dövrlərdən indiyədək bütün xalqların mənəvi həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Etiketə - davranış qaydalarına müasir dövrdə ən ümumi mənəvi vasitə kimi hər hansı cəmiyyətin bütün üzvləri, eləcə də dünyada mövcud olan müxtəlif sosial-siyasi sistemlərin nümayəndələri də riayət edirlər. Etiket ümumdünya prosesi olaraq bütün xalqların, millətlərin, etnik qrupların, insanların həyat tərzlərinə çevrilmişdir. Bu davranış qaydaları yarandığı gündən indiyədək cilalana-cilalana, təkmilləşə-təkmilləşə bizim günlərə gəlib çıxmışdır. Hər bir xalq öz spesifik tarixi inkişaf xüsusiyyətlərinə, ictimai-siyasi quruluşuna, adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə uyğun olaraq etiket qaydalarına əlavələr, düzəlişlər etmiş, onu daha da təkmilləşdirmiş, beləliklə ümumdünya davranış mədəniyyətinə öz milli töhfəsini vermişdir. Bu mənada etiket - davranış mədəniyyəti, ümumbəşəriliyin və milliliyin vəhdəti olan bir mənəvi sərvətdir.

Uzun əsrlər boyu bəşəriyyətin həyat şəraiti dəyişdikcə, təhsil və mədəniyyətin, mənəvi həyatın səviyyəsi yüksəldikcə etiket, davranış qaydaları bir-birini əvəz etmişdir. Şübhəsiz ki, etiket qaydaları mütləq olmadığından yerindən, zamanından və şəraitindən asılı olaraq onlara riayət olunmuşdur. Əxlaq normalarından fərqli olaraq etiket qaydaları şərti xarakter daşıyır. Belə ki, etiket qaydalarına yazılmamış razılaşma var: həmin razılaşmaya görə insanların davranış qaydalarında nəyin ümumi, hamı tərəfindən qəbul olunub-olunmaması müəyyənləşdirilir. Hər bir mədəni insan əsas etiket normalarına riayət etməyi başa düşməklə yanaşı, müəyyən qayda və qarşılıqlı münasibətlərin zəruriliyini də dərk etməlidir. Manera, qayda insanın daxili mədəniyyətini, onun mənəvi və intellektul keyfiyyətini əks etdirir. Özünü cəmiyyətdə yaxşı aparmağı bacarmaq çox böyük əhəmiyyət kəsb edir. Bu cür qabiliyyət sayəsində insan:

- başqaları ilə asanlıqla əlaqə yarada bilir
- qarşılıqlı anlaşmaya nail olur
- yaxşı, sabit qarşılıqlı münasibətlər yarada bilir

Belə tərbiyəli insanlar yalnız rəsmi mərasimlərdə, cəmiyyətdə deyil, evdə də, yəni gündəlik həyatda da etiket qaydalarına riayət etməklə insanlar arasında hörmət və nüfuz qazana bilir. Bütün şəraitlərdə ədəbli, qanacaqlı, mərifətli olan, ictimai qaydanı pozmayan, nə sözü ilə, nə hərəkəti ilə heç kəsi incitməyən, heç kəsin ləyaqətinə toxunmayan belə insanlarla yanaşı, rəsmi yerlərdə bir cür, evdə başqa başqa cür olan, başqalarının xətrinə dəyən ikiüzlü, kobud adamlara da təsadüf olunur. Bu isə onların mədəniyyətsizliyinə və tərbiyəsizliyinə dəlalət edir, onların ikili davranış standartları ilə yaşadığını göstərir.

Müasir vətəndaş cəmiyyətində etiket insanların məişətdə, xidmətdə, ictimai yerlərdə, küçədə, qonaqlıqlarda, müxtəlif növ rəsmi tədbirlərdə - qəbullarda, mərasimlərdə, danışıqlarda davranışını tənzimləyir. Beləliklə, etiket əsrlər boyu müxtəlif xalqların yaratdıqları ümumbəşəri mədəniyyətin, əxlaqın, insanların mənəviyyat haqqında, xeyir, ədalət, insanlıq haqqında təsəvvürlərinin, eləcə də gercəklik, qayda-qanun, məişət, məqsəd uyğunluğu haqqında maddi mədəniyyətin çox mühüm, böyük hissəsini təşkil edir.

- **Nitq etiketləri**

İnsanın etik mədəniyyətinin ən mühüm göstəricisi onun nitqidir. Cəmiyyətdə özünü təsdiq etmək istəyən hər bir insan nitq mədəniyyətini bilməli və daim öz nitqi üzərində çalışaraq onu gözəl və nəzakətli ifadələrlə tamamlamalıdır. Bu baxımdan mədəni nitqdə nitq etiketlərinin xüsusi rolu var.

Ünsiyyət zamanı müraciət, görüşmə, ayrılma, təbrik və s. formalarına (ifadələrinə) ***nitq etiketləri,*** yaxud ***nitq yarlıqları*** deyilir. Nitq etiketləri xalqın milli mədəniyyətinə, təfəkkürünə, etnoqrafiyasına uyğun olur və nitq mədəniyyətinin mühüm göstəricisi hesab edilir. Nitq etiketlərinin ətrafdakılarla düzgün münasibət yaratmaqda böyuk rolu var. Ancaq onlardan düzgün istifadə etmək lazımdır. Nəsə istəyəndə xahiş etmək lazımdır. Kimisə bilmədən incidərkən üzr istəmək lazımdır. Xeyirxahlıq, nəciblik və yaxşılıqla qarşılaşanda isə təşəkkür etmək lazımdır.

Ümümiyyətlə, həyatda nəyəsə nail olduğumuz uğurlarda nitq etiketlərinin özünəməxsus rolu var. Nitq etiketlərindən düzgün istifadə edən adamı hamı çox sevir, onu tərbiyəli hesab edir. Ətrafdakılar onun istəklərini həvəslə yerinə yetirirlər. Bu isə həm gündəlik həyatda, həm də işgüzar münasibətlərdə daha çox uğurlar qazanılmasına zəmin yaradır.



*Şəkil 4.1. Ünsiyyət zamanl etiket qaydalarının gözlənilməsi*

Nitq etiketlərinin aşağıdakı növləri var:

***1. Müraciət etiketləri:*** Həmsöhbət yaşca böyük olduqda və ya qarşı tərəfdən tanınmadığı halda ona “siz”, deyə müraciət olunur. Bu qayda bütün müraciət formalarında gözlənilir: bağışlayın, buyurun, xahiş edirəm, zəhmət olmazsa, lütfən və s. Qardaş! Bacı!

Əmi! Dayı! Əzizim! Eloğlu! Ay oğlan! Qadası! Dərdin alım! Başına dönüm! və s. kimi müraciət formaları da vardır. Müraciət etiketləri ***rəsmi*** və ***qeyri-rəsmi*** olur. Məsələn: Cənab nazir, cənab rəis ***(rəsmi),*** oğlum, əzizim ***(qeyri-rəsmi )*** və s.

***2. Görüş etiketləri:*** Salam! Salam-əleyküm! Əleyküm-salam! Xoş gördük! Sabahınız xeyir! Xoş gəlmişsiniz! və s.

***3. Ayrılma etiketləri:*** Xudahafiz! Əlvida! Salamat qalın! Sağ olun! Allah amanında! Görüşənədək! Yaxşı yol! Uğur olsun! və s.

***4. Təbrik etiketləri:*** *Təbrik edirəm! Gözünüz aydın olsun! Mübarəkdir! Mübarək olsun!* Sağlığınıza *qismət olsun! və s. (hamısının cavabında: Sağ olun!)*

***5. Alqışlar (xeyir-dualar):*** Allah köməyiniz olsun! Həmişə ayaq üstdə! Allah rəhmət eləsin!

***6. Qarğışlar (bəd dualar):*** Allah cəzanı versin! Allah evini yıxsın! Gözün tökülsün! Qapında ot bitsin!

***7. Söyüşlər:*** Səni yerə soxum! Üzünə lənət! və s.

Bəzi nitq etiketləri minilliklər boyu sabit qalmış, bəziləri də müəyyən dövrdə işlənib sonra ünsiyyətdən çıxmışdır. Məsələn, son illərə qədər fəal işlənən ***Yoldaş! Vətəndaş!*** müraciət formaları artıq qeyri-fəaldır. Ancaq son illərə qədər işlənməyən ***cənab*** sözü artıq geniş miqyasda yayılmışdır.

Nitq etiketlərindən yerli-yerində istifadə olunması ünsiyyətin normal gedişinə, anlaşmaya kömək edir, səmimi münasibət yaradır.

*4.2.1. Etiket və nəzakət qaydalarından istifadə edir.*



- **Gündəlik həyatda etiket və nəzakət qaydaları**

Bir- birinə hörmət etmədən, özünə müəyyən qadağalar qoymadan yaşamaq mümkün olmadığı qədər, bu normalara riayət etmədən heç bir siyasi, iqtisadi, mədəni münasibətlər də yaratmaq mümkünsüzdür. Etiket sözü — etika sözü ilə eyni kökdən olub, jestin gözəlliyi və başqa insanlara qarşı hörmət münasibətinə əsaslanaraq, ümumi qəbul olunmuş davranış qaydalarını özündə əks etdirir. Etiket - insanın cəmiyyət arasında davranış norma və qaydalarıdır.

Etiketin bir neçə növü vardır:

- Dövlət etiketi
- Diplomatik etiket
- Hərbi etiket
- Dini etiket
- Ümumvətəndaş etiketi

Ümumvətəndaş etiketi də öz növbəsində aşağıdakı etiketlərə bölünür:

- İşgüzar və qeyri- işgüzar
- Mərasim
- Masaarxası
- Söhbət

Etiketin ümumi qaydalarına aşağıdakıları daxil edirlər:

- İlk öncə xoş niyyətli olmaq lazımdır. Klassik qızıl qaydanı yaddan çıxarmaq olmaz: “Özünə rəva bilmədiyini başqasına rəva bilmə!”
- Yaddan çıxarmayın ki, yazılı ünsiyyətdə sərhədi keçmək şifahi ünsiyyətdəkinə nisbətən xeyli asandır. Buna görə də çox nəzakətli olmalısınız.
- Sözlərinizin arxasında durun.
- Diqqətinizi şəxslərə deyil, məzmuna yönəldin.
- Sualları qulaqardına vurmayın, kar-kor oyunu oynamayın, müraciətləri cavabsız qoymayın.
- Yanlışlarınızı etiraf etməyi bacarın, səhvlərinizi qəbul edin. Üzr istəməkdən heç zaman çəkinməyin.
- Öz qüsurlarınızı nəzarətdə saxlayın,qərəzli və qəzəbli olmayın.
- Bağışlayın və unudun.
- Tərifləməkdən usanmayın. Uğurlu istifadəçilərə daim öz təşəkkürünüzü çatdırın. Mükafatlar və ulduzlar verməkdən çəkinməyin.
- Mübahisələri başlayan heç vaxt siz olmayın və başlamasına da imkan yaratmayın. Barışıqlara və vasitəçiliklərə əl atın. Başqalarının mübahisələrində vasitəçi olun.
- Əgər mübahisənin nəticəsi sizi qane etmirsə və bir şey dəyişə bilmirsinizsə,çıxın gedin, sakitləşəndə və arqumentləriniz doğru olanda geri dönərsiniz.
- İnsanlara şəxsi hücumlar, əsassız ittihamlar etməyin, təhqirə keçməyin, qisas almayın, istifadəçiləri damğalamayın (faşist, irqçi və s.), onları kiçiltməyin, ələ salmayın.

Etiket normalarında kişi və qadının rolu müasir həyatımızda da özünü qabarıq göstərir. Məsələn:

- Küçə boyu kişi, xanımdan solda getməlidir. Sağda yalnız hərbi qulluqçular gedə bilərlər, çünki onlar yeri gəldikdə hərbi salamlaşmanı verməyə hazır olmalıdır.

- Əgər qadın büdrədisə və ya sürüşdüsə onu dirsəyindən tutmaq lazımdır. Amma adi vaxtda kişinin qadının əlindən tutmağına qadın özü qərar verməlidir.
- Qadın qarşısında kişinin siqaret çəkməsi düzgün deyil, o yalnız bunu qadından icazə qaldıqdan sonra edə bilər.
- Girişdə və çıxışda xanımı müşayiət edən kişi xanımdan əvvəl qapını açır, amma özü arxada gedir.
- Nərdivandan qalxarkən kişi öz yoldaşından 1-2 pilləkan arxada və ya nərdivandan enərkən isə 1-2 pilləkan qabaqda getməklə öz yoldaşını "sığortalamalıdır"
- Liftə girdikdə birinci kişi girməli və çıxışda isə xanım birinci çıxmalıdır .
- Maşından düşərkən birinci kişi çıxır, o nəqliyyat hərəkətini nəzərdən keçirir və maşının qapısını sərnişinlər tərəfə açmaqla qadınlara çıxmağa kömək edir. Eyni zamanda kişi özü maşını idarə edirsə və ya qabaq oturacaqda oturursa, o qapını açıb qadını dirsəyindən tumaqla ona düşməsinə kömək edir. Əgər kişi və qadın hər ikisi də taksi sərnişinidilərsə, onlar arxa oturacaqda getməlidirlər. Salondan düşərkən xanım birinci, kişi isə ondan sonra düşür.
- Müəyyən bir yerdə yerləşəndə, kişi qadına üst geyimini çıxartmağa kömək etməli, otaqdan çıxdıqda isə ona geyimini verməlidir.
- İctimai nəqliyyat sistemində əgər xanımlar ayaq üstündə dururlarsa, onda kişilər xüsusi hallar nəzərə alınmaqla (şikəstliyin olması, kişinin qadından xeyli yaşlı olması və s.) oturmamalıdırlar.
- Etik qaydalara görə kişi xanımla görüşərkən gecikməməlidir. Əksinə, xanımdan bir neçə dəqiqə əvvəl gəlməlidir, çünki onun ləngiməsi xanımı utandıra və onu pis vəziyyətdə qoya bilər. Gözlənilməz hadisələrdə xəbərdarlıq etmək və gecikməyə görə üzr istəmək lazımdır.
- İstənilən yaşda istənilən qadına böyük predmetləri və böyük çantaları aparmağa kömək etmək lazımdır. Bunlara qadının əl çantası, yüngül kürk və ya manto daxil deyil, amma əgər sağlamlıq vəziyyətləri buna mane olursa kömək etmək olar.
- Cəmiyyətdə üçüncü bir şəxslə xanım haqqında açıq danışıq qəbul edilməzdir, xüsusilə yalnız kişilərin olduğu mühitdə və ya iş yerində.
- Danışıq vaxtı kişinin əllərini sinəsində qatlaması və yaxud da əlini cibinə qoyması lazım deyil. Həmçinin əllərində müxtəlif predmetlər fırlatmaq da lazım deyil - bu həmsöhbətə hörmətsizlikdir.
- Kişi həmişə restorana birinci daxil olmalı, əsas səbəb isə – bu, ödənişin kimin edəcəyini bildirən əlamət kimi qəbul edilir. Böyük şirkətlərdə – kimdən restorana dəvət alındısa və restorana daxil oldusa, ilk ödənişi də o etməlidir. Amma əgər ziyarətçilərin girişində kişi qapıçı ilə qarşılaşırsa, onda birinci qadını içəri buraxmalıdır.
- Küçədə kişilər xanımların solunda getməlidir.
- Qadının yanında kişi yalnız onun izni ilə siqaret çəkə bilər.

- **Hər kəsin bilməli olduğu aktual etiket qaydaları**

Bəzən alicənab, tanınmış, cəmiyyətdə rəğbət qazanmış bir insan haqqında xoş sözlər deyiləndə ən yaxşı fikirlərin içində "mədəni insandır" ifadəsinə də rast gəlinir. Əslində bu nə deməkdir? İnsan elə mədəni olmalıdır. Amma həyat göstərir ki, həmişə belə olmur. Bəs kimə ***mədəni insan*** deyilir? Mədəni olmağın şərtləri çoxdur. Bu, elə bir mənəvi cəhətdir ki, onu libas kimi geyinib-soyunmaq mümkün deyil. Mədəniyyət insanın içində, varlığında olmalıdır. Böyüdüyün mühit, aldığın tərbiyə, bilik, öz qabiliyyətin, gendən gəlmə xüsusiyyətlər, dərin müşahidə, mütaliə və nəhayət, özünü cəmiyyətdə həqiqətən səliqəli

apara bilmək səriştəsi... Bütün bunlar insanın hərəkətində, danışığında, ətrafdakılara münasibətdə özünü mütləq göstərir.

- Etiket - lazım olduğu zaman yaxşı davrana bilməkdir. Əslində etiketin əsasları kifayət qədər sadədir. Bu nitq mədəniyyəti, sadə nəzakət, səliqəli xarici görünüş və öz emosiyalarını idarə etmək bacarığıdır. Bunlar həm kişi, həm də qadınlara aiddir. Hamının bilməli olduğu aktual etiket qaydalarına aşağıdakıları aid etmək olar:
- Əgər siz "Mən sizi dəvət edirəm" kəlməsini işlədirsinizsə, deməli, hesabı siz ödəməlisiniz. Amma əgər siz "Gəlin restorana gedək" kimi ifadə işlədirsinizsə, bu halda hər kəs öz yerinə ödəyir.
- Zəng etmədən qonaq getməyin.
- İctimai yerlerdə telefonunuzu süfrəyə qoymayın. Belə etməklə siz bu rabitə qurğusunun həyatınızda nə dərəcədə mühüm rol oynadığını və ərafdakıların danışdıqlarının sizə nə dərəcədə maraqsız olduğunu vurğulayırsınız.
- Əgər siz kiminləsə yol gedirsiniz və sizin yanınızdakı adam sizin tanımadığınız bir kəslə salamlaşsa, siz də salam verməlisiniz.
- Ayaqqabılar hər zaman təmiz olmalıdır.
- Həmsöhbətə ehtiyac duyduğunuz zaman telefonla boş-boş mənasız danışmaqdansa, bir-birinizlə görüşsəniz yaxşıdır.
- Əgər sizi təhqir edirlərsə, bu zaman səsinizi qaldırıb kobudluqla cavab verib onun səviyyəsinə enməyin. Gülümsəyin və tərbiyəsiz mübahisədən uzaqlaşın.
- Ətirlərdən həddindən artıq çox istifadə etmək olmaz.
- Kim olmasında asılı olmayaraq otağa ilk daxil olan salamlaşmalıdır.
- Çox bərkdən gülmək, səs-küylə danışmaq, insanları başdan ayağa süzmək olmaz.
- Bağlı qapını döymədən açmaq olmaz.
- Alış-verişdə sizə verilən salafan və kağız paketləri yalnız ərzaqların daşınması üçündür. Onların gündəlik çanta kimi istifadə etmək yolverilməzdir.

Bir- birinə hörmət etmədən, özünə müəyyən qadağalar qoymadan yaşamaq mümkün olmadığı qədər, bu normalara riayət etmədən heç bir siyasi, iqtisadi, mədəni münasibətlər yaratmaq da mümkünsüzdür.

Jestlərin, hətta necə yeriməyin və oturmağın da etiket normalarının qavranılmasında böyük təsiri var. Oturub-durma etiket qaydalarına görə insan çox yüngül yeriyib tələsməməlidir: bu, yüngüllük və yelbeyinlik kimi qəbul olunur, çox ağır yeriyib ləngiməməlidir — bu, kəsalət və tənbəllik kimi qəbul oluna bilər. Bütün hallarda həddi gözləməlidir.Yeriyəndə, çox o yana-bu yana baxılmamalı, həmişə başını aşağı salmamalıdır.



*Şəkil. 4.2. Etiket nümunəsi*

Oturarkən ayağını uzatmamalı, ayaqlarını bir-birinin üzərinə aşırmamalı, dizi üstə oturmamalıdır. Başını dizi üstə qoymamalı, əlini dayamamalıdır, bu, qəm və kədər əlamətidir. Boynunu yana əyməməli, saçı və bədənin başqa üzvü ilə oynamamalı, barmağını ağıza-burnuna soxmamalı, barmaqlarını və bədəninin başqa üzvlərini şaqqıldatmamalıdır. Bir məclisə getdikdə öz yerini bilməli, nə yuxarı, nə də aşağıda oturmamalıdır. Oturan adamın ən böyüyü odursa, seçım edə bilər, harada otursa, ora məclisin başı hesab edilər. Qərib isə öz yerində oturmasa, başa düşdükdə öz yerinə keçməlidir.

Hər birimiz cəmiyyətdə özümüzü aparmaq mədəniyyətinə riayət etməliyik. Onlardan biri də ***süfrə mədəniyyətidir***. İlk baxışda bizə sadə görünsə də, stol arxasında necə davranmağı, yemək qaydasını, əllərimizi hara qoymağı, xoşlamadığımız yemək gətirələrsə, necə münasibət bəsləməyi, bizə elə gəlir ki, bilirik. Amma müxtəlif  məclislərdə iştirak edən zaman səhvlərə yol verildikcə, anlayırıq ki, bu kimi qaydaları bilmirik. Stol arxasında özünü aparmaq bacarığı, təmkinlə yemək qaydası insanın ümumi mədəni səviyyəsini göstərir. Bunları bilmək üçün aşağıdakılara diqqət edək.



*Şəkil. 4.3 Süfrə mədəniyyəti*

Əvvəl oturuşumuza fikir verməliyik. Stulun arxasına az söykənərək düz oturmaq, stulu stola çox yaxın çəkməmək lazımdır. Stolun arxasında əyləşən zaman yaxşısı budur ki, əllərimizi dizlərimizin üstünə qoyaq. Yemək prosesində bütün hallarda dirsəkləri stola qoymaq məsləhət deyil. Çünki geniş açılmış qollarımız sizinlə yanaşı, əyləşənlərə mane ola bilər. Digər məsələlərdən biri də, yeməyə nə vaxt başlamaqdır. Məclisdəkilərə yemək paylanandan sonra, əvvəlcə ev sahibəsi yeməyə başlayır, bununla göstərir ki, digər qonaqlar da yeməyə başlaya bilərlər. Əgər məclisdə qonaq çoxdursa, hamıya xidmət edilməsini gözləmək vacib deyil. Bu zaman xörək soyuyub, öz keyfiyyətini itirə bilər. Buna görə də 3- 4 nəfərə xidmət göstəriləndən sonra ev sahibəsi onları yeməyə dəvət edir.

Müəyyən səbəbdən ev sahibəsi belə etmirsə, siz 5 - 6 adama xidmət edildiyini görüb yeməyə başlasanız səhv olmaz. Lakin etiket bunu ev sahibəsi və yanınızda əyləşən qadınlar yeməyə başlayandan sonra etməyə icazə verilir. Yeməyi ev sahibinin sağında əyləşmiş qadından başlayaraq paylayırlar. Yemək sol tərəfdən, duru xörək və içki sağ tərəfdən verilir. Ola bilər ki, əvvəllər heç vaxt dadına baxmadığınız xörək verilsin. Bu zaman baxın görün ev sahibəsi nə cür yeyir. Bu xörəyin nədən bişirildiyini və onu yemək qaydasını ev sahibəsindən soruşsanız, etiket pozulmaz.

Əlbəttə,bu qaydaların sayını artırmaq olar.Ancaq hər bir məclisdə özünü düzgün aparmaq üçün olan "Qonşunu izlə və təkrar et, öyrən" qızıl qaydasını tətbiq edərək mümkün səhvlərdən qaşmaq olar.

### *4.3.1. Gələcəkdə işləyəcəyi peşəsinə aid işgüzar etika qaydalarını təhlil edir və onlardan istifadə etməyi bacarır.*



- **İşgüzar etika nədir?**

Professional etikanın xüsusi təzahürlərindən biri də iqtisadi etikadır. Elmi ədəbiyyatda bu sahəni başqa cür "biznes etikası" və ya "işgüzar etika" da adlandırırlar. Hal-hazırda bu problemə getdikcə daha çox diqqət göstərilir.

İqtisadi etika olduqca qədim elmdir. Onun əsasını qədim yunan filosofu Aristotel özünün "Etika", "Nikomax etikası" və "Politika" əsərlərində qoymuşdur. Aristotel iqtisadiyyatı iqtisadi etikadan ayırmırdı. "Nikomaxın etikası" əsərində o, öz oğlu Nikomaxa ancaq faydalı və xeyirxah istehsalla məşğul olmağı tövsiyə edirdi. Bu prinsiplər sonralar öz inkişafını katolik və protestant teoloqların biznes etikası problemləri ətrafında apardıqları uzunmüddətli gərgin müzakirələrinin nəticəsi olan ideya və konsepsiyalarında tapdı.

Müasir günümüzdə yaxşı etika yaxşı biznes deməkdir. Biznesdə uğur qazanmış insan eyni zamanda xeyirxah insan da ola bilər və əslində əxlaqi xeyirxahlıq uğurun zəruri şərtidir.

İqtisadi etika – sahibkarın davranış normalarınn məcmusudur, mədəni cəmiyyətin onun iş stilinə, digər biznes iştirakçıları ilə ünsiyyətinin xarakterinə, onların sosial görünüşünə qoyduğu tələblərdir. İqtisadi etika – biznesmenin təcrübi ehtiyaclarına uyğunlaşdırılmış etik anlayışlar haqqında, işgüzar insanın obrazına və iş stilinə əxlaqi tələblər haqqında məlumatlardır. İqtisadi etika – partnyorlarla danışıqların aparılması, sənədlərin hazırlanması etikasıdır, rəqabətin etik metodlarından istifadə bacarığıdır.

İqtisadi etika özündə işgüzar etiketi daşıyır ki, bu etiket də konkret ölkənin tarixən mövcud olan ənənələrinin təsiri altında formalaşır. Bəs işgüzar etiket dedikdə nə başa düşülür? İşgüzar etiket – fəaliyyət üslublarını, firmalararası ünsiyyət manerasını, biznesmenin imicini və s. reqlamentləşdirən normalardır.

Sahibkarlığın etikası subyektiv istəklərlə müəyyənləşə bilməz. Onun formalaşması mürəkkəb və uzunmüddətli prosesdir. Sahibkarlığın etikasını formalaşdıran şərtlər bunlardır: siyasi və iqtisadi azadlıq, güclü icraçı hakimiyyət, qanunvericiliyin stabilliyi, təbliğat, hüquq.

Sahibkarlığın etikasının əsas amilləri aşağıdakılardır:

- Sahibkar fəaliyyətinin təkcə özü üçün deyil, həm də başqaları və bütövlükdə cəmiyyət üçün faydalı olacağından əmindir;
- Ətrafındakı insanların işləmək arzusu və bacarığından çıxış edir;

- Biznesə inanır və onu cəlbedici yaradıcılıq kimi qiymətləndirir;
- Rəqabətin zəruriliyini qəbul edir, həmçinin əməkdaşlığın da zəruriliyini başa düşür;
- Hər cür mülkiyyətə, ictimai fəaliyyətə hörmət edir, peşəkarlığa və kompetentliyə, qanunlara ehtiram göstərir, təhsilə, elmə və texnikaya dəyər verir.

İşgüzar insanın etikasının bu prinsipləri onun peşəkar fəaliyyətinin müxtəlif sahələrinə tətbiq edilə bilər. Peşə ilə əlaqədar olan etika fəaliyyətin bəzi növü üçün xarakterik olan tələbləri, normaları təklif edir. Peşə etikası davranış qanunudur. O, bu və ya digər peşə sahəsində xidməti öhdəliklər icra edən işçilərin münasibətlərini müəyyən edir.

Hər hansı bir peşədə olan ünsiyyət müvafiqixtisaslaşmış etik norma və standartlardan keçməlidir. Hansı ki onun mənimsənilməsi bir sıra proseslərdən asılıdır. Onu iki qrupa bölmək olar:

1. Şəxsiyyətin anadan olandan mənimsədiyi etik anlayış, məlumat kompleksi, fikirlər, xeyir və şər anlayışları.
2. Təşkilatın daxili nizam-intizam qaydaları, firmaların etik kodeksləri, rəhbərliyini şifahi göstərişləri, peşə ilə əlaqədar etik indekslər, normalar, standartlar aiddir.

İşgüzar əlaqələrdə etikanı təmsil edən norma və prinsiplərə aiddir:

- özünə qarşı münasibətlərdə arxayın etmədiyin davranışı tabeliyində olanlara, rəhbərliyə imkan verməmək.
- xidməti fəaliyyətində lazım olmayan əməkdaşlar arasında ədalətli paylanma.
- Kimin və nə vaxt etdiyindən asılı olmayarq etikanın pozulması hallarının aradan qalxması.
- Əməkdaşın xidməti davranışı və fəaliyyəti o zaman etik kimi tanınır ki, mənəviyyat nöqteyi-nəzərindən təşkilatın fəaliyyətinə, təşkilatın inkişafına səbəb olur.
- Əməkdaş və təşkilatın qarşılıqlı fəaliyyəti o zaman etik kimi qəbul olunur ki, etik normaların pozmasın.
- Təşkilatda çalışan əməkdaşların digər təşkilatlarda, region və ölkələrdə yerli olan mənəvi əsasl ara, adətlərə dözümlü münasibəti etik sayılır.
- Fərdi və etik xüsusiyyətləri ümumbəşəri etika tələbləri ilə uyğunlaşmalıdır.
- İşgüzar münasibətlərdə aparılan işlər və qəbul edilən qərarlar zamanı fərdi və kollektiv fikir əsas kimi götürülür.
- Hər hansı xidməti məsələlərdə şəxsi fikir söyləməkdən çəkinmək olmaz.
- Müxtəlif formalarda ifadə olunan zorakılığa yol vermək olmaz.
- Etik standartlar təşkilatın həyatına əmrlə yox, mütəmadi göstərilən səylər nəticəsində tətbiq o lunmalıdır.
- Hər hansı bir təsir edərkən mümkün olan qarşıdurmanı nəzərə almaq vacibdir.
- Əməkdaşın məsuliyyəti, onun səriştəsi, borcunun yerinə yetirməsi dəyərlidir.
- Digərlərinin sərbəstliyinə məhdudiyyət qoyulmalıdır.
- Əməkdaş özü etik davrandığı kimi digərlərinin də etik davranmasına çalışmalıdır.
- Rəqibini tənqid etmək olmaz.

İşgüzar münasibətlər etikasının prinsipləri hər bir əməkdaşa şəxsi etik sisteminin işlənməsi üçün əsas olmalıdır. Şəxsi etik normalar mövcud ictimai inkişaf səviyyəsinə məxsus prinsiplərə əsaslanmalıdır.

Azərbaycan Resbublikası üçün iqtisadi etikanın problemləri bazar iqtisadiyyatına keçid dövründə xüsusi məna kəsb etdi. Bunun səbəbi ölkəmizdə bazar münasibətlərinin yüksələn templə formalaşmasıdır. Əvvəlki dövrlərlə müqayisədə ciddi fərqlər diqqəti cəlb edir.
Məsələn, ticarət sahəsindəki xidmətə nəzər salsaq, görərik ki, əvvəllər mövcud olan "Alıcı hər zaman haqlıdır" şüarı sadəcə formal xarakter daşıyırdısa, hal-hazırda biz bunun doğrulmasının real şahidiyik. Təbii ki, istənilən sahədə olduğu kimi burada da problemlər yox deyil, amma bu gün iri marketlər şəbəkələri, mağazalar müştərilərə yüksək xidmətin göstərilməsi baxımından bir-biri ilə ciddi rəqabətdədir. Qeyd etmək lazımdır ki, gündəlik həyatımızda hər gün daha güləriz, səliqəli geyimli və hər an müştərinin köməyinə hazır personalın, satıcıların xidməti ilə qarşılaşmaq bu sferanın inkişafında

ümidverici məqamlar kimi qiymətləndirilə bilər. Bütün bunlar ölkəmizdə iqtisadi etikanın yüksələn inkişafının müjdəçisidir.

- **İş həyatında etiket və nəzakət qaydaları**

Müasir vətəndaş cəmiyyəti və dövlət quruculuğu prosesində mədəniyyətlərin qarşılıqlı əlaqəsi, qarşılıqlı təsiri və zənginləşməsi dövründə peşə etikasının, etiketinin və davranış mədəniyyətinin rolu artır və bu problem daha da aktuallaşır. Etika elminin bir sahəsi olan peşə etikası və etiket nisbətən sonrakı dövrlərdə meydana gəlmişdir. Peşə etikası əxlaqi tələblər, ictimai əmək bölgüsü və peşələrin təşəkkülünün qarşılıqlı əlaqəsini öyrənən nəzəri və tətbiqi problem kimi təzahür etmişdir. Məsələn, "Hippokratın andı" ən qədim etik kodekslərdən biridir. Məlum olduğu kimi, indiyədək Qərbdə, Şərqdə, MDB ölkələrində, Rusiyada, o cümlədən Azərbaycanda peşə etikasının müxtəlif sahələrinə aid məlumatlara təsadüf olunur. Bütün Qərb ölkələrində etiketə dair ensiklopediyalara belə rast gəlindiyi halda, bu problem Azərbaycanda sistemli və müfəssəl şəkildə işlənməmişdir. Məlumdur ki, etiket etik normalarla sıx bağlıdır. "Etiket" normaları mənəvi keyfiyyətin yalnız bir parametridir. Onun ədalətlilik, sadə niyyətlilik, təmizlik, nəfs toxluğu kimi cəhətləri var ki, bunların - bütün şəxslər tərəfindən yerinə yetirilməsinə böyük ehtiyac var.

Cəmiyyətimizdə bir çox peşə sahələri var ki,onlara aid etik davranış normalarının yüz illərlə yaşı var. Məsələn, tibb sahəsində tətbiq olunan "Hippokratın andı" ən qədim etik kodekslərdən biridir. Müasir dövrdə bu etik qaydalar cəmiyyətdə formalaşan yeni etik normalar hesabına daha da genişləndirilmişdir. Məsələn, tibbi etikanın çərçivəsini təşkil edən 4 prinsip Tom Böşamp (Tom Beauchamp) və Ceyms Çayldressin (James Childress) “Biomedikal etikanın prinsipləri” kitabında təsvir edilibdir.Bunlar:

- **Azadlığa hörmət prinsipi:** xəstə müalicə metodunu seçmə və ondan imtina haqqına sahibdir.
- **Mənfəət prinsipi:** xidmət verən həkim xəstənin mənfəətinə uyğun davranmalıdır.
- **Xəsarət verməmək prinsipi:** xəstəyə yardım etməklə bərabər ona əlavə xəsarət verməkdən çəkinmək.
- **Ədalət prinsipi:** hər kəsə əlçatan ilkin tibbi xidmət təşkili, eləcə də tibii xidmət alacaq insanın qərarına hörmət.

Bunlardan başqa tibbi xidmətin detalları aydın izah edilməlidir. **Hər** tibbi prosedurun Hekayəsi - Müayinəsi - Laborator təhlilləri və ya görüntüləmə metodları ilə incələnməsi mövcuddur. Axırıncı maddə bəzən əksik ola bilər, amma ilk ikisi mütləq olmalıdır. Xəstə şikayətlərini, əlbəttə, özü ifadə edir. Amma o şikayətləri sinifləndirmək, sahmana salmaq həkimin məsuliyyətində olan məsələdir. Müraciət etdiyiniz həkim sizin şikayətlərini sinifləndirərək qısa icmal şəklində sizinlə razılaşdırmalıdır. Məsələn: “Demək, sizin 4 gündür sağ böyrünüzdən sancı şəklində ağrılar başlayır və siz, bu zaman ərzində iki dəfə ağrıkəsici dərman içərək qismən ağrının qarşısını ala bilmişsiniz”. Həkim apardığı müayinələri tək-tək xəstəyə izah etməlidir. Məsələn: “İndi sizin böyrünüzə yumruğumla ehmallıca vuracağam. Rahat olun, sizi şiddətli ağrıya məruz qoymaq niyyətim yoxdur. Bu proseduru kifayət qədər ehtiyatla icra etməyə çalışacağam.”

Həkim hansı müayinə metodlarını istədiyini və bununla hansı nəticələrə gələcəyini sizə əvvəlcədən izah etməlidir. Məsələn: “Bu vəziyyətdə biz, sizdə qarın boşluğunun ultrasəs müayinəsi ilə sidik axarında daş axtarmağa çalışacağıq. Ümumi sidik təhlili də ayrıca bizə problemin sidik sistemindən hansı dərəcədə qaynaqlandığını göstərmək üçün faydalı olacaqdır.” Müraciət etdiyiniz həkim mütləq bu sırada sizə aydın izahat verməlidir. Belə məlumatlandırma zamanı anlaşılması çətin olan tibbi terminlərdən istifadə etmək olmaz. Təbabətdə sadə dillə izah edilə bilməyəcək müayinə metodu və ya hər hansı bir anlayış mövcud deyildir.

Problemin özü, proqnoz və diaqnoz da aydın izah edilməlidir**.** Xəstəyə aparılan müayinələr yardımı ilə müəyyən bir nəticəyə gəlinir. Biz, buna diaqnoz deyirik. Bax, bu diaqnoz daha sadə, tibbi terminlərdən istifadə edilmədən xəstəyə izah edilməlidir. Bu sırada, diaqnozun nə qədər etibarlı olduğu faktı da bildirilməlidir.

Məsələn: “Sizə aparılan ultrasəs müayinəsi sırasında sol sidik axarının orta hissəsində 6 mm-lik daşa bənzər kölgə gördük. Biz, bu məlumata təqribən 65% ehtimalla etibar edirik. Məsələnin çox ciddi olduğunu düşünmədiyimiz üçün sizə hələlik başqa müayinə məsləhət görmürük”.
Yuxarıda sadalanan bütün hallar kağıza yazılaraq imzalanmalıdır.

Bütün həkim-xəstə söhbətlərinin protokollaşdırılması, sonunda isə yazılı şəkildə xəstəyə təqdim edilməsi vacibdir. Həkimin sizə şifahi olaraq bildirdiyi məlumatın heç bir əhəmiyyəti yoxdur. Fikir yazılı olaraq da bildirilməlidir. Fikir mütləq aydın, hər kəsin anlayacağı şəkildə yazılmalıdır.

Tibbi xidmətdən narazılıq hər zaman olmuşdur, yenə də olacaqdır. Ancaq hər hadisənin mədəni çərçivəsi, davranış qaydaları, etikası vardır. Bunları yerinə yetirmək üçün tibbi etikanı daim öyrənmək və əməl etmək lazımdır.

Etika əxlaqi davranış modellərini və onun səciyyəvi xüsusiyyətlərinin təsvir və izah edilməsi məsələlərini öyrənir. Ekikanın məqsədi əxlaqın və onun ayrılmaz hissələri olan yaxşılıq, pislik, müdriklik, xoşbəxtlik, əxlaqlışəxsiyyət, şərəfli həyat və s. bu kimi məfhumları izah və şərh etmək, qısacası əxlaq nəzəriyyəsini qura bilməkdir. Bu çərçivədə peşə əxlaqı insanların öz peşələrini icra edərkən davranışlarına istiqamət verən, onlara rəhbərlik edən qaydalar, standartlar və tezislərin cəmidir. Hər hansı bir peşənin etik tezisləri və qaydaları həmin peşə mənsublarının daxil olduğu qruplar, dərnəklər, həmkar ittifaqları, qeyri-hökumət təşkilatları və media qurumları tərəfindən müəyyən edilə bilər. Peşə etikası baxımından hər hansı bir davranışın qeyri-etik olub-olmadığına dair aşağıdakı sualların həmin peşə mənsubları tərəfindən cavablandırılması, sözü gedən davranışın etikaya uyğun olub olmaması barədə insanlarda ümumi bir təsəvvür yarada bilər. Bu sualları belə sıralaya bilərik:

- Bu davranışım doğru, ədalətli və qanunidirmi?
- Gördüyüm iş şəxsi işim olsaydı eyni cür davranardımmı?
- Bu davranışım haqqında həyat yoldaşım, doslarım və yaxınlarıma rahat birşəkildə danışa bilərəmmi?
- Bu davranışımla kimlərə və necə haqsızlıq etmiş oluram?
- Bu davranışım meydana çıxdığı vaxt ehtiram və etibarımı itirə bilərəmmi?
- Bu davranışım digər bir həmkarım tərəfindən edilsəydi, mənim buna münasibətim necə olardı?

Yuxarıda qeyd olunanlara nümunə olaraq xidmət sahəsi işçilərinin peşəkar davranış qaydalarına nəzər salaq:

Xidmət sahələri işçilərinin insanlarla bağlı işində mənəvi məsuliyyəti əhəmiyyətli dərəcədə çoxdur. Bu zaman onların əməyindən, onlarla ünsiyyətdə olan insanların əhval-ruhiyyəsi, sağlamlığı asılı olur. Onlardan təkcə yüksək ixtisas artırma deyil, həm də insanların qarşısında mənəvi borclarının dərindən dərk edilməsi tələb olunur.

Belə peşələrə həkim,jurnalist və s. xidmət sahələri işçilərinin peşələri aiddir. Xidmət sahələri işçilərinin peşə etikası müştərilərə xidmət göstərmək
üzrə onlar tərəfindən peşəkar vəzifələrinin həyata keçirilməsi zamanı ədəb qaydalarının xüsusi tələb və normalarının məcmusudur.

Peşə etikasının məqsədi işçilərdə öz peşəkar borclarının və şərəflərinin dərk edilməsini formalaşd ırmaq, həm müştərilərlə, həm də iş yoldaşları ilə ünsiyyət mədəniyyəti qaydalarını onlara öyrətməkdir. O, işçiləri öz fəaliyyətində ədəb qaydaları mümkünlərinə istiqamətlənməyə çağırır.

Peşə etikası tələblərinə riayət etmək vərdişini fərqləndirən işçi ilk vaxtlarda özünün
hər bir addımına nəzarət etməlidir.
Xidmət sahəsi işçilərinin peşə etikasına tələblər xüsusi sənəddə qeyd olunur. Bu kodeksin əsas qanunları konkret olaraq belə olur:

1. Hər bir müştəri hiss etməlidir ki, müəssisədə ona həqiqətən də şaddırlar.
2. Hər bir müştəri potensial sifarişçidir.
3. Səmimi nəzər, gülüş, işgüzar davranışla birgə dostluq əlaqəsi yaradır və xidməti asanlaşdırır.
4. Sifarişçini olduğu kimi qəbul edir, onlarla bir neçə dəqiqə unsiyyətdə olduğu müddətdə dəyişməyə çalışmayın. Nəzakətli olun.
5. İşçinin dəqiqliyi müştərinin, müəssisənin mənəvi psixoloji iqliminin əsas şərtlərindəndir.

6. Laqeydlik, saymazyanalıqla yanaşı insan psixologiyasını sarsıdır, darıxdırır, qəddar edir. Laqeyd olmayın.
7. Özünüzün hisslərinizi cilovlamağı bacarın,səbr və dözüm göstərin, əsəbləşməyin.
8. Kobudluğa hövsələ ilə cavab verin.
9. Müştərilərin etiraz və iddialarını diqqətsiz qoymayın.
10. Səmimi və vaxtında üzr istəmək alçalmağın deyil, müəyyən günahın etiraf edilməsidir. Bu mədəniyyət əlamətidir.
11. İşçinin hər bir hərəkəti əsaslanmadı və müştəridə onun düzgünlüyü haqda şübhə oyatmamalıdır.
12. Sifarişçinin gəldiyi vaxta uyğun hərəkət edin.
13. Düz dayanın,başınızı aşağı salmayın, xüsusilə müştərilə söhbətdə
14. Siz müştəriyə qarşı saymazyana fikir söyləmək hüququna malik deyilsiniz.
15. Müştəri və yoldaşlarınızın şərəfini qoruyun.

Göründüyü kimi xidmət sahəsi işçilərinin peşə etikası normalarını genişləndirmək olar. Lakin unutmamalıyıq ki, xidmət sahəsi işçinin sosial rolu bu və ya digər xidmət müəssəsində qəbul olunmuş müəyyən davranış qaydalarının toplusudur.

- **İşgüzar kişi və qadının görünüşü, geyim tərzi**

Hər bir işgüzar insanın biznesdə uğuru bir çox faktorlardan asılıdır. Onun səriştəsindən, peşəkarlığından, təcrübəsindən, biliyindən və s. asılıdır.

Onlardan bəziləri istənilən nəticəyə birbaşa və bilavasitə təsir edir. İkinci dərəcəli faktorlar işgüzar insanın xarici görünüşü və geyim tərzidir. Bu faktorlar işgüzar əlaqələrin affektivliyinə, kontaktların müvəfəqiyyətinə, lazımi işgüzar atmosferin yaranmasına imkan yaradır. Servis işçilərinin estetik mədəniyyəti onların yüksək səviyyəli xidmət mədəniyyətindən xəbər verir. Hər bir peşəkar qrupa aid olan insanların özlərinin yazılmamış hərəkət tərzi,davranış forması mövc uddur. İşgüzar insanlara da aid geyim və hərəkət tərzi vardır. İşgüzar kişinin geyim tərzi aşağıdakılarla səciyyələnir:

- Mülayimlik - rəng seçimində kəskin kontrast rənglərə yol verməmək.
- Səliqəlilik - səliqəsiz, əyri bağlanmış yaylıq və ya qalstuk, çirkli ayaqqabı insan haqda mənfi fikir oyadır, bu həm ətrafdakılara hörmətsizlikdir. Qərb işgüzar aləmi tələb edir ki, hər hansı bir kontrakt bağlayarkən tərəf müqabilinin geyimi və hərəkət tərzinə fikir verilsin. Ən kiçik bir detal: qırılmış düymə, əzik yaylıq danışıqlara mənfi təsir göstərə bilər.
- İşgüzar kişi özünə əmin olmalı, mötəbər etibarlı, zövqlü və namuslu və səliqəli olmalıdır.
- İşgüzar kişinin əsas geyim növü üçlük kostyum olmalıdır.

Pencəyin uzunluğu uzadılmış əlin başbarmağının birinci oynağına kimi olmalıdır, qolunun uzunluğu isə biləyə qədər olmamalıdır. Tünd göy rəng daha ciddi və rəsmi hesab olunur, tünd göy kostyumu müxtəlif köynək və qalstuklarla bir neçə dəfə geyinmək olar. Boz rəng daha yumşaq təsir bağışlayır, belə kostyumda kişi daha xoş səmimi, mehriban görünür. İşgüzar qəbul,dəfn mərasimlərində qara rəng mütləqdir. Yaşıl, tünd zoğalı, şabalıdı kostyumlar işgüzar qəbullarda istisna olunur. İşgüzar etiketdə zolaqlar enli, kəskin və kontrast olmamalıdır. Geyimdə rəngi parçanın fakturasını seçmək böyük bir zövq tələb edir. İşgüzar kişinin kostyumda idman üslubuna yol verilmir. Vilvetdən, dəridən kostyumlara yol verilmir. Pencəklərin yaxası bağlı olmalı, sadəcə ən aşağı düyüm açıq ola bilər. Əgər iki sıralı kostyumdursa, bütün düymələri bağlanmamalıdır. Kostyumlar da dəbə uyğun olmalıdır. Qalstuk pencək və köynəyin rənginə uyğun seçilməli, onun uzunluğu kəmərin bağlanmış hissəsini örtməlidir. Ondan qısa və uzun olmamalıdır. İşgüzar kişinin dəsmalı səliqəli olmalı, rəng uyumuna fikir verilməlidir. Onun cibində 2 ədəd açıq rəngli dəsmal olmalıdır. Ayaqqabı ancaq qara rəngdə deyil, yay aylarında boz kostyuma şabalıdı rəng ayaqqabı da uyğun ola bilər, lakın ayaqqabıda ancaq qaytan ola bilər. Əl ilə toxunmuş xilit, şərf, papaq olmaz.

Palto parçadan, çətir qara olmalıdır. Pul qabı, eynək qabı dəst olmalıdır. Onun qarderobunda ən azı üç dəst kostyum olmalıdır. Paltar hər gün dəyişilməlidir. Ətir elə vurulmalıdır ki, o yalnız təmas vaxtı hiss olunsun. Qol saatı və ya sadə bir üzük olar, amma bahalı firmalardan olmamalıdır.

- **İşgüzar qəbullarda etiket qaydaları**

Hər bir qəbul mühüm siyasi tədbirdir. Qəbullara "yeyib-içmək" üçün gəlməyi düşünənlər çox böyük səhv edirlər. İşgüzar aləm üçün də qəbullar birmənalı iş deyildir. Beynəlxalq protokol təcrübəsində, o cümlədən bizdə də qəbullar ifrata varmadan mümkün qədər sadə keçirilir. Qəbullarda "şərabın çay kimi axdığı, qonşunun qonşunu itirdiyi" vaxtlar çoxdan
İşgüzar qəbullar dedikdə qonaq qəbul edən təşkilatın və qonaq qismində iştirak edən təşkilatın ciddi vəzifəsi başa düşülür. İşgüzar qəbulların, danışıqların əsas məqsədi saziş əldə etməkdir.
İşgüzar qəbulların yarı rəsmi mühiti iştirakçıların faydalı danışıqların kontraktların bağlanmasına i mkan yaradır. İqtisadi və mailliyə mövqeyindən fikir və baxışların mübadiləsi, işgüzar insanların davranışları, hərəkətləri müşahidə olunur. Bəzi hallarda ayrı-ayrı təşkilatın firmalar razılığa gəlirlər, danışıqlarını dayandırmaq istəmirlər.
Belə hallarda işgüzar görüşlərin keçirilməsi danışıqları asanlaşdırır.
İşgüzar qəbullar başqa məqsədlə də keçirilir. Bu firmaların yubileylərin keçirilməsi, onların fəaliyyət sahələrinin genişləndirilməsi və s.
Tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli şərait yaratmaq məqsədilə sərgilərdə, yarmarkalarında işgüzar qəbullar təşkil olunur. Qeyd etmək lazımdır ki, dəvət olunan menecer ilk növbədə fikrini maraqlandıran insanlarla ünsiyyət qurmalı, onların adəti ilə yaxından tanış olmalıdır. İşgüzar qəbulları təşkil edən firmanın üzərinə çox böyük məsuliyyət düşür. Bir qrup xüsusi olaraq qonaqların çoxsaylı görüşlərini, söhbətlərini təşkil etməli, bu əks halda qonaqlarda mənfi fikir yarana bilər.
İşgüzar qəbullar belə təsniflənir:

- ✓ Oturaq qəbullar
- ✓ Ayaqüstü qəbullar (oturaq yerləri istisna olmaqla)

***İşgüzar səhər yeməyi*** başlanğıcı $08^{15}$-dən $09^{00}$-a kimi, müddəti yarım saat, alkoqollu içkilər təklif olunmur,iştirakçıların sayı 5 nəfərə qədər ola bilər. Həyat yoldaşları dəvət olunmur. Bu qəbul karta qənaət məqsədi ilə keçirilir.

***Axşam qəbulu növündə*** iştirak halında qoyulan qab dəstlərində sol əldə boşqabı, sağ əldə çəngəli tuturlar. İştirak geyimi adi gündəlik kostyumudur. Bu qəbul növünün başlanğıcı $17^{00}$-dır. Müddəti 2,5-3 saat olur. Bu qəbul növündə ofisiantlar tərəfindən içkilər soyuq və isti ,yeməklərdən isə soyuq yemək təklif olunur, istənilən içkini bufetdən sifariş etmək olar.

***Kokteyl*** - bu qəbulda $17^{00-}$ da keçirilir, müddəti 1,5-2 saat da bilər. Bu qəbul növündə də geyim tünd rəngli işgüzar kostyum tələb olunur,qadınlar üçün daha bərbəzəkli, geyim tələb olunur.

***Bufet*** - nahar qəbulu növündə $18^{00}$-$20^{00}$ radələrində olur. 2,5-3 saat davam edir. Təklif olunan və priborlar böyük sayda qoyulur, oturaq keçirilir, dəvət olunanlar istənilən xörəkləri seçir və istədiyi masada əyləşir. Stollar adətən 4-6 nəfərlik olur.

***Nahar*** qəbulların ən təntənəli hesab olunur.
Buraya ən hörmətli qonaqlar öz həyat yoldaşları ilə birgə dəvət olunurlar. Geyim daha təntənəli olmalıdır.

Qəbullarla bağlı ***dəvətnamələr*** adətən nəşriyyatda çap olunur, əlavə məlumatlar məsələn, adı, soyadı, atasının adı, əllə yazıla bilər. Dəvətnamələrdə yollanma tarixi yazılar və imzalanır. İlk sətirlərdə hansı təşkilata tərəfindən və qəbulun məqsədi haqda məlumat verilir. Bəzi vaxt dəvətnamələrdə dəvət edilənlərin adları qeyd olunmur. Siyahıda olan əməkdaşlar banketə daxil olanda

şəxsiyyətlərini təsdiq edən sənədi gözətçilərə təqdim edirlər. Firmanın əsas şəbəkələrinə isə şəxsi dəvətnamələr göndərilir. Dəvətnamənin II sətrində keçirilən qəbulun növü qeyd edilir və harada, nə vaxt keçırılməsi qeyd olunur. Əgər bu qəbul növü səhər yeməyi, bir qədəh şampan, şərab bakalı kokteyidirsə, onda qəbulun başlanması və qurtarması qeyd edilməlidir. Məs: 12-00-13-50 kimi. Dəvətnamələrdə belə bir xahiş qeyd edilir. Fransa hərflərilə R.S.V.P-xahiş edirik cavab verəsiniz. "Buna cavab sutka ərzində olmalıdır. Bunu telefonda və faksla etmək olar. Rəyi isə yazılır və ya qeyd olunur. Dəvətnamələr, vizit kartları keyfiyyətli ağ kağızda çap olunmalıdır.

İşgüzar sahədə ***salamlaşmaq***, ***hədiyyə*** və suvenirlər də mühüm əhəmiyyət daşıyır. İnsanlar ictimai yerlərdə görüşərkən bir-birini salamlayırlar. Ədəb qaydalarına uyğun olaraq ilk öncə kişi qadına, gecikən gözləyənə, kiçik böyüyə keçən dayanana salam verir. Otağa daxil olan otaqdakı yeni həmkarını sizə təqdim edir. Təqdimdə adətən boş sözlərlə söhbətləşirlər. Bəzən elə olur ki, təqdim edənə ehtiyac olmur. Hər hansı bir tədbirdə kiminlə isə tanış olmaq lazımdırsa sadəcə yaxınlaşıb "icazə verin sizinlə tanış olaq" demək və vizit kartlarını bir-birinə vermək kifayətdir. Tanış olmadığın şəxslə həmsöhbət olursunuz və qərara gəlirsiniz ki, onunla tanış ola bilərsiniz, belə olan halda ona əl uzadıb adınızı deyir, vizit kartınızı təqdim edirsininiz.

1) İşgüzar etiketdə şəxsi əlaqələr zamanı ad və soyadı (titulsuz) deyərək müraciət edilir. Yazılı işgüzar ünsiyyətdə isə müraciət edərək titulları göstərmək mütləq hesab olunur. Titul (fəxri ad,rütbə)cəmiyyət və xidmət sahəsində insanın mövqeyini əks etdirir.
   **Vəzifə ilə bağlı titullar** cənab nazir, cənab prezident, cənab rektor və s. Elmi adlarla bağlı titullar, elmi adlar (dosent, professor) müvafiq sənədlərə uyğun olaraq ömürlük verilir. Daşıdığı vəzifəyə baxmayaraq əgər əməkdaşın professor adı varsa, "Cənab Professor" titulundan istifadə olunur.
2) Kurtuaz (nəzakətli) titulu ilə kral ailələrini çağırardılar. Bu sadalanan titullardan istifadə etmək mütləq deyil. Bir çox ölkələr bu titullar istifadə olunmur. Kurtitullar hazırda roma katoliq kilsəsinə münasib olanlara ikstifadə olunur: əlahəzrət, zat aliləri titullarla müraciət hörmət mənasını bildirir. İşgüzar yanaşmalarda titullar mütləqdir.Müraciət edərkən cənab nazir,cənab baş rektor yazılır. Qısa yazılışa icazə verilmir.

**Anonim (adsız) titullar**. Elmi adlardan, vəzifə ilə bağlı titullardan istifadə olunmamasıdır. Hazırda Almaniyada "herr" "fraun", ingilis dilli ölkələrdə "mister, missiz, miss", fransız dilli ölkələrdə "müsyö, madam, madmazel" deyilir. Bir-biri ilə tanış olmayan insanlar arasında anonim titullardan istifadə olunur.

İşgüzar təcrübədə hədiyyə və suvenirlər vermək lazımdır. Bu əlaqələri yaxşılaşdırır və xeyirxah münasibətləri nümayiş etdirir. Hədiyyə vermək özü məharət tələb edir. Bu insanın daxili mədəniyyətini göstərir. Hədiyyə bağışlanan paya deyilir. Suvenir hər hansı bir hadisəni xatırladır. Hədiyyəni əməkdaşlar bir-birinə, rəhbər-katibəyə, firma firma əməkdaşlarına, firma-firmaya verə bilər. İşgüzar təcrübədə aşağıdakı səbəblərə görə hədiyyə verilir:

- əməkdaşın yubileyi.
- firmanın yubileyi.
- əhəmiyyətli tarixlə bağlı olan hallarda.
- toy, diplom alma, yeni evə köçmə və s.

İşgüzar sahədə hədiyyə məqsədilə qeydiyyat kitabçası, gündəlik, işgüzar təqvimlər, alışqanlar və s. istifadə olunur. Əməkdaşların marağını nəzərə alaraq müxtəlif məzmunlu kitablar və məşhur rəssamların tabloları olan kitablar da hədiyyə oluna bilər. Qadınlara spirtli içkilər hədiyyə verilmir.

- **Rəhbər işçi etiketi**

Rəhbər və işçi münasibətləri işgüzar etiketdə mühüm amillərdən biridir. Rəhbər müəssəyə daxil olarkən işçilərlə birinci salamlaşırsa, işçilər ona minnətdarlıq hissi ilə yanaşırlar. Bu da işin gedişinə müsbət təsir edir. Əgər rəhbər öz iş otağındadırsa, otağa daxil olan qonağı ayağa durmaqla qarşılamalıdır. Yaşından, cinsindən asılı olmayaraq o, qonağa birinci əl uzatmalıdır.

Stolun üstündən əl uzatmaq düzgün hesab edilmir. Rəhbər işçi qonağa oturmaq üçün yer təklif edir. Hörmətli yer üzbəüz və ya pəncərəyə sarı hesab edilir. Rəhbər üzü qapıya sarı oturmalı, içəri daxil olanı görməlidir. Qadına yer göstərmək düzgün deyil, o yeri seçib əyləşir. Bu adətən arxası pəncərəyə sarı olur. Belə halda kabinetin sahibi: "Bəyəndiyiniz yerdə əyləşin," - deyə bilər. Söhbət qısa və dərin olmalıdır. Söhbət zamanı rəhbərdən tələb olunur ki, fikirləri etik qaydalarına uyğun tərzdə olmalı və müsahibə qulaq asmağı bacarmalı, tabeliyində olanların sözünü kəsməməlidir, əməkdaşlardan da təxminən eyni tələblər gözlənilir. Hansısa əməkdaşla söhbət aparılarsa, başqaları söhbətə müdaxilə etməməli, yalnız rəhbər xahiş edərsə və ya icazə verərsə, söhbətdə iştirak edə bilərlər. Rəhbər işçi otaqda olanlara çay, kofe və şirə təklif edə bilər. Adətən söhbətdən bir neçə dəqiqə sonra bunlar təklif oluna bilər. İçkilər əvvəl qadına, sonra kişiyə və nəhayət, kabinet sahibinə təklif edilir. Əgər belə təklif etmək çətindirsə, bu zaman stola məcməidə qoyulur. Rəhbəri işçi bütün əməkdaşlara eyni münasibət bəsləməlidir. Əgər hər hansı əməkdaşın üstündə işdə nöqsan baş verərsə, rəhbər işçi səbr nümayiş etdirməli və kollektivi də belə münasibətlərə yönəltməlidir. Rəhbər işçi işgüzar münasibətlərə təyin edilən vaxt başlamalı və işçilərə hörmət bəsləməlidir.

Müşavirələr işgüzar şəraitdə keçməlidir. Qol saatını çıxarıb masanın üstünə qoymaq olar. Müşavirəyə gecikməməli və belə olarsa, üzrlü səbəbi olmalıdır. Səbəb ancaq müşavirədən sonra anlaşıla bilər. Rəhbər bilməlidir ki, kabinetdə olanlar nəinki öz xidməti funksiyasını yerinə yetirir, həm də işin keyfiyyət haqqında fiziki marağı olan şəxsiyyətdir. Rəhbər işçisi öz tabeliyində olanlara hörmətlə yanaşmalı, özünə qarşı tam inam yaratmalıdır. Rəhbər işçisinin etik davranışı, tərbiyəsi, hərəkət tərzi həmişə göz qabağında olur. Rəhbər özünü necə aparırsa, tabeliyin də olanlarda özlərini elə aparır. Təcrübə göstərir ki, əgər hər hansı bir əməkdaşın şəxsi davranış tərzi varsa, bir müddətdən sonra o öz şəxsi normalarından əl çəkib bir növ özünü rəhbərə oxşadır. Rəhbər işçi müəssisədə özünü necə aparırsa, davranırsa, işgüzar etiketdə riayət edirsə, bir o qədər də onun rəhbərlik etdiyi müəssisə haqda yüksək fikir yaranır. Cüzi bir nöqsan onun və onun rəhbərlik etdiyi müəssisə haqda mənfi fikir oyadır.

Həm rəhbərlik, həm də onun tabeliyində olanlar protokol qaydalarına uyğun olaraq öz xarici görünüşünə də fikir verməlidirlər. Geyim, hərəkət, davranış nöqsansız olmalıdır. Rəhbər müəssisə birinci .əxs olduğundan bu, ona bahalı aksesuarlardan istifadə etmək, ətriyyatdan mümkün qədər istifadə etməkdə əzmli və cəsarətli olmaq imkanı verir.

Rəhbər işçi kütləvi informasiya vasitələri nümayəndələri ilə də ünsiyyəti səviyyəsinə nəzarət etməlidir, jurnalistlərə müsahibə verdikdə suallarını cavablarına diqqət verməli, etik qaydalara riayyət etməlidir. Ədəbsiz və kobud sözlərdən qaçmalıdır. Beləliklə, rəhbər birinci növbədə öz üzərində işləməli, hər hərəkətinə nəzarət etməlidir.

### *Tələbələr üçün fəaliyyətlər*

- Rollu oyun vasitəsi ilə vəzifəsinə görə sizin tabeçılıyınızdə olan həmkarınızla hər hansı bir peşəkar ünsiyyət situasiyasını təsvir edin və bu zaman:
  - Həmkarınızın fikrini dəstəkləyən cümlələrdən
  - Onun nə istədiyini aydınlaşdırmaq üçün verilən sual cümlələrindən
  - Ona cavab verərkən arqument və faktlardan istifadə edin.
- Peşənizlə bağlı ibarət dialoq qurun, bu zaman nitq etiketlərindən məqsədəuyğun şəkildə istifadə edin;
- Peşənizlə bağlı əlaqələrinizə təsir edəcək cəhətləri cədvələ əsasən qruplaşdırın: təkəbbürlü və lovğa davranış, təvazökarlıq, dürüst olmaq, tez-tez müsahibinin sözünü kəsmək, ancaq özünü tərifləmək, müsahibini diqqətlə dinləmək, yalan söyləmək, müsahibinin sözünü kəsmədən dinləmək, yersiz mimika və jestlərdən istifadə etmək,

müsahibinə adı ilə müraciət etmək, danışarkən mövzudan kənara çıxmamaq; ”deməli”, “ümumiyyətlə”, “şey” və s. kimi sözlərdən istifadə etmə.

| Müsbət təsir edən cəhətlər | Mənfi təsir edən cəhətlər |
|---|---|
| | |

- Rollu oyun vasitəsi ilə peşənizlə bağlı işgüzar görüşmədə hansı etik davranış normalarına riayət etməli olduğunuzu nümayiş etdirin;
- Xanım işçi yoldaşınızla bağlı konkret situasiyanda hansı etik davranış normalarından və ifadələrdən istifadə etməli olduğunuzu rollu oyun vasitəsi ilə nümayış etdirin;
- Nəzakətli ifadələrdən istifadə edərək konkret iş görüşməsini təsvir edən dialoq qurun;
- Ümumi etiket normalarına aid “Düzgün davranışın həyatımızda rolu” mövzusunda məruzə hazırlayın;
- “Etiket normalarının iş həyatımıza təsiri” mövzusunda diskusiya təşkil edin;
- Peşənizlə bağlı etik normaları gözləmədikdə hansı halların baş verə biləcəyini rollu oyun vasitəsi ilə nümayiş etdirin;
- Əlavə mənbələrdən (internet materialları, əlavə ədəbiyyat, kinofilm və s.) istifadə etməklə məşhur iş adamlarının həyatında etiketlərdən düzgün istifadə nəticəsində əldə edilən uğurlara dair təqdimat hazırlayın;
- Gündəlik həyatda istifadə edilən etiket və nəzakət normalarına dair rollu oyun nümayış etdirin;
- “Ümumbəşəri dəyərlər nələrdən ibarətdir və onlar necə qorunur?” mövzusunda təqdimat hazırlayın;
- “Fövqəladə hallarda hansı zəruri davranış normalarından istifadə etməliyik?” mövzusunda təqdimat hazırlayın.

## *Qiymətləndirmə*

Aşağıdakı qiymətləndirmə meyarlarına əsasən qiymətləndirəcəksiniz:

1. **“Etiket və nəzakət qaydalarını təhlil edir”**
2. **“Etiket və nəzakət qaydalarından istifadə edir”**
3. **“Gələcəkdə işləyəcəyi peşəsinə aid işgüzar etika qaydalarını təhlil edir və onlardan istifadə etməyi bacarır”**

- Peşənizlə bağlı əlaqələrinizə müsbət təsir edəcək beş davranış qaydası yazın.
- Peşənizlə bağlı əlaqələrinizə mənfi təsir edə biləcək bir neçə müxtəlif davranış formasını qeyd edin və yaxşı nəticə əldə etmək üçün onları hansı davranış formaları ilə əvəz etməli olduğunuzu nümayiş etdirin.
- İşçı yoldaşınızın fikirlərini dəstəkləyən nəqli cümlələr, onun nə istədiyini aydınlaşdırmaq üçün verilən sual cümlələri yazın.
- Peşənizlə bağlı arqument və faktlardan istifadə etməklə qurulan cümlələr yazın.
- Xanım işçi yoldaşlarınızla bağlı hansı etik davranış normalarını gözləməlisiniz?

- Hansı peşələrlə bağlı xüsusi etik davranış normaları var?
- Peşənizlə bağlı hansı xüsusi davranış normaları var?
- Sizə təqdim olunan konkret situasiya ilə bağlı hansı etik davranış normalarından istifadə etməli olduğunuzu nümayiş etdirin.
- İşgüzar görüşlər zamanı hansı zəruri etik normalardan istifadə etmək lazım olduğunu sadalayın, şərh edin.
- Yalnız Azərbaycan mühitinə xas olan etik davranış normalarının hər hansı xarici ölkədə olan ümumi davranış normaları ilə müqayisəli təhlilini şərh edin.
- İş adamlarının həyatında etik davarnış normalarının rolunu məşhur iş adamlarının həyatına aid bildiyiniz nümunələrlə əsaslandırın.
- Hansı ümumbəşəri dəyərlər var?
- Ümumbəşəri dəyərlərin qorunması üçün dünyada və dövlət səviyyəsində hansı işlər görülür və bu sahədə şəxsən sizin üzərinizə düşən vəzifə nədən ibarətdir?
- Gündəlik həyatda hansı etiket və nəzakət qaydalarından istifadə edilir və bunların əhəmiyyəti nədir?
- Fövqəladə hallarda peşənizlə bağlı hansı zəruri davranış normalarından istifadə etməli olduğunuzu sadalayın.

## Ədəbiyyat


1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait) edebiyyat.ucox.com
2. Azərbaycan klassik ədəbiyyatından seçmələr.3 cilddə II cild
3. N.Gəncəvinin seçilmiş əsərləri.
4. İnternet əsasında toplanan məlumatlar.
5. M.F.Axundzadənin seçilmiş əsərləri
6. Mənbə: Elektron kitabxana
7. "Xalqın məhəbbətini qazanmış bəstəkar "Ədəbiyyat qəzeti
8. Ü.Hacıbəyli "seçilmiş əsərləri" 2 cilddə
9. MM əttin Səmədin " Adi və qeyri adi Səttar kitabında"
10. X sinif Azərbaycan dili dərsliyi
11. İ.Rəhimli. "Səttar dünyası" Ədəbiyyat və incəsənət 1976.